RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 28 (9483) 9 FEVRAL 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qalib Azərbaycan xalqıdır

Daha bir seçki kampaniyası uğurla, mütəşəkkilliklə başa çatdı - seçkilərin alisi sayılan prezident seçkiləri!

Xalq növbəti dövrdə müstəqil dövlətini idarə edəcək rəhbərinə öz etimadını göstərdi!

Bütün seçki prosesi ilk gündən son dəqiqəsinədək demokratik şəkildə, seçki məcəlləsinin bütün tələblərinə əməl olunmaqla keçirildi!

Nəticə hamının gözlədiyi kimi oldu!

Azərbaycan xalqı birmənalı şəkildə, böyük əminlik və minnətdarlıq hissi ilə yenidən cənab İlham Əliyevə səs verdi!

Cənab İlham Əliyevin rəqibi olan digər namizədlər də bu qələbəni normal qarşıladılar, keçmiş rəqiblərini və köhnə - yeni prezidentlərini təbrik edərək seçkinin nəticələrini qəbul etdiklərini bildirdilər.

* İlham Əliyevin bu qələbəsi ədalətli və gözlənilən qələbədir!

* İlham Əliyevin bu qələbəsi onun ölkəyə rəhbərliyinin 20 ili ərzində gördüyü işlərin bəyənilməsinin və davamlı olmasının məntiqi təsdiqi və ifadəsidir!

* İlham Əliyevin bu qələbəsi Azərbaycanın inkişafının yeni dövrünün başlanmasına xalqın xeyir-duası, razılığının təntənəsidir!

* İlham Əliyevin bu qələbəsi bütövlükdə xalqın, Azərbaycanın hər bir vətəndaşının qələbəsidir!

Bu seçki də, bu qələbə də dünyada nadir hallarda təsadüf olunan əsl xalq seçkisi və qələbələr qələbəsidir!

→ 7

## Prezidentliyə namizədlər İlham Əliyevi parlaq qələbə münasibətilə təbrik ediblər

Fevralın 8-də Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuş Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, həmçinin namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Zahid Oruc və Fuad Əliyev seçkilərdə Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlmiş Prezident İlham Əliyevə zəng ediblər.

→ 4

## "Azərbaycanda seçkilərin təşkili Avropa standartlarını üstələyir"

Bunu beynəlxalq müşahidəçilər etiraf etdilər

Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində iştirak üçün 760 beynəlxalq müşahidəçi qeydiyyatdan keçmişdi. Müxtəlif ölkələrdən olan həmin beynəlxalq müşahidəçilər respublikamızın bölgələrində, habelə paytaxt Bakıda və işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən məntəqələrdə seçki prosesini izləmişlər. Onlar seçici fəallığını, vətəndaşların bayram əvhali-ruhiyyəsində olduğunu vurğulamış, heç bir nöqsanla rastlaşmadıqlarını qeyd etmişlər.

→ 10

◆ Naxçıvan Muxtar Respublikası -100

## 100 illik şanlı tarix

Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyevin timsalında Heydər Əliyev siyasi kursuna sədaqətini, məhəbbətini və etimadını növbəti dəfə göstərdi

Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100-cü ili tamam olur. Prezident İlham Əliyevin imzaladığı 30 dekabr 2023-cü il tarixli müvafiq sərəncamla muxtar respublikanın 100 illik yubileyi geniş qeyd olunur. Qədim yurdumuzun birəsrlik muxtariyyət yubileyini fevral ayının 7-də keçirilən prezident seçkilərində xalqımızın cənab İlham Əliyevə növbəti dəfə göstərdiyi yüksək etimadın yaratdığı yüksək əhvali-ruhiyyə fonunda qarşılayırıq.

2 gün əvvəl keçirilmiş səsvermənin nəticələri xalqımızın milli maraq və mənafelərini layiqincə təmin edən, Azərbaycanı davamlı və sürətli inkişaf yoluna çıxaran hazırkı siyasi kursun alternativsizliyini bir daha sübuta yetirdi.

→ 12

## Siyasi avantürist qanlı diktatora çevrilir

Ölkəsində korrupsiyada, dünyada repressiyalarda ittiham edilən prezident Makron Qafqazda dayandırılmış müharibəni yenidən alovlandırmağa çalışır

→ 5

◆ Prezidentin qəbulunda

## “Azərbaycanda seçki prosesini müşahidə etmək böyük şərəf və məsuliyyətdir”

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev seçkilərin açıq, demokratik şəkildə təşkil olunduğunu bildirdi

## “Prezident İlham Əliyevin Qarabağ Zəfəri türk dünyasının özünəinamını daha da gücləndirib”

TÜRKPA Şuşada, Xankəndidə səsvermə prosesini müşahidə etdiklərindən məmnundurlar

## “Vətən müharibəsində İlham Əliyev dünyaya nümunə göstərdi”

Türkiyəli deputatlar Prezidentin Xankəndidə səs verməsinin böyük əhəmiyyət daşıdığını bildirdilər

## “COP29-a evsahibliyi Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsidir”

Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Min Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı yüksək qiymətləndirdi

## Türk Dövlətləri Təşkilatı seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu bəyan etdi

→ 2

## 7 fevral qələbəsinin təməli

İnkişaf, firavanlıq, zəfər

→ 14

# Dünya liderləri İlham Əliyevi təbrik edirlər



***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti:***

- Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir. Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işi davam etdirəcəyik.



***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti:***

- Bu gün Sizin - öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır. Heç şübhəsiz, Sizin bu yüksək vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə və cəmiyyətin müasirləşməsinə, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət edəcəkdir.



***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti:***

- Ümumxalq səsverməsinin yekunları Sizin çoxşaxəli islahatlar kursunuza tam etimadın və xalqın birliyinin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsi işində xidmətlərinizin təsdiqinin parlaq sübutuna çevrildi. Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan uğurla inkişaf etməkdə, beynəlxalq birliyin nüfuzlu üzvü və regional dövlət kimi güclənməkdə davam edəcəkdir. Qazaxıstanda Siz qardaş ölkələrimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinin əzmkar tərəfdarı kimi böyük hörmətə maliksiniz.



***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti:***

- İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur. İqtisadi tərəqqi və vətəndaşların rifahının yüksəlməsi, ölkənin suverenliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə rolunun artması haqlı olaraq Sizin adınızla bağlıdır. Belarusun timsalında Sizin ədalətli və bərabərhüquqlu dövlətlərarası münasibətlərin qurulmasına, təhlükəsizliyin, dialoqun və etimadın möhkəmləndirilməsinə yanaşmaları bölüşən etibarlı dostunuz vardır.



***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti:***

- Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir və ölkənin ardıcıl sosial-iqtisadi inkişafına, həmçinin dövlətinizin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strateji kursunuzun xalqınız tərəfindən geniş şəkildə dəstəklənməsinin göstəricisidir. Sizin Tacikistan-Azərbaycan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və dərinləşməsinə sanballı şəxsi töhfənizi vurğulayaraq bu əlaqələrin gələcəkdə də hərtərəfli inkişafına marağımızı ifadə edirəm.



***Volodimir ZELENSKİ,***
***Ukrayna Prezidenti:***

- Mən ölkələrimizin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi yüksək qiymətləndirirəm. Dövlətimizin azadlıq mübarizəsinin tarixi dövründə humanitar və digər yardımlara görə Azərbaycana minnətdarıq. Prezident Əliyevlə şəxsi konstruktiv və etibarlı münasibətimi, razılaşmaların həyata keçirilməsini və komandalarımız arasında səmərəli qarşılıqlı fəaliyyəti yüksək qiymətləndirirəm. Əminəm ki, Ukrayna və Azərbaycan arasında strateji əlaqələr yalnız möhkəmlənəcək.



***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti:***

- Səsvermənin nəticələri Azərbaycan xalqının Sizin dövlətçiliyin möhkəmləndirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına istiqamətlənmiş siyasi kursunuza yüksək səviyyədə etimadının və dəstəyinin göstəricisidir. Əminəm ki, bu mühüm hadisə Azərbaycan Respublikasının gələcəkdə də inkişafına və onun vətəndaşlarının rifahının yüksəldilməsinə kömək edəcəkdir. Türkmənistan ilə Azərbaycan Respublikası arasında qardaşlıq münasibətlərinin səmərəli xarakterini qeyd etmək sevindiricidir. Ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinə şəxsi diqqətinizə və böyük dəstəyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

# “Azərbaycanda seçki prosesini müşahidə etmək böyük şərəf və məsuliyyətdir”

## Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedev seçkilərin açıq, demokratik şəkildə təşkil olunduğunu bildirdi

**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Lebedevi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Sergey Lebedev Prezident İlham Əliyevə seçkilərdə inamlı qələbə münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Sergey Lebedevə və MDB müşahidə missiyasının bütün üzvlərinə bu seçkiləri müşahidə etdiklərinə görə təşəkkürünü bildirdi, MDB müşahidə missiyasının Azərbaycanda bu və daha əvvəlki seçkilərdə də müşahidələrdə fəal şəkildə iştirak etdiyini vurğuladı.

Sergey Lebedev qeyd etdi ki, Azərbaycanda seçki prosesini müşahidə etmək onlar üçün böyük şərəf və eyni zamanda məsuliyyətdir. Vurğuladı ki, bu, Azərbaycan xalqı üçün tarixi bir gün və tarixi seçkilər idi. Ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, regionda uzunmüddətli və davamlı sülh üçün yaxşı imkanların yarandığını deyən qonaq bu seçki prosesində sadə insanlarla, seçicilərlə, müşahidəçilərlə geniş söhbətlərinin olduğunu, Azərbaycan xalqının bu seçkilərdə xüsusi rəğbət hissi ilə öz seçki hüququndan istifadə etdiklərini bildirdi.

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Azərbaycan xalqının ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunandan sonra ilk dəfə seçkilərin keçirilməsi prosesində iştirak etdiyini dedi, həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərini, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasını və həmin ərazilərdə seçki hüquqlarından istifadə etdiklərini vurğuladı.

Sergey Lebedev MDB müşahidə missiyasının 170-ə yaxın müşahidəçi ilə seçki prosesində təmsil olunduğunu dedi. Qonaq hər bir seçkinin ölkələrin qanunvericiliyinə uyğun və Seçki Məcəlləsi əsasında keçirilməli olduğunu qeyd etdi və bu seçkilərin də Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun qaydada açıq, demokratik şəkildə təşkil olunduğunu bildirdi.

Baş katib bu gün mətbuat konfransı keçirəcəklərini və seçki müşahidə missiyasının fəaliyyəti haqqında hesabatlarını geniş ictimaiyyətə təqdim edəcəklərini dedi.

Dövlətimizin başçısı seçkilərin ilk dəfə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəkildə ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və digər rayonlarda keçirildiyini qeyd edərək bunun Azərbaycan xalqı üçün xüsusi tarixi əhəmiyyət daşıdığını vurğuladı.

Keçmiş məcburi köçkünlərin artıq bir hissəsinin işğaldan azad olunmuş ərazilərə qaytarıldığını və bunun üçün Böyük qayıdış Proqramı əsasında məcburi köçkünlərin geri qayıdışına dair layihələrin icra edildiyini deyən Prezident İlham Əliyev birinci mərhələnin 2026-cı ildə başa çatdırılacağını, bundan sonrakı mərhələlərdə də məcburi köçkünlərin geri qayıtmalarının təmin olunacağını diqqətə çatdırdı.

Söhbət zamanı MDB-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunuldu, Azərbaycanın MDB çərçivəsində əlaqələrə və müzakirələrə töhfə verdiyi, MDB ölkələri arasında siyasi, mədəni, iqtisadi və digər sahələrdə əməkdaşlıq layihələri barədə fikir mübadiləsi aparıldı.

# Türk Dövlətləri Təşkilatı seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu bəyan etdi

**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, seçkilərdə inamlı qələbəsi münasibətilə Prezident İlham Əliyevə Türk Dövlətləri Təşkilatı adından təbriklərini çatdıran Kubanıçbek Ömüralıyev təşkilatın geniş müşahidə missiyası ilə bu seçkiləri müşahidə etdiklərini, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şuşada, Xankəndidə və azad edilmiş digər ərazilərdə olduqlarını, TDT ailəsinə daxil olan başqa təsisatlarla əlaqələndirilmiş şəkildə bu seçki prosesini müşahidə etdiklərini vurğuladı. Qonaq seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu qeyd etdi.

TDT-nin Baş katibi şanlı Qarabağ Zəfəri və ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması ilə əlaqədar Azərbaycan xalqının bu seçkilərdə xüsusi əhvali-ruhiyyə ilə seçki hüquqlarından istifadə etdiklərini dedi.

Kubanıçbek Ömüralıyev qeyd etdi ki, bu gün TDT-nin müşahidə missiyasının mətbuat konfransı olacaq və missiya seçkilərlə bağlı müşahidələrinin nəticələrini bəyan edəcək.

Prezident İlham Əliyev TDT-nin müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə minnətdarlığını bildirdi.

Kubanıçbek Ömüralıyev qeyd etdi ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya prosesinə və tərəfdaşlığın daha da yüksəlməsinə daim öz töhfələrini verir.

Görüşdə bu il Azərbaycanda TDT-nin qeyri-rəsmi Zirvə toplantısının keçiriləcəyi məmnuniyyətlə qeyd edildi. Təşkilatın bundan sonra da inkişafının, əməkdaşlığı və tərəfdaşlığı daha da gücləndirəcək yeni layihələrlə çıxış etməsinin vacibliyi diqqətə çatdırıldı.

# “Prezident İlham Əliyevin Qarabağ Zəfəri türk dünyasının özünəinamını daha da gücləndirib”

## TÜRKPA Şuşada, Xankəndidə səsvermə prosesini müşahidə etdiklərindən məmnundurlar

**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Mehmet Süreyya Eri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesteni qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev seçkilərdə müşahidəçi qismində iştirakına görə TÜRKPA nümayəndə heyətinə və müşahidə missiyasının bütün üzvlərinə təşəkkürünü bildirdi.

Müşahidə missiyasının üzvləri prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdilər. Onlar həm Şuşada, həm də Xankəndidə səsvermə prosesini müşahidə etdiklərini məmnunluqla bildirdilər və bunu tarixi məqam kimi qiymətləndirdilər.

Prezident İlham Əliyev bu seçkilərin tarixi hadisə olduğunu deyərək ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində təşkil olunmuş səsvermə prosesində iştirak etdiyini xüsusi vurğuladı.

Qonaqlar bildirdilər ki, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan xalqının Qarabağ Zəfəri bütün türk dünyasının zəfəridir və bu, türk dünyasının özünəinamını daha da gücləndirib.

Söhbət zamanı türk dünyasının bir ailə olduğu və bu çərçivədə əməkdaşlığın bütün sahələrdə daha da dərinləşdirilməsinin və genişləndirilməsinin vacibliyi qeyd edildi.

# “COP29-a evsahibliyi Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsidir”

## Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Min Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı yüksək qiymətləndirdi

**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev müşahidə missiyasında iştirakına görə Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibinə, müşahidə qrupunun üzvlərinə və üzv dövlətlərə minnətdarlığını bildirdi.

Can Min Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının fəal tərəfdaşlarından biri olduğunu və Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verdiklərini bildirdi. Ölkəmizlə müxtəlif sahələrdə yaxın tərəfdaşlıq əlaqələrinin olduğunu deyən Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanların olduğunu bildirdi, ölkəmizin, eyni zamanda Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə də ikitərəfli qaydada çox sıx əlaqələrini vurğuladı. Bu xüsusda dövlətimizin başçısı prezident seçkilərində qələbə münasibətilə ilk təbrikləri təşkilata üzv ölkələrdən aldığını qeyd etdi. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirakını məmnunluqla xatırladı.

Qonaq Azərbaycanın COP29-a evsahibliyi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsi olduğunu bildirdi. Can Min COP29 çərçivəsində də Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq məsələlərini qeyd etdi.

# "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 928-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"nin 8.24-cü bəndində "məişət və istehsalat tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

2. "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 26 dekabr tarixli 61 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1528 (Cild I)2.1-ci bəndində və 4-cü hissəsində "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613 (Cild I) ilə təsdiq edilmiş "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.17-ci yarımbənddə "sənaye və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin;

3.2. 3.2.8-ci yarımbənddə "istehsalat və məişət tullantılarının" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyəti ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.45-ci yarımbəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə" üzrə:

4.2.1. 2.0.2-ci yarımbənddə "məişət və istehsalat tullantılarının," sözləri "tullantıların, o cümlədən" sözləri ilə əvəz edilsin;

4.2.2. 3.0.10-cu yarımbənddə "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nin 3.1.17-ci yarımbəndində "İstehsalat və məişət tullantıları" sözləri "Tullantılar" sözü ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"nin 7.4.11-ci yarımbəndinə "dövlət rüsumları" sözlərindən sonra ", habelə utilizasiya haqları" sözləri əlavə edilsin.

6. "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 oktyabr tarixli 774 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1239 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənddə "istehsalat və məişət tullantılarından" sözləri "tullantılardan" sözü ilə əvəz edilsin;

6.2. 4-cü hissədə "istehsalat və məişət tullantıları" sözləri "tullantıların" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 fevral 2024-cü il*

# Vətən müharibəsində İlham Əliyev dünyaya nümunə göstərdi

## Türkiyəli deputatlar Prezidentin Xankəndidə səs verməsinin böyük əhəmiyyət daşıdığını bildirdilər

**Fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.**





AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev seçkiləri müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirdi.

Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi.

Qonaq Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğunun və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu vurğuladı.

Dövlətimizin başçısı seçkilərdə qazandığı qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğanın ona təbrik məktubu göndərdiyini və Türkiyə Prezidenti ilə telefonla danışdıqlarını məmnunluqla qeyd etdi.

Şamil Ayrım Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs vermələrinin böyük əhəmiyyət daşıdığını bildirdi.

Dövlətimizin başçısı da Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənasının olduğunu vurğuladı.

Şamil Ayrım 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında Prezident İlham Əliyevin və Azərbaycanın dünyaya bir nümunə göstərdiyini qeyd etdi. Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinin dövlətimizin başçısı tərəfindən yerinə yetirildiyini deyən qonaq vurğuladı ki, Azərbaycan xalqı ilk dəfə olaraq bu seçkilərdə ərazi bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qürurla iştirak edib.

Azərbaycan Prezidenti Vətən müharibəsində Qələbədə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin mənəvi-siyasi dəstəyinin yüksək qiymətləndirildiyini bir daha qeyd etdi.

Görüşdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə qarşı ədalətsizlik vurğulandı, Türkiyə Böyük Millət Məclisinin bunun əleyhinə olduğu və Türkiyə parlamentində də bununla əlaqədar müvafiq bəyanatların və müraciətlərin qəbul olunacağı qeyd edildi, Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməsinin vacibliyi bildirildi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı və Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Türk Dövlətləri Təşkilatında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşdirilməsinin önəmi qeyd olundu.

Nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının daha da inkişafı üçün fəaliyyətini yüksək qiymətləndirdiklərini dedilər.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN


# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir.

Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işi davam etdirəcəyik. Şübhəsiz ki, bu iş dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin, təhlükəsizliyin gücləndirilməsi istiqamətində gedir.

Hörmətli İlham Heydər oğlu, dövlət başçısı vəzifəsində məsuliyyətli fəaliyyətinizdə Sizə səmimi-qəlbdən uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümumxalq səsverməsinin yekunları Sizin çoxşaxəli islahatlar kursunuza tam etimadın və xalqın birliyinin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsi işində xidmətlərinizin təsdiqinin parlaq sübutuna çevrildi.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan uğurla inkişaf etməkdə, beynəlxalq birliyin nüfuzlu üzvü və regional dövlət kimi güclənməkdə davam edəcəkdir.

Qazaxıstanda Siz qardaş ölkələrimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinin əzmkar tərəfdarı kimi böyük hörmətə maliksiniz.

Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın zəngin potensialının reallaşdırılması naminə sıx məhsuldar işimizin davam etdirilməsinə hazır olduğumu təsdiq edirəm.

Əminəm ki, bizim Bakıda keçirəcəyimiz tamformatlı görüş Qazaxıstan-Azərbaycan münasibətlərinin gələcəkdə dərinləşməsi məqsədilə qarşılıqlı səmərəli əməkdaşlığın yeni üfüqlərini müəyyənləşdirməyə imkan yaradacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə qardaş Azərbaycanın rifahı və firavanlığı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər diləyir, nəzərdə tutduğunuz bütün planların uğurla reallaşmasını arzu edirəm.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım.

Azərbaycan Respublikasında yüksək səviyyədə keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi - əziz Qardaşımı səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən sonsuz məmnunluq duyuram.

Bu seçkilərdə Sizin namizədliyinizin əhali tərəfindən hərtərəfli dəstəklənməsi xalqınızın irəli sürdüyünüz strateji proqram və planlara sonsuz inamının əyani təzahürüdür. Bu, ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olması, ölkənizdə bütün sahələrdə aparılan genişmiqyaslı islahatlar və böyük quruculuq işləri ilə bilavasitə bağlıdır desəm, əsl həqiqəti ifadə etmiş olaram.

Bu gün Sizin - öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır. Heç şübhəsiz, Sizin bu yüksək vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə və cəmiyyətin müasirləşməsinə, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət edəcəkdir.

Əziz qardaşım, bu məqamda xüsusi qeyd etmək istərdim ki, son illərdə bizim ali səviyyədə fəal təmaslarımız və aramızda olan sıx qardaşlıq münasibətlərimiz, həyata keçirilən konkret layihələr və "yol xəritələri" qarşılıqlı faydalı əlaqələrimizə güclü təkan verir.

Sizinlə razılaşdığımız kimi, Özbəkistan və Azərbaycan arasında çoxtərəfli əlaqələrin sürətli inkişafı ili elan edilən cari il ərzində daha on yeni sahə üzrə, o cümlədən kimya, neft-qaz, mədənçıxarma, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bank-maliyyə sahələrində əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş böyük planlarımızın tam şəkildə həyata keçiriləcəyinə inanıram.

Əminəm ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində uzunmüddətli strateji tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi rifahı naminə bundan sonra da səmərəli şəkildə inkişaf edəcəkdir.

Heç şübhəsiz ki, Zati-alinizin gələcəkdə ölkəmizə həyata keçiriləcək səfəri mövcud potensialımıza və imkanlarımıza uyğun olaraq çoxşaxəli və dostluq əlaqələrimizi tamamilə yeni səviyyəyə ucaldacaqdır.

Hörmətli İlham Heydər oğlu, bu mühüm qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

*Ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu məsul vəzifənin həyata keçirilməsində Sizə uğurlar arzulayıram. İnanıram ki, Siz dövlətinizin ümumi inkişafı və vətəndaşlarınızın firavanlığı naminə fədakarlıqla işləməyə davam edəcəksiniz.

Son 30 il ərzində Xorvatiya ilə Azərbaycan arasında dostluq münasibətləri inkişaf etməkdədir. Əminəm ki, Sizin yeni prezidentliyiniz dövründə biz ümumi münasibətlərimizin möhkəmlənməsi və dərinləşməsi istiqamətində fəaliyyətimizi davam etdirəcəyik. Bizim iqtisadi əməkdaşlığımız xüsusi əhəmiyyət daşıyır və bunun daha da inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. İnanıram ki, Azərbaycan və Xorvatiya şirkətləri arasında sıx əməkdaşlığı daha da təşviq etmək, eləcə də qarşılıqlı sərmayələrə marağı artırmaq üçün səylərimizi əsirgəməyəcəyik.

Cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermə zamanı seçicilərin nümayiş etdirdikləri güclü dəstək cəmiyyətin birliyini və Sizin Azərbaycan xalqı arasında yüksək nüfuzunuzu bir daha çox aydın şəkildə təsdiq etdi.

İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur. İqtisadi tərəqqi və vətəndaşların rifahının yüksəlməsi, ölkənin suverenliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə rolunun artması haqlı olaraq Sizin adınızla bağlıdır. Belarusun timsalında Sizin ədalətli və bərabərhüquqlu dövlətlərarası münasibətlərin qurulmasına, təhlükəsizliyin, dialoqun və etimadın möhkəmləndirilməsinə yanaşmaları bölüşən etibarlı dostunuz vardır.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə bütün planlarınızı həyata keçirmək üçün tükənməz enerji arzulayıram.

Sizi qonaqpərvər Belarus torpağında salamlamaqdan həmişə məmnunam.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizin dövlətçiliyin möhkəmləndirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına istiqamətlənmiş siyasi kursunuza yüksək səviyyədə etimadının və dəstəyinin göstəricisidir. Əminəm ki, bu mühüm hadisə Azərbaycan Respublikasının gələcəkdə də inkişafına və onun vətəndaşlarının rifahının yüksəldilməsinə kömək edəcəkdir.

Türkmənistan ilə Azərbaycan Respublikası arasında qardaşlıq münasibətlərinin səmərəli xarakterini qeyd etmək sevindiricidir. Əminik ki, bu münasibətlər gələcəkdə də inkişaf edəcək və iki ölkənin xalqlarının rifahı naminə dərinləşəcəkdir. Ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinə şəxsi diqqətinizə və böyük dəstəyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət və dövlət başçısı vəzifəsində məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu münasibətlə ən xoş arzularımı qəbul edin.

Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir və ölkənin ardıcıl sosial-iqtisadi inkişafına, həmçinin dövlətinizin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strateji kursunuzun xalqınız tərəfindən geniş şəkildə dəstəklənməsinin göstəricisidir.

Sizin Tacikistan-Azərbaycan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və dərinləşməsinə sanballı şəxsi töhfənizi vurğulayaraq bu əlaqələrin gələcəkdə də hərtərəfli inkişafına marağımızı ifadə edirəm.

Əminəm ki, biz gələcəkdə də birgə səylərlə iki ölkənin çoxplanlı qarşılıqlı münasibətlərini inkişaf etdirəcəyik, xalqlarımızın rifahı naminə bu əməkdaşlığı yeni praktiki məzmunla zənginləşdirəcəyik.

Əziz İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və təşəbbüslərinizin reallaşdırılmasında yeni böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

*Səmimiyyətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***



Hörmətli cənab Prezident.

Xorvatiya Respublikasının Hökuməti adından və şəxsən öz adımdan yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Ötən otuz il ərzində Xorvatiya və Azərbaycan yüksəksəviyyəli ikitərəfli əməkdaşlığa nail olub. Mən şadam ki, 2023-cü ilin noyabrında Bakıda keçirdiyimiz görüş zamanı əlaqələrimizi, xüsusilə ticarət və enerji təhlükəsizliyi sahələrində ümumi əməkdaşlığımızı müzakirə etmək fürsətimiz oldu.

Qarşıdakı illərdə Sizinlə və Azərbaycan Respublikasının Hökuməti ilə siyasi, iqtisadi və mədəni münasibətlərin daha da inkişafına nail olmaq üçün sıx işləməyə sadiqliyimizi bildirirəm.

Azərbaycan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə Sizə böyük uğurlar arzu edirəm.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

*Dərin hörmətlə,*

***Andrey PLENKOVİÇ,***
***Xorvatiya Respublikasının Baş naziri***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan zamanla ayaqlaşan, iqtisadi və sosial həyatda sürətli artım nümayiş etdirən ölkədir. Bu isə, öz növbəsində, əsas etibarilə uzun illər ərzində xalq tərəfindən geniş şəkildə dəstəklənən və rəğbətlə qarşılanan uzaqgörən dövlət siyasətinizin nəticəsidir. Bunu keçirilmiş prezident seçkilərinin nəticələri də sübut edir.

Biz Sizin Türkmənistana səmimi dostluq münasibətinizi yüksək qiymətləndiririk. Qəti əminəm ki, Türkmənistan-Azərbaycan əməkdaşlığı iki ölkə xalqlarının rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifədə bütün məqsədlərə nail olmağı, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı rifah arzu edirəm.

*Dərin hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri***

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf hissi duyuram.

Azərbaycan xalqı Zati-alinizin müdrik liderliyinə olan etimadı ilə parlaq və inkişaf etmiş gələcəyə doğru daha sürətlə irəliləyəcəkdir.

Bu fürsətdən istifadə edərək İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycana verdiyi əhəmiyyəti bir daha qeyd edir, təşkilatın birgə işlənib hazırlanmış iqtisadi gündəliyinin irəliyə aparılmasında ölkənizin daim artan rolunu və töhfəsini xüsusi vurğulayıram.

İqtisadi Əməkdaşlıq Təşkilatının daha fəal olmasını və inteqrasiyasını təşviq etmək üçün məqsədlərimizin həyata keçirilməsində Zati-alinizin davamlı dəstəyini və himayəsini səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Xusrav NOZİRİ,***
***İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi***

Zati-aliləri, cənab Prezident.

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizin liderliyiniz və Azərbaycanın inkişafına sadiqliyiniz həqiqətən də yüksək təqdirə layiqdir. Xalqınızın firavanlığı və dinc gələcəyi üçün göstərdiyiniz fədakarlığı yüksək qiymətləndiririk.

Azərbaycan xalqı demokratiya, institusional və iqtisadi inkişafa sadiqliyini bir daha nümayiş etdirərkən biz bu tərəqqi yolunda inamlı mübarizənin şahidi olmaqdan şərəf duyuruq.

Sizin Azərbaycanın gələcək inkişafı ilə bağlı planlarınız bizim hər birimizi ilhamlandırır. Sizin həmin planları həyata keçirməyə qadir olduğunuza əminik. Sizin prezidentliyiniz dövründə Azərbaycan uğurların və sabitliyin parlaq nümunəsinə çevrilmiş, regionda və onun hüdudlarından kənarda öz rolunu və əhəmiyyətini gücləndirmiş, ərazi bütövlüyünü bərpa etmişdir.

Müstəsna nailiyyətlərinizə, həm regional, həm də qlobal sülhə və sabitliyə olan sarsılmaz sədaqətinizə görə Sizi alqışlayırıq.

Biz daha sabit, dinc və qaydalara əsaslanan beynəlxalq nizamın təşviqinə birgə səylərimizlə töhfə verməkdən şərəf duyuruq.

Bu əlamətdar hadisə münasibətilə Sizi və Azərbaycan xalqını bir daha təbrik edirik. Biz inkişaf yolunda birlikdə davam etməyə ümidlə baxır və Qəyyumlar Şurasının üzvləri olaraq bu ilin mart ayında XI Qlobal Bakı Forumunda Sizinlə görüşməyi səbirsizliklə gözləyirik.

*Hörmətlə,*

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri:

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***
***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***
***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***
***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***
***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***
***Zlatko LAQUMCİYA,***
***Bosniya və Herseqovinanın BMT-də daimi nümayəndəsi, 2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***
***Kolinda Qrabar-KİTAROVİÇ,***
***2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti***
***Tzipi LİVNİ,***
***2006-2009-cu illərdə İsrailin Baş nazirinin müavini, xarici işlər naziri***
***Milisa Pjanoviç-DURİSİÇ,***
***2012-2016-cı illərdə Monteneqronun müdafiə naziri, 2006-2012-ci illərdə xarici işlər naziri***
***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***
***Mladen İVANİÇ,***
***2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***
***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***
***Ekmələddin İHSANOĞLU,***
***2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***
***Kirill QABURİÇİ,***
***2015-ci ildə Moldovanın Baş naziri***
***Ana BİRÇAL,***
***2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini və ədliyyə naziri***
***Valdis ZATLERS,***
***2007-2011-ci illərdə Latviyanın Prezidenti***
***Peter MEDEŞİ,***
***2002-2004-cü illərdə Macarıstanın Baş naziri***
***Petru LUÇİNSKİ,***
***1997-2001-ci illərdə Moldovanın Prezidenti***
***Coys BANDA,***
***2012-2014-cü illərdə Malavinin Prezidenti***
***Emil KONSTANTİNESKU,***
***1996-2000-ci illərdə Rumıniyanın Prezidenti***
***Volkan BOZKIR,***
***BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri***
***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***
***Şövkət ƏZİZ,***
***2004-2007-ci illərdə Pakistanın Baş naziri***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Seçkilərin yüksək nəticələri Sizin rəhbərliyinizlə aparılan, başlıca məqsədi Azərbaycanın birliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsi, vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sülhün və təhlükəsizliyin, ölkədə millətlərarası və konfessiyalararası münasibətlərin gücləndirilməsi olan düşünülmüş siyasi və iqtisadi dövlət kursuna ümumxalq dəstəyini bütün aşkarlığı ilə göstərdi.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsində müvəffəqiyyətlər, Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***Rusiya Federasiyası İnquşetiya Respublikasının birinci Prezidenti, Sovet İttifaqı Qəhrəmanı***

Möhtərəm İlham Heydər oğlu.

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən bu vəzifəyə seçilməyiniz Azərbaycan xalqı arasında malik olduğunuz böyük nüfuzu tam şəkildə təsdiqləyir. Əminəm ki, Sizin yüksək liderlik keyfiyyətləriniz Azərbaycan Respublikasının siyasi sabitliyinin qorunmasına və gələcək iqtisadi inkişafına töhfə verməkdə davam edəcəkdir.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikasını birləşdirən dostluq əlaqələrini yüksək qiymətləndirir, Sizə bizim regionla çoxplanlı qarşılıqlı faydalı əlaqələrin möhkəmlənməsinə göstərdiyiniz davamlı dəstəyə görə minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, səadət, əmin-amanlıq və Azərbaycan Respublikası naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu qələbə cəmiyyətin sıx birliyinin və Azərbaycan xalqı arasında Sizin çox yüksək nüfuzunuzun parlaq sübutudur. Bu nəticə Sizin liderliyinizə Azərbaycan xalqının hüdudsuz etimadının sübutudur, əsası dahi Heydər Əliyev tərəfindən qoyulmuş və Sizin davam etdirdiyiniz siyasi kurs sayəsində bir çox sahələrdə, eləcə də regional və beynəlxalq müstəvidə əldə etdiyiniz heyrətamiz uğurlara verilən qiymətdir.

Mən Sizin qətiyyətinizə, yüksək siyasi mədəniyyətinizə və xalqınızın səsini eşitmək bacarığınıza həmişə heyran olmuşam. Bu liderlik keyfiyyətləri nəticəsində güclü, müstəqil, rəyi ilə bütün dünyada hesablaşılan dövlət qurulub, mənim sevimli Azərbaycanımın ərazi bütövlüyü bərpa edilib, Sizin ölkənizdə bütün sahələrdə genişmiqyaslı islahatlar və quruculuq işləri aparılır.

Əziz İlham Heydər oğlu, Sizə bütün təşəbbüslərinizin reallaşmasında yeni böyük uğurlar, rifah və firavanlıq arzulayıram.

Əminəm ki, Sizin və mənim sevimli Azərbaycanımın başı üzərində səma hər zaman dinc və aydın olacaq.

Ən yüksək ehtiramımı qəbul edin.

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Şurasının prezidenti***

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizi böyük qələbə, Azərbaycan xalqının Sizə - görkəmli dövlət xadimi və zəmanəmizin müdrik siyasətçisinə, dahi valideynlərin - Heydər Əliyevin və Zərifə Əliyevanın dahi oğluna ölkənizə rəhbərliyi yenidən həvalə etmək kimi düzgün seçimi münasibətilə təbrik edim. Seçkilərdə Sizin qələbə qazanmağınız təbiidir, çünki Siz valideynlərinizdən nümunə götürərək xeyirxahlıq, insanlıq, ölkənizin və xalqınızın tərəqqisi naminə fəaliyyətinizi şərəflə davam etdirirsiniz.

Zati-aliləri, qoy, ölkəniz Sizin müdrik rəhbərliyinizlə gündən-günə daha gözəl və güclü olsun! Qoy, Böyük Allah Sizi bütün təşəbbüslərinizdə dəstəkləsin, qorusun və doğma Azərbaycan xalqının rifahı naminə yeni zəfərlərə aparsın!

İcazə verin qeyd edim ki, seçkilərdən əvvəlki günlərdə mən Sizin üçün, qələbəniz üçün dua edirdim. İstəyirəm biləsiniz ki, həmişə, ömrümün sonuna qədər Sizin qəlbinizin mərhəmətinə, uşaqlarımızın - Zərifə Əliyeva adına liseyin şagirdlərinin rifahı naminə köməyinizə görə minnətdar olacağam.

Möhtərəm cənab Prezident, Azərbaycan, Bakı, Naxçıvan həmişəlik mənim qəlbimdədir.

Sizi prezident seçkilərində qələbə münasibətilə böyük sevinclə təbrik edirəm. Qoy, Böyük Allah Sizi qorusun və bu çox məsuliyyətli vəzifədə hələ uzun illər köməyiniz olsun!

Sizə və doğmalarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, şəxsən Sizə böyük qələbələr, mənəvi güc, əmin-amanlıq, səadət arzulayıram.

Zati-alinizə böyük hörmət, minnətdarlıq və sevgi ilə,

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni laureatı***

# Prezidentə təbrik zəngləri

Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə edib.

Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

* * *

Fevralın 8-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qazaxıstan dövlətinin başçısı İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb. Kasım-Jomart Tokayev dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğurlar qazanmasının və ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin önəmini qeyd edib.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Qazaxıstan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Fevralın 8-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Emoməli Rəhmon İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar arzulayıb.

Tacikistan dövlətinin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illər bütün sahələrdə böyük nailiyyətlər qazanmasının və Azərbaycanın dünyada nüfuzunun daha da artmasının əhəmiyyətini vurğulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Azərbaycan və Tacikistan prezidentləri dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirərək əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

* * *

Fevralın 8-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qırğızıstan Prezidenti dövlətimizin başçısı İlham Əliyevə prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini çatdırıb. Sadır Japarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının önəmini bir daha qeyd edərək ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini və dövlətimizin beynəlxalq mövqelərinin daha da gücləndiyini vurğulayıb.

Qırğızıstan dövlətinin başçısı ikitərəfli münasibətlərimizin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu ehtiramla qeyd edib.

Sadır Japarov Prezident İlham Əliyevə Azərbaycanın tərəqqisi naminə fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı Azərbaycan və Qırğızıstan prezidentləri ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliklərini bildirib və əlaqərimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

* * *

Fevralın 8-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Bayram Beqay dövlətimizin başçısını prezident seçkilərində qələbə münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Albaniya ikitərəfli münasibətlərinin inkişafından məmnunluqlarını ifadə ediblər, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliklərini bildiriblər.

* * *

Fevralın 8-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şarl Mişel fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik edib və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzulayıb.

Telefon danışığı əsnasında Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin müxtəlif aspektləri, xüsusilə energetika və nəqliyyat sahəsində əməkdaşlıq məsələləri geniş müzakirə olunub. Şarl Mişel nəqliyyat və bağlantılar sahəsində Avropa İttifaqının region ölkələri ilə əlaqələri inkişaf etdirmək üçün konkret layihələrlə çıxış etdiyini vurğulayıb.

Tərəflər COP29-un Azərbaycanda keçirilməsi və bu çərçivədə Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunublar.

Şarl Mişel üçtərəfli formatda Brüsseldə Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında görüşlərin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevdən mövqeyini bildirməsini xahiş edib.

Prezident İlham Əliyev Azərbaycanın həmişə Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüşləri dəstəklədiyini bildirib.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb, Azərbaycan Respublikasının Prezidenti Administrasiyası və Ermənistanın baş nazirinin aparatı arasında dekabrın 7-də ikitərəfli əsasda qəbul edilmiş birgə bəyanatın irəliyə doğru mühüm addım olduğu vurğulanıb.

* * *

Fevralın 8-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Dövlət Bağçalı İlham Əliyevə prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Qələbənin və suverenliyimizin tam bərpa olunmasının önəmini bir daha vurğulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf edəcəyi vurğulanıb.

* * *

Fevralın 8-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Ersin Tatar prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik edib, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın önəminə toxunularaq bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminlik bildirilib.

* * *

Fevralın 8-də İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Neçirvan Bərzani prezident seçkilərində qələbə qazanması münasibətilə İlham Əliyevə təbriklərini çatdırıb, ona fəaliyyətində uğurlar arzulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Neçirvan Bərzani keçirdikləri görüşləri məmnunluqla xatırlayaraq, bunun əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyini vurğulayıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Sosial şəbəkələrdə Prezidenti təbrik edirlər

Ukrayna Prezidenti Volodimir Zelenski İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Volodimir Zelenski "X" sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımında Volodimir Zelenski İlham Əliyevə Azərbaycan xalqının rifahı naminə bundan sonra da uğurlu və məhsuldar fəaliyyət arzulayıb.

"Mən ölkələrimizin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi yüksək qiymətləndirirəm. Dövlətimizin azadlıq mübarizəsinin tarixi dövründə humanitar və digər yardımlara görə Azərbaycana minnətdarıq", - deyə Ukrayna Prezidenti bildirib.

"Prezident Əliyevlə şəxsi konstruktiv və etibarlı münasibətimi, razılaşmaların həyata keçirilməsini və komandalarımız arasında səmərəli qarşılıqlı fəaliyyəti yüksək qiymətləndirirəm. Əminəm ki, Ukrayna və Azərbaycan arasında strateji əlaqələr yalnız möhkəmlənəcək", - deyə Volodimir Zelenski təbrikində vurğulayıb.

* * *

Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Nikolas Maduro bununla bağlı sosial şəbəkə hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycan xalqını və onun yenidən seçilmiş Prezidenti İlham Əliyevi təbrik edirəm. Liderliyiniz, müdrikliyiniz və humanistliyiniz sayəsində nəcib xalqınızı inkişaf və tərəqqi yolunda irəliyə aparmaqda davam edəcəksiniz. Daha yeni zirvələrə doğru irəli! Yaşasın Azərbaycan!"

* * *

Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudes Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Kuba Prezidenti "X" sosial şəbəkəsindəki hesabında bununla bağlı paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycan Prezidenti İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik edir, ona yeni mandatında uğurlar və xalqına firavanlıq arzulayıram. Hər iki ölkə arasında dostluğu və əməkdaşlığı bundan sonra da möhkəmləndirməyə hazır olduğumuzu bir daha bildirirəm".

# Prezidentliyə namizədlər İlham Əliyevi parlaq qələbə münasibətilə təbrik ediblər

Fevralın 8-də Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuş Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev, həmçinin namizədlikləri öz təşəbbüsləri ilə irəli sürülmüş Zahid Oruc və Fuad Əliyev seçkilərdə Azərbaycan xalqının böyük etimadını qazanaraq qalib gəlmiş Prezident İlham Əliyevə zəng ediblər.

AZƏRTAC xəbər verir ki, namizədlərin hər biri demokratik, şəffaf və ədalətli şəkildə keçirilmiş seçkilərdə yenidən parlaq qələbə qazanması münasibətilə Azərbaycan Respublikasının Prezidentini səmimiyyətlə təbrik edib, səsvermənin nəticələrinin Azərbaycan xalqının dövlət başçısına olan inam və etimadının ifadəsi, ölkəmizin sosial-iqtisadi inkişafı və xalqımızın rifahı yolunda həyata keçirdiyi qətiyyətli siyasətə verilən yüksək qiymətin və dəstəyin əyani təzahürü olduğunu bildiriblər.

Namizədlər budəfəki seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkəmizin bütün ərazisində keçirilməsinin mühüm tarixi hadisə olduğunu qeyd ediblər. Bunun əyani göstəricisi olaraq Prezidentin ailə üzvləri ilə birlikdə Xankəndi şəhərində yerləşən seçki məntəqəsində səs verməsinin böyük siyasi və rəmzi məna daşıdığını vurğulayıblar.

Namizədlər Prezident İlham Əliyevə möhkəm cansağlığı, Azərbaycanın firavanlığı, yüksəlişi və qlobal aləmdə nüfuzunun daha da güclənməsi yolunda qarşıya qoyduğu bütün hədəflərə çatmağı arzulayaraq, xalqımızın əmin-amanlığı, rifahı və tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar və nailiyyətlər diləyiblər.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı prezident seçkilərində iştirak edən namizədlər arasında konstruktiv dialoqa əsaslanan siyasi mədəniyyətin nümayiş etdirilməsini müsbət qiymətləndirərək seçkiqabağı təşviqat prosesi zamanı namizədlər tərəfindən səsləndirilmiş bir sıra təkliflərin nəzərə alınacağını qeyd edib.

Prezident İlham Əliyev seçkilərdə iştirak etmiş namizədlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# Azərbaycan ilə Braziliya arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub

**Fevralın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Braziliya Federal Senatında Braziliya-Azərbaycan dostluq qrupunun rəhbəri senator Nelsinyo Tradın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Braziliya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri, artan siyasi təmaslar, ikitərəfli məsləhətləşmələr mexanizmi üzrə planlar müzakirə olunub.

Azərbaycan hökuməti ilə Braziliya hökuməti arasında Ticarət və investisiya əməkdaşlığı üzrə birgə işçi qrupunun növbəti görüşünə hazırlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu dövrə təsadüf edən növbədənkənar prezident seçkilərinin ölkəmiz üçün xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Söhbət zamanı həmçinin bu il ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ikitərəfli əlaqələrin inkişafı, habelə COP30-u keçirən ölkə kimi Braziliya ilə əlaqələndirmə işlərinin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan - İordaniya əməkdaşlıq məsələləri müzakirə edilib

**Fevralın 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığının Nümayəndələr Palatasının birinci vitse-spikeri Əbdürrəhim Əl-Maayah və İordaniya Senatı sədrinin köməkçisi, İordaniya-Azərbaycan Qardaşlıq Komitəsinin rəhbəri Müflih Ər-Rəhimi ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və İordaniya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq, prezident seçkilərini müşahidə məsələləri, habelə regional inkişaf barədə müzakirə aparılıb.

Qeyd olunub ki, iki ölkə liderləri arasında yüksəksəviyyəli əlaqələrin, qarşılıqlı səfərlərin dinamikasında müşahidə olunan artım əlaqələrin daha da inkişafına təkan verir.

Vurğulanıb ki, münasibətlərin daha da inkişaf etdirilməsində xüsusilə parlament diplomatiyası əhəmiyyətli rola malikdir.

Görüşdə diplomatik münasibətlərin əsasının qoyulmasından keçən 30 ildən artıq müddətdə ölkələrimiz arasında siyasi, iqtisadi, ticarət, turizm, təhsil və s. sahələr üzrə ikitərəfli əməkdaşlığın, habelə regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və s. çoxtərəfli platformalar çərçivəsində qarşılıqlı dostluq və həmrəyliyə əsaslanan dəstəyin nümayiş etdirilməsinin təqdirəlayiq olduğu diqqətə çatdırılıb. Əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi baxımından siyasi məsləhətləşmələr mexanizminin və Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı görülən təşkilati tədbirlər barədə qarşı tərəfə məlumat verib, bu olduqca əlamətdar tədbirin əməkdaşlığın inkişafı üçün əlavə imkan yaradacağına əminlik ifadə olunub.

Müqabil tərəf növbədənkənar prezident seçkilərinin uğurlu təşkili, habelə nəticələri ilə bağlı təbriklərini çatdırıb, ölkəmizə və xalqımıza davamlı inkişaf və rifah arzu edib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Seçki hüquqlarının pozulması ilə bağlı ombudsmanın ünvanına hər hansı şikayət və ya müraciət daxil olmayıb

**Azərbaycan Respublikasının insan hüquqlari üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində aparılmış müşahidələrlə bağlı mediaya açıqlama verib.**

AZƏRTAC xəbər verir ki, açıqlamada müvəkkil seçkilər zamanı müşahidələrin bütün ölkə üzrə, o cümlədən işğaldan azad edilmiş torpaqlarımızda yaradılmış yeni seçki məntəqələrində də aparıldığını, bu ərazilərdə təşkil edilmiş 26 yeni seçki məntəqəsində vətəndaşların seçki hüquqlarının həyata keçirilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş lazımi şəraitin yaradıldığının müşahidə olunduğunu bildirib.

Qeyd edilib ki, əvvəlki illərdəki müsbət təcrübə nəzərə alınaraq, müvəkkil, Ombudsman təsisatının və Naxçıvan Muxtar Respublikasının Ombudsman Aparatının ümumilikdə 72 nəfər əməkdaşı növbədənkənar prezident seçkilərində müşahidəçi qismində respublika üzrə 115 seçki dairəsinin 885 seçki məntəqəsində - Bakıda və ölkəmizin digər 41 şəhər-rayonunda, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızda və muxtar respublikada müstəqil şəkildə, özlərinin təşəbbüsü ilə müşahidələr aparıblar. Müşahidələr həmçinin Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Heydər Əliyev adına Hərbi İnstitutda və 16 penitensiar müəssisələrdə təşkil olunmuş seçki məntəqələrində də həyata keçirilib.

Vurğulanıb ki, müşahidələr zamanı ombudsman həm məntəqə seçki komissiyalarının üzvləri, həm də müşahidəçilər və seçicilərlə bilavasitə görüşüb, səsvermə prosesi ilə bağlı onların rəylərini öyrənib. Pozuntu halları və hər hansı bir dövlət qurumunun, o cümlədən icra hakimiyyəti orqanının nümayəndələri və polis əməkdaşları tərəfindən müdaxilə müşahidə edilməyib.

S.Əliyeva siyasi partiyaları, ictimai birlikləri, qeyri-hökumət təşkilatlarını təmsil edən, eyni zamanda müstəqil və bitərəf olan müşahidəçilərin nizamla, bir-birinə qarşılıqlı hörmət şəraitində bu prosesdə iştirak edərək öz vəzifələrini səlahiyyətləri çərçivəsində yerinə yetirdiklərini diqqətə çatdırıb.

Qeyd edib ki, əlilliyi olan seçicilər üçün həmin hüquqların həyata keçirilməsi ilə bağlı şərait yaradılıb. Seçki günü seçki hüquqlarının pozulması ilə bağlı ombudsmanın ünvanına hər hansı bir şikayət və müraciət daxil olmayıb.

Ombudsman müşahidələrin nəticəsi olaraq, prezident seçkilərinin əhalinin yüksək fəallığı şəraitində, demokratik, azad, şəffaf, ədalətli, seçki qanunvericiliyi və beynəlxalq standartlarla müəyyən edilmiş qaydada, nizam-intizamla keçirildiyini bildirib.

Növbədənkənar prezident seçkiləri ərəfəsində həyata keçirilmiş fəaliyyət barədə də məlumat verən müvəkkil Ombudsman təsisatı və Mərkəzi Seçki Komissiyası tərəfindən Bakıda, Gəncədə, Şəkidə, Masallıda, Qubada və Naxçıvanda "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda silsilə maariflədirmə tədbirlərinin təşkil olunduğunu qeyd edib. S.Əliyeva bildirib ki, seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi elan edildiyi gündən başlayaraq, yerlərdə seçki təbliğatının aparılması üçün müəyyən edilən açıq və qapalı yerlərdə müşahidələr aparılıb, vətəndaşların seçki hüququnun təmini, seçki qanunvericiliyinin tələblərinin icrası vəziyyəti dəyərləndirilib.

"Sevindirici haldır ki, dövlətimizin həyatında mühüm əhəmiyyət kəsb edən prezident seçkiləri ilk dəfə olaraq suveren ölkəmizin bütün ərazilərində, o cümlədən işğaldan azad olunmuş torpaqlarımızda keçirilib", - deyə müvəkkil sonda növbədənkənar prezident seçkilərində vətəndaşların təməl hüququ olan seçki hüququnun yüksək səviyyədə təmin edildiyini vurğulayıb.

# Siyasi avantürist qanlı diktatora çevrilir

## Ölkəsində korrupsiyada, dünyada repressiyalarda ittiham edilən prezident Makron Qafqazda dayandırılmış müharibəni yenidən alovlandırmağa çalışır

**2020-ci ilə qədər Azərbaycan-Fransa münasibətlərində gərginlik və ya soyuqluq olunmayıb. Beşinci respublikanın Mitterandan Ollanda qədər bütün prezidentləri Azərbaycana ehtiramla yanaşıblar. Lakin 3 ildən çoxdur ki, iki dövlət arasındakı münasibətlər, demək olar ki, düşmənçilik səviyyəsindədir və bunun səbəbi Parisin Makron hakimiyyəti dövründə həyata keçirdiyi anlaşılmaz, normal siyasi təfəkkürdən uzaq, bərabər tərəfdaşlıq prinsipləri ilə ziddiyyət təşkil edən qüsurlu siyasətdir.**

### Makronun simasında Fransanın məkrli siması üzə çıxdı

Fransa Azərbaycana qarşı, demək olar ki, hər gün yeni təxribat, bədnam kampaniya, məkrli qarayaxma planı, yaxud da dövlət səviyyəsində cılız təfriqələr törədir. Bu silsilədə fəaliyyəti isə adətən KİV vasitəsilə həyata keçirir. Məsələn, bu günlərdə Fransanın "Le Point" jurnalında "Fransanı destabilizə etmək istəyən diktator" adlı məqalə dərc edilib. Yelisey sarayı tərəfindən təlimatlandırılan növbəti anti-Azərbaycan dalğasının tərkib hissəsi kimi tərtib edilən məqalənin bütün cümlələrində reallıqlar təhrif olunub. Belə ki, böhtan və iftira ilə dolu məqalədə iki ölkə arasında münasibətlərin gərginləşməsinin əsas səbəbkarı kimi Azərbaycan göstərilib. Məqalədə Azərbaycana və ölkəmizin rəhbərliyinə, eləcə də Qoşulmama Hərəkatının nüfuzuna zərbə vurulmağa cəhd edilib. İddia olunub ki, Azərbaycan guya Fransanın daxili işlərinə müdaxilə edir, Yay Olimpiya Oyunlarının bu ölkədə keçirilməsinə qarşı qarayaxma kampaniyası aparır. Həmçinin məqalədə Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi tədbirlərdə iştirak edən şəxslərin separatçı olmaları vurğulanır, Azərbaycanla bağlı obyektiv məqalələr dərc edən KİV-in isə "marionetka" olmaları qeyd edilir.

Ondan başlayaq ki, bu məqalənin timsalında hansı KİV-in marionetka olduğu aydın görünür. Məhz Yelisey sarayından verilən tapşırıqlarla qidalanan "Le Point" və bu kimi digər nəşrlər Fransa siyasi dairələrinin göstərişləri ilə Azərbaycana qarşı məkrli kampaniyanın bir hissəsinə çevriliblər. Görünən həm də odur ki, Fransa siyasi isteblişmenti kimi bu ölkənin KİV-i də Azərbaycanın Şuşa və Xankəndi zəfərlərini, separatçı rejimin məhvini həzm edə bilmir.

Ümumiyyətlə, Fransa cəmiyyətində erməni amili tarixən güclü olub. Bu ölkənin siyasi dairələrində ermənipərəst mövqenin üstünlük təşkil etməsi yeni xəbər deyil. Fransanın hakimiyyət orqanları həmişə Ermənistanın yanında olublar, onun işğalçılıq siyasətinə dəstək göstəriblər. Sadəcə, danışıqlar prosesi dövründə Fransa bu məkrli himayədarlıq addımlarını və təxribatçı mahiyyətini indiki kimi aşkar göstərmirdi.

Ancaq 2020-ci ilin Vətən müharibəsində proseslər həlledici mərhələyə qədəm qoyanda prezident Makronun simasında Fransanın bədnam siması üzə çıxdı.

Bu barədə ətraflı bəhs edəcəyik, amma əvvəlcə onu qeyd edək ki, ümumiyyətlə, Makronun prezident seçilməsindən sonra Fransa özünü qlobal müstəvidə böyük dövlətçilik ənənələrinə malik dövlət kimi deyil, orta əsrlərin dəniz quldurları, yaxud obrazlı şəkildə desək, A.Dümanın çılğın muşketyorları kimi aparmağa başladı.

Nəinki beynəlxalq siyasi ekspertlər, elə fransız analitiklər də Makronun iqtidara gəlişi ilə Fransanın onilliklərboyu formalaşmış dövlətçilik ənənələrindən, mötədil, nüfuzlu, hamı ilə normal tərəfdaşlıq quran, hətta öz hegemoniyasını ədalətlə təmin edən dövlət imicindən uzaqlaşdığı qənaətindədirlər.

### ABŞ kəşfiyyatının "Yelisey əməliyyatı"

Bəs niyə birdən-birə Fransanın dövlət siyasətində belə kardinal dəyişikliklər baş verdi? Zənnimizcə, bu barədə danışarkən Fransada 2017-ci il prezident seçkiləri kampaniyasının gedişatına diqqət yetirsək, sualımıza cavab tapa bilərik.

Məlumdur ki, Makron prezident seçkiləri kampaniyası başlanana qədər Fransa siyasi çevrələrində tanınan fiqur deyildi. Lakin birdən-birə sanki hansısa görünməyən gizli əl Fransada prezident seçkiləri dönəmində "təmizləmə" əməliyyatına başladı. Nüfuzlu siyasi partiyaların rəhbərləri şantajla, barələrində açılmış cinayət işləri ilə seçki kampaniyasından uzaqlaşdırıldılar. Həmin vaxt beşinci respublikanın tarixində görünməmiş bir hadisə də baş verdi: ölkəyə rəhbərlik edən Fransua Olland birdən-birə elan etdi ki, ikinci müddətə namizədliyini verməyəcək. Baxmayaraq ki, o növbəti müddətə namizədliyini irəli sürə bilərdi.

Eyni zamanda 2017-ci ilin seçkiləri beşinci respublikanın tarixində ilk seçki idi ki, respublikaçıların və sosialistlərin namizədləri ikinci tura çıxa bilməmişdilər.

Seçkilərdə iştirakdan uzaqlaşdırılanlardan biri də o dövrdə namizədlər arasında ən şanslı sayılan Beynəlxalq Valyuta Fondunun sabiq prezidenti Dominik Stross-Kan idi. Hansı ki, o təcavüz və zorlamada ittiham olunurdu. Baxmayaraq ki, bu barədə heç bir tutarlı fakt ortaya qoyulmadı, amma Dominik Stross-Kan şantaj təzyiqi ilə seçkilərdən uzaqlaşdırıldı.

Beləliklə, heç kimin tanımadığı Makron üçün bütün yollar açıldı. Gizlin əlin hansı qüvvə olduğunu "Azərbaycan" qəzeti olaraq deyə bilmərik. Amma Fransa ictimaiyyəti və siyasi ekspertlər bu məsələdə bir ortaq məxrəcdə birləşirlər: Fransada Makronun hakimiyyətə gəlişinə "yaşıl işıq" yandıran gizli əl ABŞ kəşfiyyatı olub. Yaxud Makronun prezident seçilməsi ABŞ kəşfiyyatının hazırladığı bir ssenari əsasında, başqa cür desək, "Yelisey əməliyyatı" nəticəsində baş verib.

### Fransa KİV-i: "Makron administrasiyasında olan korrupsiya heç kral sarayında yox idi"

Qeyd etdiyimiz kimi, Makron siyasətdən uzaq Fransa ictimaiyyətinin yaxından tanıdığı bir fiqur deyildi. Sadəcə, real alternativləri "zərərsizləşdirildiyindən" rahatlıqla prezidentlik kürsüsünə gətirilsə də, hazırda onun Fransadakı reytinqi dəfələrlə aşağıdır. Çünki onun verdiyi populist vədlərin, elan etdiyi islahatların heç biri reallaşmayıb və Makron fransızların hazırda ən çox nifrət etdiyi siyasətçidir.

Tanınmayan Makron həm də özündən əvvəlki bütün prezidentlərdən şəxsi göstəricilərinə, bioqrafiyasına görə fərqlənirdi.

Özündən 24 yaş böyük qadınla evlənməsini bəziləri "sevgi yaşa baxmır" şablon ifadəsi ilə malalamağa çalışsalar da, sinif yoldaşının teatr müəllimi olan anası ilə ailə qurması heç Fransa cəmiyyətində də birmənalı qarşılanmır. Düzdür, fransızlar şəxsi azadlıqlara tolerant yanaşırlar. Amma herontofil ( ərlə arvad arasında kəskin yaş fərqi) Makronun söykəndiyi mənəvi dəyərləri, istinad etdiyi ailə institutu, keçirdiyi həyat tərzi, şəxsi oriyentasiyası azadlıqlara meyilli Fransa cəmiyyətini belə təəccübləndirməkdədir. Çünki onun evli və üç uşaq anası Bricit Ouzyerlə gizli görüşü dünyadakı bütün əxlaq kodeksləri ilə dabandabana ziddiyyət təşkil edir.

Xatırladaq ki, Makronun təkidi ilə Bricit Ouzyer 2006-cı ildə əri bankir Andre Lüi Ouzyerdən ayrılıb. 2007-ci ildə isə 54 yaşlı Bricit Ouzyer 30 yaşlı Makronla ailə qurublar. Psixoloqların fikrincə, Makronun psixoloji patalogiyası və ya travması var. Çünki kişinin özündən 25 yaş böyük qadınla evlənmək istəyi heç sevgi baxımından da anlaşılan deyil. Güman ki, Makron gənclikdə hansısa sarsıntı keçirib və bu, sonradan patalogiyaya çevrilib.

Bu vəziyyəti dəyərləndirən politoloqların, ekspertlərin fikrincə, belə bir insan Fransada hansısa vəzifə tuta bilər. Necə ki, Makron iqtisadiyyat, sənaye və rəqəmsal işlər naziri vəzifəsinə yüksələ bilmişdi, amma mənəvi baxımdan aşınmış birisi prezident vəzifəsinə layiq deyil.

Elə aşınmış mənəviyyatı olan şəxsin rəhbərliyi Fransanın dövlətçilik dəyərlərində, xarici siyasətində deqradasiyaya gətirib çıxarıb. Təsadüfi deyil ki, Makronun prezidentliyi dövründə Fransa Mali, Burkina Faso və Nigerdən biabırcasına qovulub. Hazırda Fransa ilə islam dünyası arasında böyük gərginlik hökm sürür.

Makronun bütün sələflərinin Mərakeşlə saxladığı xüsusi münasibət artıq mövcud deyil. Əlcəzairdə isə özəl məktəblərə fransız dilində dərs keçmək qadağan edilib. Fransa Avropa İttifaqının üzvləri arasında etibarsız tərəfdaş kimi tanınır. Heç Ukrayna belə Rusiya ilə apardığı müharibədə Fransaya güvənə bilmir.

Makron hər il sentyabr ayında keçirilən BMT Baş Assambleyasının iclasında 2023-cü ildə iştirak etməyib. Sual olunur, doğrudanmı BMT Təhlükəsizlik Şurasının daimi üzvü, Avropa İttifaqının aparıcı üzvü, NATO-nun üzvü olan bir dövlətin rəhbərinin deməyə sözü yoxdur? Bundan əvvəl isə 2023-cü ilin yayında Fransa prezidenti Yohannesburqda BRICS sammitinə dəvət almaq istəyərkən problemlə üzləşmişdi. Cənubi Afrika Respublikasının rəhbərliyi onun dəvət xahişini "çox gülməli" hesab etmişdi.

Bütün bunlar Fransanın xarici siyasətinin fiaskosunun göstəricisi ilə yanaşı, Makronun qlobal səviyyədə ciddi fiqur kimi qəbul edilməməsinin təsdiqidir.

Fransanın daxili vəziyyətinə gəldikdə, "sarı jiletlilərin" etirazları, fermerlərin aksiyaları daxili siyasətin uğursuzluğundan xəbər verir. Ölkənin iqtisadi və sənaye çəkisi getdikcə azalır, dövlət borcu astronomik həddə çatıb.

Bir sözlə, Makronun xarici və daxili siyasətində davamlı şəkildə qeyri-sabitlik, ardıcıl səhvlər və ziddiyyətlər özünü göstərir. Ümumiyyətlə isə, onu Fransanın ən uğursuz rəhbəri hesab etmək olar.

İndi Fransa dünyada həm də dövlət səviyyəsində korrupsiyanın baş verdiyi, çirkli pulların yuyulduğu ölkə kimi tanınır. Prezidentin, onun yaxın ətrafının, parlament üzvlərinin, bələdiyyə rəhbərlərinin, hakim partiyanın təmsilçilərinin rüşvət almaları, vergilərdən yayınmaları, qanunsuz himayədarlıqları və digər bu kimi əməlləri barədə yüzlərlə fakt var.

Makron administrasiyası bu cinayət əməllərinin nəinki araşdırılmaması, ümumiyyətlə, qeydə alınmaması üçün hüquq-mühafizə orqanlarına, məhkəmələrə ardıcıl təzyiq və təsirlər edir. Fransız mediasının "Makron administrasiyasında olan korrupsiya heç kral sarayında yox idi" deyimi Fransa iqtidarının cinayətkar mahiyyətini tam ifşa edir.

### Hər addımda burnu ovulan Makron və Fransa siyasi dairələri

Əvvəldə qeyd etdiyimiz kimi, Makronun iqtidara gəlişi ilə Fransa son onilliklərboyu əldə etdiyi sivil dövlətçilik dəyərlərindən uzaqlaşdı, hətta orta əsrlərdəki münasibətlər təfəkkürünə qayıtdı. Bunu Fransanın Afrika, Asiya və Okeaniyada orta əsrlərdən həyata keçirdiyi müstəmləkəçilik siyasətini son illərdə daha irticaçı formada yürütməyə başlamasında da görmək mümkündür. Baxmayaraq ki, həmin ərazilərdə Fransanın söz sahibliyi qalmaqda davam edirdi. Lakin Makron heç bir izahı olmadan müxtəlif bölgələrdə hərbi-siyasi qarşıdurmalar, daxili çəkişmələr yaratmaq yolu tutdu.

Beləliklə, məhz Makron hakimiyyətinin başlanmasından sonra Fransanın kolonialist əməlləri orta əsrlər üslubuna qayıtmışdı. Fransa dövləti həmin ərazilərdə tarixən reallaşdırdığı ekspansiya siyasətini yenidən və daha qəddar üsullarla təkrarlamağa başlamışdı.

Qarşıdurmaların baş qaldırdığı həmin ölkələrdə Fransanın maraqlarına zidd olacaq hər hansı hadisə baş vermirdi. Hətta fransız ekspertlər belə təəccüblərini gizlətmirdilər ki, nə üçün Fransa həmin ölkələrdə süni şəkildə vəziyyəti gərginləşdirir. Sual isə ritorikdir, çünki fransızlar yaxşı bilirdilər ki, həmin ölkələrdə baş verən süni qarşıdurmalar Makronu hakimiyyətə gətirən qlobal şəbəkənin - ABŞ-nin sifarişləridir və onun maraqlarından irəli gəlir.

Qayıdaq Makronun Azərbaycanla münasibətləri gərginləşdirməsinə. Makronun prezident seçilməsi ilə Fransanın Azərbaycana qarşı da münasibəti dəyişdi. Sivil siyasi münasibətlərə uyğun gəlməyən irticaçı prinsiplər Makronun Qafqaz siyasətində də özünü göstərdi. Yazının əvvəlində qeyd etdiyimiz kimi, Fransada ermənipərəst mövqe üstünlük təşkil edir. Amma bu, Fransanın əvvəlki prezidentlərinə Azərbaycanla mehriban münasibətlər saxlamasına mane olmayıb. Fransa aşkar şəkildə heç vaxt Azərbaycana qarşı çıxmamışdı, ermənilərə dəstək isə yalnız sözdə ifadə olunurdu. Ermənistana hansısa dəstək olsa belə, bunu Fransa rəsmiləri açıq şəkildə ifadə etmirdilər.

Amma Makronun dövründə Fransa Azərbaycanla Ermənistan arasındakı hərbi-siyasi qarşıdurmanın birbaşa iştirakçısına çevrildi. Bu, özünü 44 günlük müharibə zamanı açıq şəkildə göstərməyə başladı. Fransa bu müharibə və ondan sonrakı dövrdə Ermənistanın işğalçı siyasətini birmənalı şəkildə dəstəkləyən dövlət kimi çıxış etdi.

Azərbaycanın Vətən müharibəsindəki qalibiyyəti ilə barışa bilməyən Fransa 2020-ci ildən sonra beynəlxalq təşkilatlar, xüsusilə də BMT Təhlükəsizlik Şurası çərçivəsində ölkəmizə qarşı dəfələrlə müxtəlif sənədlərin qəbul edilməsinə cəhdlər göstərmişdi. Azərbaycan isə uğurlu xarici siyasəti və dostları vasitəsilə bunun qarşısını layiqincə almağa nail olub.

Fransanın Azərbaycana qarşı açıq düşmənçiliyinin xronoloji ardıcıllığına diqqət yetirək: Öncə müharibə günlərində Makron davamlı şəkildə Prezident İlham Əliyevə zəng edərək gah Azərbaycandan hərbi əməliyyatları dayandırmasını tələb etdi, gah Azərbaycanı Qarabağdakı mülki erməniləri hədəfə almaqda ittiham etdi, gah da Azərbaycan Ordusunun sıralarında xarici muzdluların "döyüşdüyünü" sarsaqladı. Lakin Makron elə birinci tələbindən anladı ki, Azərbaycanı təhdid etmək və ya yolundan döndərmək mümkün deyil. Onun ittihamları təsdiqini tapmadı. Və bütün bunlar Makronun Azərbaycan qarşısında ilk məğlubiyyəti oldu.

2020-ci ilin oktyabr ayında Fransa BMT Təhlükəsizlik Şurası səviyyəsində Azərbaycana qarşı növbəti çirkin təzyiqə cəhd etdi. O zaman TŞ-nin qapalı iclasından sonra Minsk qrupunun həmsədr ölkələri tərəfindən bəyanat layihəsi hazırlanıb və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin layihədə TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən qətnamələrinə istinad edilməmişdi. TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv olan dövlətlər bu qətnamələrdə istinadın yer almasını təkid ediblər. Bundan sonra layihənin müəllifi olan həmsədr ölkələr onu geri götürməyə məcbur oldular.

Bu kimi hadisələrlə, əslində, Azərbaycan Fransanı "öz meydanı"nda məğlub etdi. 2020-ci ilin noyabrında Fransa parlamentində Dağlıq Qarabağdakı separatçı rejimin tanınmasına çağırışla bağlı qətnamənin qəbulu da, əslində, Parisin Azərbaycan qarşısındakı məğlubiyyətinin göstəricisi idi. Çünki özləri də bilirdilər ki, bu qətnamə adi kağızdan başqa bir şey deyil.

Azərbaycanın ekofəalları 2022-ci ilin dekabr ayında Laçın yolunda aksiya keçirəndə isə Makron Fransası Azərbaycanı Qarabağdakı erməniləri blokada vəziyyətinə salmaqda ittiham edərək yenə BMT-yə üz tutdu və bu dəfə də siyasi-diplomatik məğlubiyyətə uğradı.

Fransa BMT kimi Avropa İttifaqında da uğursuz olub. Ölkəmizə qarşı irəli sürdüyü bütün ciddi təşəbbüslər dəstəklənməyib. Makronun Qərbdəki həmkarlarına saysız-hesabsız telefon zəngləri nəticəsiz qalıb. Bu ilin yanvarında isə Fransa senatı hökumətin Azərbaycana qarşı sanksiya tətbiq etməsi ilə bağlı gülünc qətnamə qəbul etdi. Bunun mənasız bir sənəd olduğunu yeniyetməliyindən həyatı qavrama instinktlərini itirmiş Makron başda olmaqla Fransanın siyasi cameəsi güman ki, dərk etmir. Çünki dərk etsəydilər, ənənələri ilə öyündükləri dövlətçiliklərini belə rəzil günə salmazdılar.

Bütün bunların sırasına 2023-cü ilin oktyabrında E.Makronun Avropa Siyasi İcmasının Qranada görüşü çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları, Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın senatda ölkəmizə qarşı söylədiyi cəfəng ittihamlarını, müşahidəçi adı altında Azərbaycanla sərhəddə öz emissarlarını göndərməsini əlavə etsək, görərik ki, əslində, Azərbaycan Fransanı son 3 ildən bir qədər artıq olan gərgin münasibətlər dövründə bütün platformalarda məğlub edib.

Makron Fransasının növbəti məğlubiyyəti Azərbaycan Fransa kəşfiyyatının Şərqi Avropadan Mərkəzi Asiyaya qədər geniş coğrafiyada fəaliyyət göstərən şəbəkəsini ifşa etməsi oldu. Azərbaycan tərəfinin peşəkarlığı və sayıqlığı Emmanuel Makronu qəzəbləndirib və Fransanın xarici kəşfiyyat orqanlarına rəhbərlik edən şəxslərin işdən çıxarılması və yeniləri ilə əvəzlənməsinə gətirib çıxarıb. Bu, həm də Makronun növbəti məğlubiyyəti idi. Azərbaycanda ifşa edilən Fransanın kəşfiyyat şəbəkəsinə görə iki fransalı diplomatın ölkəmizdən qovulmasına cavab olaraq Azərbaycanın iki diplomatının Paris tərəfindən persona-non-qrata elan edilməsi isə Fransanın nəinki məğlubiyyətinin, həm də cılızlığının pik nöqtəsi oldu.

Ötən üç il müddətində Makron hakimiyyətinin riyakarlıq trayektoriyası belə olub. Üstəlik, utanmadan Ermənistanla Azərbaycan arasında normallaşma ilə əlaqədar aparılan danışıqlarda Ermənistanın maraqlarını güdən tərəf kimi iştirak etmək istəyib. Lakin İlham Əliyev Makronu şəxsən danışıqlar prosesindən birdəfəlik rədd edib.

Fransa davamlı şəkildə Ermənistan vasitəsilə Qafqazdakı proseslərə burnunu soxmağa çalışır. Lakin hər addımda Makron başda olmaqla bütün Fransa siyasi dairələrinin burnu ovulur. Azərbaycanın Qarabağda suverenliyini bərpa etməsi və birbaşa Fransadan maliyyələşən separatçıların əl-qolunu qandallaması isə Makrona və bütün Fransa siyasətinə tərs şillə oldu. Fransanın hökuməti müstəqilliyini tanımağa çağırdığı separatçı rejimi Azərbaycan tarixdən sildi.

Əslində, Fransanın yeritdiyi siyasəti birmənalı şəkildə ermənipərəsi siyasət adlandırmaq da olmaz. Vəziyyəti düzgün dəyərləndirən ermənilər də belə hesab edirlər ki, Fransanın yürütdüyü siyasət Ermənistanın maraqlarını ifadə etmir. Çünki bu siyasət Ermənistanın iqtisadi inkişafının qarşısının alınmasına, dalan dövlət kimi qalmasına, Azərbaycanla münasibətlərinin normallaşdırılmasının qarşısının alınmasına xidmət edir.

Fransanın ermənipərəst siyasəti, əslində, Ermənistanı məhvə sürükləyir və perspektivdə ona daha böyük məğlubiyyət, səfalət və təcrid vəd edir. Bu siyasət Ermənistanı regionda yalnız Azərbaycanla deyil, İran, Rusiya və hətta Gürcüstanla da münaqişə vəziyyətinə gətirir. Bu mənada Fransanın əməllərinin nəticə etibarilə həm də Ermənistanı regionun Livanına çevirəcəyi şübhə doğurmur. Parisin məkrli siyasəti sonunda Ermənistanı daim siyasi-hərbi gərginliklər məngənəsində boğulan Livanın gününə salacaq.

### Azərbaycan Fransanın müstəmləkəçilik siyasətinə qarşı beynəlxalq platforma yaradır

Azərbaycan Fransanın yalnız ermənipərəst siyasətini, respublikamıza qarşı riyakar davranışını darmadağın etmir. Azərbaycan həm Fransanın müstəmləkəçilik siyasətini ifşa edir, həm də dünyanın bir sıra yerlərində nəzarət etdiyi ərazilərin yerli əhalisinin azadlıq mübarizələrinə dəstək verir. Məlumdur ki, Fransa əsrlərboyu Afrika, Asiya, Amerika və Okeaniyada müxtəlif xalqlara, milyonlarla insana qarşı soyqırımı cinayətləri törədib, onların azadlıqlarını əllərindən alıb, dövlətçiliklərini məhv edib.

Fransanın müstəmləkəçilik siyasətinin nəticələri, sadəcə, heyrət doğurur. Məsələn, Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilmiş, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Parisin İnsan Muzeyində müstəmləkə müharibələrində XIX əsrdə qətlə yetirilən döyüşçülərin 18 min ədəd kəllə sümüyü saxlanılır və nümayiş etdirilir. Həmin "eksponatlar" arasında əlcəzairli döyüşçülərin də kəllə sümükləri var. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbi Fransa tərəfindən hələ də tam yerinə yetirilmir. XXI əsrdə dünyanın çox az dövlətində bu cür rəzil təfəkkürə rast gəlmək mümkündür.

Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr indi də bu işğalın ağır fəsadlarını hiss edir.

Əsrlər keçsə də, təfəkkür dəyişmədiyi üçün Fransa kolonializminin utancverici yeni metodları hələ davam etməkdədir. Kolonializmin qara tarixindən əl çəkə bilməyən Fransa Avropadan kənarda, Sakit və Atlantik okeanlarında yaşayan xalqların azadlıq arzularına və hüquqlarına hörmət etmir, bu arzuların reallaşmasının qarşısının alınması üçün hər vəchlə çalışır. Məsələn, Qvadelupa dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür, ağır repressiyalara məruz qalır.

Fransanın müstəmləkəsi olan Martinikanın təbii sərvətləri talan olunur, əhalisi əsarət altında saxlanılır.

Fransız Qvianası Fransanın müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salınıb, qızıl mədənləri talan edilir, qızılı çıxarılaraq Fransaya daşınır.

Korsika adasında müstəqillik istəyənlər Fransa tərəfindən ya həbs edilir, ya da öldürülürlər. Repressiyalar Korsika xalqı üçün adi hala çevrilib. Fransa illərboyu onlara yalan vədlər versə də, Korsikada hakimiyyətə, sadəcə, Fransanın müəyyən etdiyi adamlar gəlir.

Çox təəssüf ki, qlobal ictimaiyyət Fransanın müstəmləkəçilik siyasətini tarixboyu görməzdən gəlib. Lakin bu gün Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi qətiyyətli tədbirlər Fransanın müstəmləkəçilik cinayətlərini ifşa etmir, Bakı həm də Fransanın kolonialist siyasətini darmadağın edir.

*"Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır. Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilmişdir. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətmişdir, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoymuşdur"*. Bu fikirlər Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubunda yer alıb. Ən mühümü odur ki, bu məktub BMT-nin rəsmi sənədi kimi yayılıb. Göründüyü kimi, Azərbaycan Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda gərginlik yaratmaq istəyən, sülh prosesinə maneçiliklər törədən Fransanın əsrlərboyu törətdiyi və bu gün də davam etdirdiyi cinayət əməllərini bütün beynəlxalq tribunalarda və platformalarda ifşa edir.

Yəqin ki, tarixboyu heç bir dövlət Fransanın müstəmləkəçilik siyasətinə belə zərbə vurmayıb.

### Azərbaycan Makronu da, Fransanı da Qafqazdakı proseslərdən təcrid və rədd edir

Ümumiyyətlə, Fransanın hərəkətləri artıq regionun digər ölkələrində də ikrah doğurur. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da bildirib ki, Qərbin və Fransanın məqsədi Cənubi Qafqazı daha bir qarşıdurma meydanına çevirməkdir: "Onlar region ölkələrinin maraqlarına məhəl qoymurlar, bölgədə təhlükəsizliyin, sabitliyin və çiçəklənmənin təmin olunması üçün heç nə etmirlər. Hesab edirəm ki, Bakı və həmçinin bəzi ölkələr artıq dünyanın digər yerlərində özünün kökdən düşmüş siyasi nüfuzunu Cənubi Qafqazda bərpa etməyə çalışan Parisin zəhlətökənliyindən yorulub".

Fransanın Cənubi Qafqaza soxulmaq, Azərbaycana təzyiq etmək və digər bu kimi cəhdlərinin hamısı iflasa uğrayıb. Bununla belə Fransa Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda müharibəyə zəmin yaratmaq üçün dəridən qabıqdan çıxması faktdır. Lakin Parisin Ermənistana silah ixrac etməsi sülh sazişini imzalamaq istiqamətində fəaliyyətə zərbə vurur. Parisin məqsədi öz hərbi mövcudluğunu Ermənistan-Azərbaycan sərhədinə keçirmək və yeni toqquşmalara və hətta hərbi əməliyyatların bərpasına nail olmaqdan ibarətdir. Fransanın bu siyasəti Cənubi Qafqazda hərbi gərginlik riskini artırır, hərbi sahədə yeni "dayaq" tapan Ermənistanı sülh danışıqlarında yeni və qeyri-konstruktiv tələblər irəli sürməyə və prosesi uzatmağa sövq edir.

Bu yaxınlarda Fransa Milli Jandarma İdarəsinin generallarından birinin Ermənistan ərazisindən Azərbaycanla sərhədə yaxınlaşaraq binoklla müşahidə aparması Fransanın ölkəmizə qarşı hərbi təxribat törətmək niyyətində olması ilə bağlı ehtimalları gücləndirir. Silah göndərməsinin ardınca fransalı generalın sərhədlərimizə yaxınlaşması, əlbəttə ki, Fransanın bədnam niyyətindən xəbər verir. Beləliklə, Paris artıq tarixə qovuşmuş münaqişəni süni vasitələrlə yenidən meydana çıxartmağa və nəticədə, Ermənistanı daha ağır məğlubiyyətlərə sürükləməyə cəhd edir. Yeni savaş Ermənistanın tam süqutunu labüd edəcək.

Söz yox ki, Fransanın hansısa hərbi əməliyyatı yalnız və yalnız Ermənistanın başında çatlayacaq. *"Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu"*, - deyə Prezident İlham Əliyev bəyan edib.

Azərbaycanın Fransaya münasibətini Prezident İlham Əliyev çıxışlarında bəyan edib. Görünən odur ki, İlham Əliyev Makronu bərabərtərəfli prezident kimi qəbul etmir. Azərbaycan Fransanı Ermənistanla normallaşma prosesində iştirakçı və ya tərəfdaş dövlət kimi tanımır, Azərbaycan Makronu da, Fransanı da Qafqazdakı proseslərdən həm təcrid, həm də rədd edir.

Öz növbəsində Makron Fransanın nüfuzunu dünyada yerlə bir edib. Makron Fransaya elə böyük və qlobal problemlər yaradıb ki, gələcəkdə onların aradan qaldırılması üçün Parisə onilliklər lazım olacaq. Makronun Fransanın daxilinə yerləşdirdiyi gecpartlayan bombaların sayı-hesabı yoxdur. Fransa həm də bu gün dünyada ABŞ-dən sonra daha çox nifrət edilən ikinci dövlətdir. Ölkəni psixoloji patologiyası olan şəxs idarə edəndə başqa cür ola da bilməz.

Makronun psixoloji problemlərinin olmasını anlamaq üçün ölkənin taleyini həll edən vəzifələrə etdiyi təyinatlara baxmaq kifayət edir. Tarix boyunca öz cazibədarlığı və gözəlliyi ilə tanınan fransız qadınları əvəzinə o, ölkənin Baş naziri və xarici işlər naziri vəzifələrinə qadınlara nifrət edən islamofob "ərlər"i təyin edir.

### Azərbaycan bundan sonra da Fransanın ifşasını davam etdirəcək

Azərbaycanın Fransa üzərində parlaq qələbələrindən və uğurlarından sonra Fransa Prezident Administrasiyasının xarici siyasət/diplomatiya şöbəsi isterika halındadı, "məğlubiyyət matəmindən" çıxmaq üçün bu cür riyakar məqalələrə əl atır. E.Makrona görə, Ermənistanın işğalı davam etməli idi. Erməni işğalının davam etməsi E.Makronun sələfləri tərəfindən uğurla dəstəklənirdi. Bu işğala E.Makronun Fransada hakimiyyəti dövründə son qoyulması onun tərəfindən şəxsi məğlubiyyət kimi qəbul edilir. O, Ermənistanın deyil, öz şəxsinin məğlub olması ideyasından qurtula bilmir.

Fransanın Azərbaycana qarşı düşmənçilik siyasətində Emmanuel Makronun şəxsiyyətinin xüsusiyyətləri də xüsusi rol oynayır. Herontofil "qılıbığ", yəni arvaddan qorxan imici qazanan Makron müzəffər qələbə qazanan Prezident İlham Əliyevə qarşı nifrət halına çevrilmiş paxıllığını cilovlaya bilmir və balaca paxıl uşaqlar kimi, güclü, qüdrətli və qalib siyasi lider, xalqının dəstəyini qazanmış Prezident İlham Əliyevə nəticəsiz "pisliklər" etməyə çalışır.

Azərbaycan isə bundan sonra da Fransanın ifşasını davam etdirəcək. Azərbaycan bundan sonra da Fransa hakimiyyətinin real simasını dünyaya göstərməkdə davam edəcək, işğal altında olan dənizaşırı ərazilərin müstəqillik uğrunda mübarizəsini dəstəkləyəcək. Qafqazda Fransanın bayrağı ancaq bu ölkənin səfirliklərində dalğalana bilər. Amma Azərbaycan bayrağı bu gün Yeni Kaledoniya və Fransız Polineziyasında dalğalanır. Təsadüfi deyildir ki, indi Fransanın müstəmləkə altında saxladığı ölkələrin insanları Azərbaycana müqəddəs məbəd kimi baxırlar.

Bu, İlham Əliyevin, Azərbaycanın Fransa, Makron və bütün ermənipərəst qaragüruh üzərində qələbəsidir…

***"AZƏRBAYCAN" qəzetinin redaksiyası***

# Azərbaycanın uğurları bütün türk dünyasını sevindirir

**Milli Məclisin Sədri Sahibə Qafarova prezident seçkilərini müşahidə etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) və Türk Dövlətləri Parlament Assambleyasının nümayəndə heyətləri ilə görüşlər keçirib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlament Sədri Sahibə Qafarova bu seçkilərin Azərbaycan xalqı üçün tarixi hadisə olduğunu deyərək dost və qardaş türkiyəli millət vəkillərinin prosesi müşahidə etməklərindən məmnunluğunu bildirib. Spiker Sahibə Qafarova qeyd edib ki, bu seçkilərlə xalqımız öz ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycan dövlətinin gələcək inkişafı naminə səs verib. Onun sözlərinə görə, ilk dəfə olaraq seçkilər Azərbaycanın bütün suveren ərazilərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində keçirilib. Ona görə də bu seçkiləri Zəfər seçkiləri də adlandırmaq olar.

Milli Məclisin Sədri görüşlərdə vurğulayıb ki, bütün müşahidəçilərin də mövqeyi bu yöndədir ki, prezident seçkiləri demokratik, qabaqcıl norma və prinsiplərə uyğun, şəffaf şəkildə keçirilib. Seçkilərdə vətəndaşların öz iradələrini ifadə etməsi üçün hər cür şərait yaradılıb və xalqımız yüksək fəallıq nümayiş etdirib.

Görüşlərdə müşahidə missiyasının üzvləri prezident seçkilərinin uğurla başa çatması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Azərbaycanın inkişafında mühüm əhəmiyyətini qeyd ediblər.

Türkiyə Böyük Millət Məclisinin müşahidə missiyasının rəhbəri, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım deyib ki, qardaş Azərbaycanda prezident seçkiləri ilk dəfə ölkənin bütün ərazilərində keçirilib. Bu, Türkiyə, həmçinin türk dünyası üçün böyük hadisədir. Azərbaycanın uğurları qardaş ölkə olaraq, Türkiyəni, ümumiyyətlə, bütün türk dünyasını sevindirir.

Şamil Ayrım həmkarları ilə birlikdə çoxsaylı seçki məntəqələrində prosesi izlədiklərini bildirərək qeyd edib ki, onların müşahidələri seçkilərin çox şəffaf şəkildə keçirildiyini deməyə əsas verir. Onun sözlərinə görə, Azərbaycan vətəndaşları sərbəst və fəal şəkildə səs veriblər və hər kəsin istədiyi namizədə səs verməsi üçün əlverişli şərait yaradılıb.

TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesten isə onların təmsil olunduğu müşahidə missiyasının üzvlərinin həm Şuşada, həm də Xankəndidə səsvermə prosesini müşahidə etdiklərini bildirərək, bunun tarixi əhəmiyyətini yüksək qiymətləndirib. Onun sözlərinə görə, müşahidə apardıqları bütün məntəqələrdə hər şey qanunauyğun, şəffaf təşkil olunub.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Prezident seçkiləri demokratik və şəffaf keçib

**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Şurasının və Belarus Respublikası Milli Məclisi Respublika Şurasının nümayəndə heyətləri ilə görüşlər keçirib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşlərdə Milli Məclisin Sədri bu seçkilərin Azərbaycan tarixində xüsusi yerini vurğulayaraq deyib ki, ölkəmizin müasir dövlətçilik tarixində ilk dəfədir ki, seçkilər Azərbaycan ərazilərinin hər yerində, o cümlədən işğaldan azad olunmuş bütün şəhər və kəndlərində keçirilib. O, növbədənkənar prezident seçkilərinin Azərbaycan tarixinə həm də Zəfər seçkiləri kimi yazılacağını diqqətə çatdırıb.

Görüşlərdə Azərbaycanda prezident seçkilərinin beynəlxalq normalara uyğun keçirilməsi üçün yaradılan şərait və prosesin yüksək səviyyədə baş tutması barədə məlumat verilib. Qeyd olunub ki, Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, kifayət qədər zəngin demokratik seçki təcrübəsinə malikdir. 7 fevral prezident seçkilərinin də demokratik, azad, ədalətli və şəffaf şəkildə keçirilməsi üçün bütün müvafiq tədbirlər görülüb. Seçkiləri müşahidə edən yerli və xarici müşahidəçilər də bu faktları təsdiq ediblər.

Rusiya Federasiyası Federal Şurasının komitə sədri Qriqori Karasin seçki prosesinin müşahidələri ilə bağlı müsbət fikirlərini bölüşərək seçkilərin uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb. O, rəhbərlik etdiyi nümayəndə heyətinin üzvlərinin səsvermə günü bir sıra seçki məntəqələrində prosesi canlı şəkildə izlədiklərini bildirib. Seçicilərin yüksək fəallıq nümayiş etdirməsi hər birimizdə bu seçkilərlə bağlı yalnız müsbət rəy yaradıb.

Belarus Respublikası Milli Məclisi Respublika Şurasının sədr müavini Valeri Belski də prezident seçkilərinin ölkə qanunvericiliyinə, demokratik norma və prinsiplərə uyğun keçirildiyini, seçicilərin tam olaraq azad şəkildə səs vermələrinin təmin edildiyini bildirib. Onun sözlərinə görə, müşahidəçilər proses zamanı hər hansı qanun pozuntusu aşkar etməyiblər. Valeri Belski Belarus nümayəndə heyətinin işğaldan azad edilmiş ərazilərimizdə də olduqlarını və əsl seçki bayramı müşahidə etdiklərini vurğulayıb.

Görüşlərdə həmçinin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, qanunverici orqanlarımız həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində uğurla əməkdaşlıq edirlər.

*"Azərbaycan"*

# Müşahidə missiyalarının üzvləri Azərbaycanın inkişafını təqdir ediblər

**Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan Pakistan, İordaniya və Malayziya parlament müşahidə missiyaları ilə görüşlər keçirib.**



Spiker Sahibə Qafarova Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik olan bu seçkiləri müşahidə etdiklərinə görə qonaqlara minnətdarlığını bildirib. Milli Məclisin Sədri qeyd edib ki, prezident seçkiləri ölkənin gələcək inkişafının müəyyən olunması baxımından mühüm siyasi hadisədir. Bu seçkilər Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. O, növbədənkənar prezident seçkilərinin ilk dəfə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəkildə ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və digər işğaldan azad olunmuş rayonlarda keçirildiyini bildirib. Milli Məclisin Sədri keçmiş məcburi köçkünlərin artıq bir hissəsinin işğaldan azad olunmuş ərazilərə qayıtdığını və bu seçkilərdə öz doğma torpaqlarında səs verdiklərini diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova prezident seçkilərinin azad, demokratik və şəffaf şəraitdə keçirilməsi üçün bütün lazımi tədbirlərin görüldüyünü və seçkilərin qanunvericiliyin tələblərinə, bütün qabaqcıl standartlara uyğun təşkil olunduğunu vurğulayıb. O deyib ki, bu seçkilərdə əsas diqqətçəkən məqamlardan biri də yüksək seçici fəallığının qeydə alınmasıdır. Xalqımız seçki məntəqələrinə gedərək dövlətimizin gələcəyi naminə səs verib.

Milli Məclisin Sədri istər seçkilərə hazırlıq prosesinin, istərsə də səsvermənin çoxsaylı yerli və beynəlxalq müşahidəçilər tərəfindən izlənildiyini qeyd edərək bildirib ki, müşahidəçilər seçki prosesi barədə müsbət fikirlərini bölüşüblər.

Görüşlərdə Pakistan Senatının İqtisadi məsələlər üzrə daimi komitəsinin sədri Faysal Salim Rahman, İordaniya Nümayəndələr Palatası sədrinin birinci müavini Əbdürrəhim Əl Maayah, Malayziya Senatının sədr müavini Nur Cazlan bin Mohamed və Malayziya Nümayəndələr Palatasının sədr müavini Ramli Bin Mohd Nor seçkilərin uğurlu keçməsi ilə əlaqədar xalqımızı və dövlətimizi təbrik ediblər. Qeyd olunub ki, prezident seçkiləri demokratik, beynəlxalq standartlara uyğun, şəffaf və ədalətli şəkildə keçirilib. Vətəndaşların fəallığı, seçicilərin səsvermə başlayan andan məntəqələrə gələrək sərbəst şəkildə öz iradələrini ifadə etmələri prosesin yaxşı təşkil olunduğunu təsdiq edir. Gənclərin seçkiyə yüksək münasibətinin və fəal qoşulmasının qonaqlarda müsbət təəssürat doğurduğu qeyd edilib.

Müşahidə missiyalarının üzvləri Azərbaycanın inkişafını təqdir edərək, ölkəmizin beynəlxalq ictimaiyyətə açıq ölkə olduğunu vurğulayıblar.

Pakistan Senatının Daimi Komitə sədri bu gün ölkəsində seçkilər keçirilməsinə baxmayaraq, ölkəmizdə prezident seçkilərini müşahidə etmək üçün Azərbaycana səfərə gəldiklərini, bunun ölkələrimiz arasında münasibətlərə verilən önəmin ifadəsi olduğunu bildirib.

Görüşlərdə ikitərəfli əlaqələrin inkişafı, parlamentlərimiz arasında münasibətlərin mövcud vəziyyəti və perspektivləri ilə bağlı da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Xarici müşahidəçilər seçici fəallığını yüksək qiymətləndiriblər



**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərini müşahidə etmək üçün ölkəmizdə səfərdə olan İtaliya parlamentinin və Serbiya Milli Assambleyasının müşahidə missiyalarının üzvləri ilə görüşlər keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşlərdə Milli Məclisin Sədri prezident seçkilərini müşahidə etdikləri üçün qonaqlara minnətdarlığını bildirərək qeyd edib ki, bu seçkilər ölkəmiz üçün xüsusi əhəmiyyətə malikdir. Onun sözlərinə görə, ilk dəfə olaraq, seçkilər Azərbaycanın bütün suveren ərazilərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində keçirilib. Spiker işğaldan azad edilmiş ərazilərdə 26 seçki məntəqəsinin qurulduğunu və seçki məntəqələrində bütün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

Milli Məclisin Sədri qeyd edib ki, ölkəmizdə prezident seçkilərinin ən yüksək səviyyədə keçirilməsi, seçki prosesində tam şəffaflığın təmin edilməsi, seçicilərin azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə etmələri üçün hər cür şərait yaradılıb. Seçkiləri müşahidə edən 90 mindən çox müşahidəçi də bu məqamı təsdiq edib.

Seçkilərin uğurla başa çatması münasibətilə təbriklərini çatdıran İtaliya parlamentinin müşahidə missiyasının sədri Andreo di Cüzeppe səsvermə zamanı 15 seçki məntəqəsində müşahidə apardıqlarını qeyd edərək vurğulayıb ki, prezident seçkiləri beynəlxalq qaydalara uyğun təşkil olunub. O, xüsusilə gənclərin prosesdə fəal iştirakını vurğulayaraq, bunun demokratiya göstəricisi olduğunu söyləyib. İtaliyalı parlamentari seçkilərin təşkili ilə bağlı bir sıra yeniliklərin şahidi olduqlarını, bunun da ümumi prosesin daha yaxşı həyata keçirilməsinə müsbət töhfələr verdiyini bildirib.

Serbiya Milli Assambleyasının sədr müavini Sandra Boziç də prezident seçkilərinin demokratik prinsiplər və normalar əsasında həyata keçirildiyini vurğulayaraq seçici fəallığını yüksək qiymətləndirib. O deyib ki, seçkilərin belə yüksək səviyyədə keçirilməsi yaxşı demokratik nümunədir.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Sandra Boziç deyib ki, bu, ilk serbiyalı nümayəndə heyətidir ki, Qarabağa səfər edib. Şuşa və Xankəndidə seçki prosesini müşahidə etdiklərini bildirən Sandra Boziç Azərbaycanın qısa müddətdə bu şəhərlərdə həyata keçirdiyi böyük bərpa və quruculuq işlərinin şahidi olduqlarını söyləyib.

Görüşlərdə həmçinin parlamentlərimiz arasında əməkdaşlıq məsələləri, münasibətlərin dərinləşməsində dostluq qruplarının fəaliyyəti, qanunverici orqanlarımızın komitələri arasında əməkdaşlığın genişləndirilməsi imkanları barədə də müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Prezident seçkiləri yüksək beynəlxalq standartlara uyğun keçirilib



**Milli Məclisin Sədri Sahibə Qafarova prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan beynəlxalq parlament təşkilatlarının nümayəndə heyətləri ilə görüşlər keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyası, Ərəb Parlamenti və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin nümayəndə heyətləri ilə keçirilən görüşlərdə 7 fevral - prezident seçkilərinin yüksək beynəlxalq standartlara uyğun və demokratik şəraitdə keçirildiyi qeyd olunub. Spiker Sahibə Qafarova bu seçkilərin 30 ilə yaxın işğaldan sonra ilk dəfə bütün ərazilərimizdə keçirildiyini, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri nəticəsində öz evlərinə qayıdan vətəndaşlarımızın ilk dəfə öz doğma torpaqlarında səs verdiyini diqqətə çatdırıb.

Milli Məclisin Sədri qeyd edib ki, prezident seçkiləri yüksək beynəlxalq standartlara uyğun, azad və ədalətli şəkildə keçirilib. Prosesin tam şəffaf təşkili üçün ümumilikdə 90 min müşahidəçi qeydiyyatdan keçib ki, onlardan 790 nəfəri beynəlxalq müşahidəçilərdir. Bu müşahidəçilərin mütləq əksəriyyəti seçkilərlə bağlı müsbət fikirlərini ifadə ediblər. Eyni zamanda prosesin media nümayəndələri tərəfindən hərtərəfli işıqlandırılması üçün hər cür şərait yaradılıb.

Görüşlərdə beynəlxalq parlament təşkilatlarının nümayəndə heyətlərinin üzvləri prezident seçkilərinin yüksək səviyyədə təşkilinə görə təbriklərini ifadə ediblər. Qonaqlar bir sıra seçki məntəqələrində səsvermə prosesini canlı izlədiklərini, həm seçkilərə hazırlığın yüksək səviyyədə həyata keçirilməsindən, həm də səsvermə günü prosesin beynəlxalq standartlara uyğun təşkilindən məmnunluqlarını ifadə ediblər. Seçicilərin yüksək fəallığı əsas məqamlardan biri kimi qeyd olunub.

Görüşlərdə həmçinin ölkəmizin beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığına dair müzakirələr aparılıb. Qeyd olunub ki, bu istiqamətdə əlaqələr Azərbaycanın həm təşkilatlara üzv olan ölkələrin qanunverici orqanları ilə ikitərəfli münasibətlərinin, həm də parlament təşkilatlarında əməkdaşlığın genişləndirilməsinə imkan verir.

*"Azərbaycan"*

# Braziliya parlamentinin senatorları ilə görüş



**Fevralın 8-də Milli Məclisin Sədr müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərini müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan Braziliya parlamentinin senatorları Nelson Trad Filxo və Karlos Viana ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Fəzail İbrahimli qonaqları salamlayaraq bu tarixi günlərdə onların Azərbaycana səfər etmələrindən məmnunluğunu bildirib. O, qonaqlara ölkəmizin qazandığı uğurlar, öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, fevralın 7-də Azərbaycanda keçirilmiş şəffaf və demokratik prezident seçkiləri, ölkəmizdə bərqərar olmuş xalq-dövlət birliyi barədə məlumat verib. Söhbət zamanı Fəzail İbrahimli Azərbaycan və Braziliya arasında münasibətlər, parlamentlərarası əlaqələrin perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə Braziliya parlamentinin senatoru Nelson Trad Filxo ölkəmizdə onlara göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib. Qonaq fevralın 7-də keçirilmiş seçki prosesini müşahidə zamanı vətəndaşların göstərdikləri fəallıq, onların seçkiyə diqqət yetirmələri, prosesin yüksək səviyyədə təşkil olunması barədə fikirlərini bölüşüb, seçkilərin uğurlu keçirilməsinə görə təbriklərini çatdırıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişafı, təhsil və digər sahələrdə əməkdaşlıq barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Qalib Azərbaycan xalqıdır

**Daha bir seçki kampaniyası uğurla, mütəşəkkilliklə başa çatdı - seçkilərin alisi sayılan prezident seçkiləri!**

**Xalq növbəti dövrdə müstəqil dövlətini idarə edəcək rəhbərinə öz etimadını göstərdi!**

*Bütün seçki prosesi ilk gündən son dəqiqəsinədək demokratik şəkildə, Seçki Məcəlləsinin bütün tələblərinə əməl olunmaqla keçirildi!*

**Nəticə hamının gözlədiyi kimi oldu!**

**Azərbaycan xalqı birmənalı şəkildə, böyük əminlik və minnətdarlıq hissi ilə yenidən cənab İlham Əliyevə səs verdi!**

*Cənab İlham Əliyevin rəqibi olan digər namizədlər də bu qələbəni normal qarşıladılar, keçmiş rəqiblərini və köhnə - yeni prezidentlərini təbrik edərək seçkinin nəticələrini qəbul etdiklərini bildirdilər.*

* İlham Əliyevin bu qələbəsi ədalətli və gözlənilən qələbədir!

* İlham Əliyevin bu qələbəsi onun ölkəyə rəhbərliyinin 20 ili ərzində gördüyü işlərin bəyənilməsinin və davamlı olmasının məntiqi təsdiqi və ifadəsidir!

* İlham Əliyevin bu qələbəsi Azərbaycanın inkişafının yeni dövrünün başlanmasına xalqın xeyir-duası, razılığının təntənəsidir!

* İlham Əliyevin bu qələbəsi bütövlükdə xalqın, Azərbaycanın hər bir vətəndaşının qələbəsidir!

**Bu seçki də, bu qələbə də dünyada nadir hallarda təsadüf olunan əsl xalq seçkisi və qələbələr qələbəsidir!**

❖ ❖ ❖

Azərbaycanda yenicə başa çatan növbədənkənar prezident seçkilərini unikal, bənzərsiz və nəticəsini mübahisəsiz edən nədir?

*Əvvəla,* ilk dəfə olaraq prezident seçkiləri müstəqil Azərbaycanın bütövləşdirilmiş ərazisində keçirildi!

*İkincisi,* əsas milli istək və vəzifənin yerinə yetirilməsindən sonra keçirildi!

*Üçüncüsü,* Azərbaycanın inkişafının yeni mərhələsinin başlanğıcında baş tutdu!

* Xalq başlanılan qələbələrin uğurla davam etdirilməsi üçün rəhbərinə yenidən mandat verdi!

* Xalq ölkəni erməni işğalından azad edən, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Konstitusiya əsaslarını təmin edən rəhbərinə sonsuz təşəkkür və minnətdarlığının ifadəsi olaraq İlham Əliyevə yekdilliklə səs verdi!

* Xalq İlham Əliyevə möhtəşəm layihələri reallaşdırmaq, Azərbaycanın yeni hədəflərini müəyyən edərək yeni zəfərlərə çatmaq üçün səs verdi!

* Xalq İlham Əliyevə inandığı, etibar etdiyi, sözü ilə əməlinin bir olduğuna görə səs verdi!

* Xalq möcüzələr yarada bilən, mümkün görünməyənləri belə mümkün edən əvəzolunmaz liderinə səs verdi!

Əslində, öz arzularının gerçəkləşməsinə, rifahının daha da yüksəlməsinə, ölkəsinin və övladlarının xoşbəxt gələcəyinə səs verdi!

❖ ❖ ❖

*Cənab İlham Əliyev bu dəfə də çox böyük fərqlə, mütləq səs çoxluğu ilə qalib gəldi!*

*Belə də olmalı idi!*

**İlham Əliyev bu qələbəyə Azərbaycana iyirmi illik rəhbərliyi dövründə gördüyü nəhəng işlər, əldə etdiyi saysız-hesabsız uğurlar, 44 günlük II Qarabağ müharibəsində qazandığı möhtəşəm Zəfərlə nail olmuşdur!**



*Məhz onun qurduğu və ən yeni texnologiyalara əsaslanan silahlarla təchiz etdiyi, ən yeni strategiya və taktika ilə təmin etdiyi, vətənpərvər və igid gənclərdən təşkil etdiyi ordu sayəsində Azərbaycan son beş əsrdə ilk dəfə olaraq işğal altındakı torpaqlarını azad etdi!*

**İlham Əliyev iki əsrdir davam edən və mərhələlərlə Azərbaycandan torpaq qoparılmasına səbəb olan məkrli "Qarabağ problemi"nə birdəfəlik son qoydu!**

*İlham Əliyev bütün şəhidlərimizin qisasını hərb meydanında "dəmir yumruğ"u ilə aldı:*

* Ən əvvəl erməni işğalçılarını Azərbaycan torpaqlarından iti qovan kimi qovdu!

* Sonra Azərbaycanın ərazi bütövlüyünü tam bərpa edərək tarixində ilk dəfə bütün sərhədlərimizi nəzarətə götürdü!

* Ən nəhayət, 23 saatlıq lokal antiterror tədbirləri keçirərək ölkəmizin dövlət suverenliyini, Konstitusiya əsaslarını bərpa etdi!

**İndiyədək dünyanın heç bir dövləti öz ərazisindəki separatizmin kökünü tam kəsə bilməyib!**

**İlham Əliyev isə bunu məharətlə, atdığı qətiyyətli və inamlı addımlarla, xalqın birmənalı dəstəyi ilə bacardı!**

*Bu gün Azərbaycanda cəmi 6 separatçı qalıb!*

*Onlar da Bakıdakı məlum ünvanda "çay içirlər"!*

**Odur ki, xalq qalib rəhbərinə və qüdrətli sərkərdəsinə böyük məhəbbətlə, minnətdarlıq hissi ilə və yekdilliklə səs verdi!**

❖ ❖ ❖

**Bu seçkilərdə İlham Əliyevin qələbəsi hamıya və hər kəsə lazım idi!**

İlk növbədə özünə!

* Çünki yarımçıq qalmış layihələri davam etdirmək, dövlətin qüdrətini və ordunun gücünü daha da artırmaq, Azərbaycan xalqına verdiyi və icrası tam başa çatmamış vədləri sonadək yerinə yetirmək, ən nəhayət, yeni dövrün yeni hədəflərini müəyyənləşdirərək xalqın qüvvə və imkanlarını onların icrasına yönəltmək məhz İlham Əliyevin gücü, qüdrəti və intellekti sayəsində mümkündür!

**Bu qələbə Azərbaycan xalqına da gərəkdir!**

* Çünki müstəqilliyinin ilk illərindəki zəif və imkansız Azərbaycanı tarixinin ən qüdrətli dövləti səviyyəsinə çatdıran cənab İlham Əliyev xalqın digər arzu və istəklərini də gerçəkləşdirmək, sosial rifahını əsaslı şəkildə yüksəltmək qüdrətindədir!

**Bu qələbə heç də xoş səslənməyən "məcburi köçkün" adından qurtulan yüz minlərlə insanın arzusu idi!**

* Çünki cənab İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyinə söz verib və hazırda bu istiqamətdə möhtəşəm quruculuq işləri gedir.

*Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla həyata keçirilir!*

*Doğma yurddan uzun illər ayrı düşmüş insanlar sevinclə, fərəhlə geriyə, əvvəlkindən də gözəl, "ağıllı yaşayış məntəqələri"nə qayıdaraq həyatlarını yenidən qururlar.*

**Bu qələbə Cənubi Qafqaza, burada xoş niyyətlə əməkdaşlıq qurmaq istəyən ölkələrə də gərəkdir.**

* Çünki İlham Əliyevin müəllifi olduğu transmilli layihələrin bir çoxu başa çatıb, Orta dəhliz tezliklə işə salınacaqdır.

Yalnız İlham Əliyev zəkası və quruculuq məharəti Cənubi Qafqazı sülh və əməkdaşlıq regionuna çevirə bilər!

Bu qələbə türk dövlətlərinin inkişafına da müsbət təsirini göstərəcəkdir.

* Çünki İlham Əliyevin böyük fəallıq göstərdiyi, türk dövlətlərinin birliyinin və əməkdaşlığının güclənməsinə daim töhfələr verdiyi Türk Dövlətləri Təşkilatı onun səmərəli və məqsədyönlü fəaliyyətinə daim ehtiyac duyur.

❖ ❖ ❖

**Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi iyirmi il ərzində ortaya bir sıra nümunələr qoymuşdur.**

**Bu nümunələr həm də beynəlxalq əhəmiyyətlidir və hamı bəhrələnə bilər.**

*Bu nümunələr ilk növbədə Azərbaycana və onun dostlarına, dövlətlərə və insanlara fayda vermək istəyində olanlara gərəkdir.*

Nədir o nümunələr?

BİR NEÇƏSİNƏ DİQQƏT YETİRƏK:

* Siyasi kursa, milli ənənələrə, dövlətçilikdə varislik prinsipinə sədaqət;

* Müstəqil siyasət yürütmək, bütün məsələlərdə dövlət maraqlarını uca tutmaq;

* Dövlətə böyük fayda gətirəcək möhtəşəm layihələr hazırlamaq və daxili imkanlar hesabına onları reallaşdırmaq;

* İqtisadi inkişafı davamlı və sürətli şəkildə təmin edən müasir model yaratmaq;

* Dövlətin qarşıya qoyduğu vəzifələri qısa müddətdə həyata keçirə bilən möhtəşəm ordu qurmaq;

* Ləyaqətli müharibə aparmaq;

* Mülki əhaliyə zərər yetirmədən separatizmin kökünü birdəfəlik kəsmək!

❖ ❖ ❖

**20 ildən çoxdur ki, Azərbaycan xalqı sevimli rəhbəri İlham Əliyevlə birlikdə yol gəlir.**

Bu, çətin dövrdə başlamış, qarşıda mühüm sınaqlar olan bir dövr idi.

Azərbaycanın qarşısında iqtisadi, siyasi, beynəlxalq və hərbi sahədə həll etməli olduğu çoxsaylı problemlər dayanırdı.

Ancaq Azərbaycan xalqı yeni rəhbərinə inandı, etibar və etimad etdi:

* Bu etibarın və inamın kökündə Ulu Öndər Heydər Əliyevin vəsiyyət və tövsiyəsi dayanırdı;

* Bu etibarın və inamın kökündə İlham Əliyevin "Əsrin müqaviləsi" neft kontraktının imzalanması üçün apardığı gərgin və çətin danışıqlardakı uğuru dayanırdı;

* Bu etibarın və inamın kökündə İlham Əliyevin MOK-un prezidenti kimi gördüyü işlər, yeni nəslin yetişdirilməsi sahəsindəki uğurları dayanırdı;

* Bu etibarın və inamın kökündə İlham Əliyevin Milli Məclisin AŞPA-dakı deputat qrupuna rəhbərliyi dövründə gördüyü işlər və topladığı təcrübə dayanırdı!

* Ən nəhayət, bu etibarın və inamın kökündə İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə gördüyü işlər, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi və separatçıların torpaqlarımızdan toxumunun kəsilməsi sahəsində yaratdığı möcüzəvi nəticələr dayanırdı!

**Əslində, bu inamı, bu etibarı, bu etimadı və bu sevgini İlham Əliyev özü qazanıb!**

**Öz işi, əməlləri ilə qazanıb!**

**Qələbə, uğur, nailiyyətləri, Zəfəri ilə qazanıb!**

* Xalq isə istəyir ki, bütün bunlar davamlı olsun!

* Başlanmış nəhəng layihələr tezliklə sona çatdırılsın!

* Azərbaycanın sürətli inkişafı, xalqın sosial rifahının yüksəldilməsi davam etsin!

* Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevrilməsi prosesi sürətli axarı ilə getsin!

**Xalq İlham Əliyevi həm də ona görə sevir ki, o, sözünün sahibidir, dediyini edəndir!**

İlham Əliyevə səs verməklə həm də onun dediklərinin etməsinə dəstəyini göstərdi!

❖ ❖ ❖

Tanrı bu birliyi xalqımıza çox görməsin!

Tanrı Azərbaycanı, xalqımızı, onun əvəzsiz rəhbərini pis niyyətlərdən, pis gözlərdən qorusun!

Tanrı İlham Əliyevə möhkəm cansağlığı, uğur və qələbələr nəsib etsin!

Tanrı öz kölgəsini dövlətimizin, xalqımızın, rəhbərimizin üstündən əskik etməsin!

**Qələbən mübarək, Azərbaycan!**

**Gözün aydın, Azərbaycan!**

**Təbrik edirik, möhtərəm Prezidentimiz, əziz rəhbərimiz!**

**Sizin uğurlarınız hər birimizin uğuru, istək və arzularının gerçəkləşməsi deməkdir!**

SİZƏ YENİ YOLDA YENİ QƏLƏBƏLƏR ARZULAYIRIQ!

**Bəxtiyar SADIQOV**

# Prezident seçkiləri mütəşəkkil və demokratik şəkildə keçirildi

## Bunu xarici müşahidəçilər də təsdiqlədilər

**7 fevral 2024-cü ildə Azərbaycan xalqı tarixinin ən əlamətdar günlərindən birini yaşadı. Səhər saatlarından insanlar seçki məntəqələrinə gələrək yeddi il müddətinə ölkənin Prezidentini seçmək üçün səs verdilər.**

Seçicilərin məntəqələrə axını ilə başlayan seçkilər uğurla başa çatdı. Seçkilərdə fəal iştirak edən Azərbaycan xalqı 7 namizədin içindən ən layiqlisini, onu xoşbəxt gələcəyə qovuşduracaq rəhbərini seçdi.

Qürurverici hal idi ki, 7 fevral növbədənkənar prezident seçkiləri ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə də keçirildi. İndiyə qədər xalqımız belə seçki sevinci yaşamamışdı. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Zəfərlə başa çatdıqdan sonra xəyallar reallaşdı. Tarximizdə ilk dəfə olaraq növbədənkənar prezident seçkiləri suverenliyini tam bərpa etmiş Azərbaycanın bütün ərazisində keçirildi.

Seçki məntəqələrində gördüklərimiz qürur doğururdu. Həvəslə məntəqələrə gələn ölkə vətəndaşları seçkilərdə fəal iştirak edirdilər. Həmin gün seçki məntəqələrinə gələn insanların üz-gözündən sevinc yağırdı. Bütün bunlar onu göstərirdi ki, doğrudan da, növbədənkənar prezident seçkiləri Zəfər seçkisi, Qələbədən qaynaqlanan seçkidir.

Məntəqədə səs verib həyətə çıxan bir neçə seçici ilə görüşüb söhbət etdik. Namizədlərdən hansına səs verdiklərini soruşduq. Zəfər ovqatında olan insanlardan eşitdiyimiz cavablar bizim üçün çox maraqlı oldu. Seçicilərdən biri dedi ki, mən 30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızı azad edən Azərbaycan xalqına Zəfər sevinci yaşadan Ali Baş Komandana səs verdim. Başqa bir seçici isə dedi ki, biz yalnız bu günümüzə yox, gələcəyimizə səs verdik. Təkcə özümüzü deyil, övladlarımızın gələcəyini düşünərək qüdrətli, güclü, beynəlxalq aləmdə yüksək hörmətə, dünyada böyük nüfuza malik olan Lideri seçdik. Çöhrəsindən sevinc yağan başqa bir seçici isə: "Ölkəmizdə davamlı inkişaf və sabitlik naminə İlham Əliyevə səs vermişəm" dedi.

Söylənilən fikirlər onu göstərirdi ki, növbədənkənar prezident seçkilərinin qalibi Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, 20 il Azərbaycanı qüdrətləndirən, daim inkişaf etdirən, 200 illik tariximizdə itirilmiş torpaqlarımızı azad edən, məcburi köçkünləri doğma ocaqlarına qaytaran, Azərbaycan xalqının əvəzsiz Lideri, Müzəffər Ali Baş Komandan İlham Əliyev olacaq.

Əvvəlki illər doğma ocaqlarının həsrətini çəkən insanlar indi ata-baba yurdlarında seçkilərdə iştirak edir, özünə Prezident seçir. Ölkəmizin hər yerində olduğu kimi, Xankəndi şəhərində yaradılmış 14 saylı seçki məntəqəsində də növbədənkənar prezident seçkiləri demokratik və şəffaf şəraitdə keçirildi. Məntəqədə səs verən Rəmzi Şakiri deyib: "30 ildən artıq idi ki, Qarabağımızdan ayrı düşmüşdük. Şükür bu günümüzə. Bütün torpaqlarımız azaddır. Mən Xankəndi şəhərində çalışıram. Bu gün böyük fərəh hissi ilə səsvermədə iştirak edirəm. Buna görə özümü xoşbəxt sayıram". Onu da qeyd edək ki, Xankəndidə keçirilən səsvermə prosesini 15 yerli müşahidəçi izləyib. Onlar səsvermənin yüksək səviyyədə, demokratik şəraitdə keçirildiyini bildiriblər.

Təkcə Xankəndidə deyil, Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Xocalıda, Ağdərədə, Kəlbəcərdə, Laçında, Suqovuşanda, eləcə də işğaldan azad edilmiş başqa bölgələrdə şəffaf və demokratik şəraitdə keçirilmiş seçkiləri qürurla izlədik, xoş hisslər keçirdik. Həyatımızın ən gözəl anlarını yaşadıq.

Aparılan müşahidələr göstərir ki, seçki ölkəmizin hər yerində çox mütəşəkkil şəraitdə keçib. Seçicilər məntəqələrdə onlar üçün yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər. Təkcə yerli deyil, xarici müşahidəçilər də seçkilərin mütəşəkkil, şəffaf və demokratik şəraitdə keçirildiyini təsdiq edirlər. Fevralın 8-də Rusiya parlamentinin müşahidə missiyası növbədənkənar prezident seçkilərinin yekunları ilə bağlı mətbuat konfransı keçirib. Nümayəndə heyətinin rəhbəri Qriqoriy Karasin seçkilərin təşkilinin açıq formatda və məqbul səviyyədə olduğunu qeyd edib. O bildirib ki, insanlar səs vermək üçün öz növbəsini gözləyirdilər və onların üzlərində təbəssüm var idi. Bu da çox vacib məqam idi: "Mən yaxşı mənada təəccübləndim ki, seçki prosesi geniş zalları olan binalarda keçirilirdi. Seçkilər məhz məsuliyyətli şəkildə və səlahiyyətli çərçivədə təşkil olunmuşdu. Bütün beynəlxalq müşahidəçilərə seçkiləri izləmək üçün yaxşı şərait yaradılmışdı".

İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının müşahidə missiyasının rəhbəri, Baş katibin müavini Əli Əsgər Mohammadi Sicani, Asiya Parlament Assambleyasının müşahidə missiyasının rəhbəri Məhəmməd Reza Məcidi, Ərəb parlamentinin müşahidə missiyası nümayəndə heyətinin rəhbəri Adel bin Əbdulrəhman əl-Asumi, İtaliya Respublikası parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr və beynəlxalq əməkdaşlıq komitəsinin üzvü Andrea di Cüzeppe və başqaları da seçkilərin beynəlxalq standartlara uyğun keçirildiyini bildiriblər. Bütün bunlar ölkəmizdə növbədənkənar prezident seçkilərinin mütəşəkkil, demokratik və şəffaf şəraitdə təşkilini bir daha təsdiq edir.

Seçicilərin əksəriyyəti fevralın 7-də Yeni Azərbaycan Partiyasından namizədliyi irəli sürülmüş Qalib xalqın Qalib Lideri, Müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verdilər. Azərbaycan xalqı bu addımı ilə xoşbəxt gələcəyinə, işıqlı sabahlarına, Böyük qayıdışın davam etdirilməsinə, müstəqilliyimizin daha da möhkəmlənməsinə, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da güclənməsinə, ölkəmizin dinamik inkişafına səs verdi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Ümummilli inamın möhtəşəm təntənəsi

## Həmkarlar İttifaqları Konfederasiyasının 1,5 milyon üzvü İlham Əliyevin xilaskarlıq missiyasına böyük etimad göstərdi

**Tarixinin ən qüdrətli Azərbaycanının müdrik və qədirbilən xalqı yenə də tarixi bir seçim etdi...**

**Müstəqillik dövrünün 9-cu prezident seçkisində xalq öz liderini müəyyənləşdirdi...**

**İlk dəfə bütöv Azərbaycanda keçirilən Zəfər seçkilərində xalq məhz Xilaskar Lideri cənab İlham Əliyevə etimad mandatı verdi - 92 faiz...**

**Xalq cənab İlham Əliyevin cəmi 20 ildə yaratdığı sabitliyə, yüksəlişə, inamlı və dayanıqlı inkişafa, sosial-iqtisadi, mədəni-mənəvi tərəqqiyə, demokratik dəyərlərə inamını, sədaqətini, sevgisini ifadə etdi!**

**Xalq təkcə ölkənin birinci şəxsini seçmədi, həm də qalib Azərbaycanın Yeni Yüzilinə - Zəfər Əsrinə səs verdi!**

**Müdrik xalqımız Azərbaycanın dövlətçilik tarixinə şanlı möhürünü vurdu!**



### Ədalətli, demokratik seçki və Zəfər əsrinə verilən səs

İndiyədək ölkəmizdə keçirilən prezident seçkiləri Azərbaycandakı demokratiyanın aynası rolunu oynayıb. Ölkəmizin seçki təcrübəsi də çox unikaldır. Azərbaycan xalqı növbəti dəfə də inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verərək kamil, müdrik bir xalq olduğunu bir daha göstərdi. Seçki günü vətəndaşlarımızın fəallığı mənə 2020-ci ilin 27 sentyabr tarixini xatırlatdı. Həmin vaxt insanlarımız yaşından asılı olmayaraq, dəstə-dəstə hərbi komissarlıqlara necə üz tuturdularsa, seçki məntəqələrinə də o cür istəklə, həvəslə gedirdilər. Budur Azərbaycan xalqının uğurlarının, qələbələrinin, misilsiz nailiyyətlərinin sirri - birlik və həmrəylik!

Seçkilərin nəticələri göstərir ki, vətəndaşlarımız öz xoşbəxt gələcəyini, firavan həyatını, dövlətimizin daha da inkişafını, eləcə də dövlətçiliyimizin qorunmasını, müstəqilliyimizin möhkəmlənməsini cənab İlham Heydər oğlu Əliyevin ölkəyə rəhbərliyinin davamında görürlər. Xalqımız bu qənaətə, təbii ki, ölkəmizin son 20 ildə qazandığı uğurları, Ulu Öndər Heydər Əliyev siyasi kursunun effektiv nəticələrini görərək gəlib.

Vətən müharibəsindən sonra keçirilən ilk seçkidə iştirak hər bir vətənsevər azərbaycanlının müqəddəs amalı, son 200 illik tariximizin dönüş anı, mühüm dövlətçilik imtahanı və beynəlxalq siyasi hadisə oldu. Prezident seçkiləri bir sıra məqamları və əhəmiyyəti ilə şanlı tariximizə yazıldı. Xalqımız 30 ildən sonra ilk dəfə olaraq ərazi bütövlüyümüz tam təmin edilmiş şəkildə seçki keçirdi və bu seçki bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkün bacı və qardaşlarımız öz yurdlarında seçici kimi səsverməyə qatıldılar. İllərdən sonra Ağdərədə, Kəlbəcərdə, Laçında, Şuşada, Ağdamda, Füzulidə, Qubadlıda, Zəngilanda, Cəbrayılda, Xocavənddə, Xocalıda, Xankəndidə - yəni Qarabağ və Şərqi Zəngəzurda Zəfər seçkilərinin qüruru yaşandı. Bununla da biz ərazi bütövlüyümüzü və suverenliyimizi bir daha təsdiq edərək bütün dünyaya nümayiş etdirdik. Həm də qalib, müzəffər xalq olaraq, alnıaçıq, üzüağ. Odur ki, bu seçkilər Zəfər seçkisi olaraq tariximizdə əbədi qalacaq.

Bu seçkinin möhtəşəm nəticəsi həm də antiazərbaycançı şəbəkəyə xalqın sərt şilləsi oldu. Bu, Azərbaycanın fövqəlgüclər qarşısında mətin mübarizəsinin, müstəqil siyasətinin yeni zəfəridir.

7 fevral Azərbaycanın yeni tarixinin ən məsuliyyətli seçim anı, xalqın isə müdriklik sınağı idi. Azərbaycan bu seçimdən də, bu sınaqdan da məsuliyyətlə, müdrikliklə, şərəflə çıxdı və dünyanı öz nailiyyətləri ilə heyran qoyan məmləkətin bəşəriyyəti öz bacarığı, qabiliyyəti ilə həmişə heyrətləndirəcək bir milləti olduğunu nümayiş etdirdi. Xalq düzgün yolla irəliləyən liderinə, istiqlalımızın bayraqdarına, tarixin ən möhtəşəm Azərbaycanını yaradan İlham Əliyevə qarşıdakı 7 il üçün xeyir-duasını, dəstəyini verdi...

Ataların məsəli var: elin gözü tərəzidir. 4 milyon 651 min 473 seçici, 90 min 372 müşahidəçi, 190 xarici media qurumunun 200-dən artıq nümayəndəsi, 72 beynəlxalq təşkilatı təmsi edən şəxslərin iştirakı ilə keçən tam demokratik, şəffaf və ədalətli seçkilər nəticəsində əzmli qələbəni cənab İlham Əliyevin qazanması tarixi və təbii qanunauyğunluqdur desək, yanılmarıq.

Seçkiləri müşahidə edən beynəlxalq təşkilatların nümayəndələrinin qarşılaşdıqları mənzərələrlə bağlı etirafları da deyilənləri sübut etdi. Mərkəzi Seçki Komissiyasının seçkinin nəticəsi ilə bağlı açıqladığı ilkin rəqəmlər 3 təşkilatın - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə, "Rəy" Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzinin keçirdiyi "exit-poll"ların nəticəsi ilə demək olar ki, üst-üstə düşdü.

Seçki prosesini işıqlandıran beynəlxalq KİV də seçkilərin tam demokratik, şəffaf, Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə keçirildiyini yayımladılar və dünya birliyi Azərbaycandakı demokratik seçki mühitindən bir daha xəbərdar oldu. Xaricdə yaşayan soydaşlarımız və ya əcnəbilər 1000 seçki məntəqəsində quraşdırılan veb-kameralar vasitəsi ilə səsvermə prosesini canlı izləyə bildilər.

Azərbaycanda yaşayan çoxmillətli əhalinin iradəsini ifadə edən bu seçkilər bir daha dünyaya cənab İlham Əliyevin ölkəmizdə yüksək hörmətə və nüfuza malik olmasını, xalqın ona böyük inamını və sarsılmaz dəstəyini sübut etdi.

### Niyə məhz İlham Əliyev?!

Bu suala cavab tapmaq heç də çətin deyil. Çox yox, cəmi 20 il öncəyə boylanıb bu günümüzlə müqayisə aparsaq, hər şey aydın görünər.

Xalq çox yaxşı bilir ki, cənab İlham Əliyev Azərbaycan tarixində böyük iz qoyan şəxsiyyət, eyni zamanda son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı azad edən Müzəffər Sərkərdədir. Artıq Azərbaycanda bütün qələbələrin fövqündə bir Qələbə var. Bu Qələbəni də təmin edən ölkəmizin rəhbəri cənab İlham Əliyevdir. Azərbaycanın gələcək inkişafı ilə bağlı da cənab İlham Əliyev tərəfindən uğurlu strategiya müəyyənləşib.

Məhz Prezident İlham Əliyevin yüksəliş konsepsiyası fonunda 2003-2023-cü illər ölkəmizin çoxəsrlik dövlətçilik tarixinə möhtəşəm 20 il kimi daxil olub. Hətta son 20 il tariximizdə o qədər əlamətdar olub ki, bu dövrdə ölkəmiz, əgər belə demək mümkünsə, əsrlərə bərabər yol qət edib.

Azərbaycan misilsiz inkişafı ilə Avrasiyanın enerji xəritəsini yeniləyib. Nəticədə əldə edilmiş tarixi uğurlar ölkəmizi yeni inkişaf mərhələsinə çıxarıb və xalqımıza sevinc bəxş edib.

Bu gün Azərbaycan özünün ən parlaq günlərini yaşayır. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan çoxəsrlik tarixində heç vaxt bu qədər güclü olmayıb. Bütün bu hədsiz sevinci xalqımıza Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bəxş etməyibmi? Onun gördüyü işləri sayıb qurtarmaq, kitablara sığışdırmaq mümkün deyil. Bu faktı dünyanın tanınmış siyasətçiləri də etiraf edirlər.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün və bütün ərazilərində suverenliyinin tam bərpasına nail olub. Hazırda Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda bayrağımız əzəmətlə dalğalanır. Başqa sözlə desək, Qarabağın separatçı xunta cilovundan azad olunması kimi mürəkkəb, hətta bəziləri tərəfindən həlli mümkünsüz görünən problemi həll edib və üstəlik Cənubi Qafqazda dünyanı heyrətə salan yeni reallıqlar yaradıb.

Fevralın 7-də cənab İlham Əliyevin Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verməsinin isə simvolik mənası vardı. Bu, dünyaya və dünya ermənilliyinə, onların havadarlarına verilən mesaj idi. Bu, Xankəndinin timsalında Qarabağın, Şərqi Zəngəzurun Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu göstərdi.

Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycanı məhv olmaq təhlükəsindən qurtarıb işıqlı sabaha çıxardısa, cənab İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirməklə yanaşı, Xilaskar Lider statusuna sahibləndi.

Məhz cənab İlham Əliyevin əsl sərkərdə məharəti ilə düşməndən təmizlənən Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri aparılır və neçə illərdən sonra soydaşlarımızın bu torpaqlara böyük köçü başlayıb. Əlbəttə, misli-bərabəri olmayan bu möhtəşəm nailiyyətlər Müzəffər Ali Baş Komandanımız, Prezidentimiz cənab İlham Əliyevin adı ilə bağlıdır.

Əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin ölkəmizə növbəti yeddi ildə rəhbərliyi ilə bizi ötən 20 ildə əldə edilmiş nailiyyətlərin davamı ilə yanaşı, fəth ediləcək daha uca zirvələr, böyük hədəflər gözləyir. Bu, indikindən də qüdrətli, bütün sahələr üzrə hərtərəfli inkişaf etmiş, güclü iqtisadiyyata sahib müstəqil Azərbaycan olacaq. Cənab İlham Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, xalqına verdiyi bütün vədləri tam şəkildə və vaxtında yerinə yetirib. O, dövlətimizi ağır sınaqlardan, mürəkkəb proseslərdən üzüağ çıxarıb, dünyanı bürüyən və ağır fəsadlar törədən dərin böhranları ölkəmizə yaxın buraxmayıb. Vaxtilə haqqı tapdanan, səsi eşidilməyən, hərbi təcavüzə məruz qalan, torpaqları işğal edilən Azərbaycan bu gün regionun lideri, dünyanın strateji əhəmiyyətli ölkəsidir. Odur ki, xalqımızın daha xoşbəxt, səadət dolu günləri, dövlətimizin ən əzəmətli, güclü illəri hələ qarşıdadır.

### 1 milyon 500 min AHİK üzvünün doğru seçimi

Xalqın səsi göstərdi ki, Azərbaycanın bu günü də, gələcəyi də cənab İlham Əliyevlə bağlıdır. Seçkilərdəki qələbə növbəti yeddi ildə Azərbaycanın inkişafı, 20 ildə başlanılmış işlərin davam etdirilməsi, nailiyyətlərin daha da artırılması deməkdir. Hesab edirəm ki, bu qələbənin əsasında Azərbaycan xalqının İlham Əliyevə olan dərin etimadı, inamı dayanır. Xalq öz rəhbərinə inandı və ona səs verdi. Bu qələbənin qazanılmasında Yeni Azərbaycan Partiyasının böyük zəhməti var.

Bu böyük tarixi qələbəyə bütün xalqımız sevinir. Azərbaycan ziyalıları, respublikamızın intellektual elitası bu gün xüsusi qürur və sevinc hissləri yaşamaqdadır. Çünki bu qələbə siyasi liderin fərdi uğuru, şəxsi nailiyyəti olmaqdan daha çox xalqın öz tarixi taleyi qarşısında milli məsuliyyətinin və vətəndaş cavabdehliyinin göstəricisidir.

Hələ ötən il dekabrın 20-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) növbədənkənar VI Qurultayı kerçirilərkən üç minə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə mühüm qərar qəbul edilmişdi. 26 sahə həmkarlar ittifaqı birliklərinin könüllü ittifaqı olan AHİK-in 1 milyon 500 min üzvü İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası prezidentliyinə namizədliyinin dəstəklənməsi barədə qərar qəbul etmişdi. Bununla bağlı qəbul olunan bəyanatda əminliklə qeyd edilirdi ki, bu gün müstəqil Azərbaycan tam əmin əllərdədir, ölkəmiz tarixboyu heç vaxt bu qədər güclü olmayıb. Fərəhlə söyləyə bilərik ki, bu, məhz Ulu Öndər Heydər Əliyevin arzuladığı Azərbaycandır!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının əvvəlki prezident seçkilərində olduğu kimi, bu dəfə də mövqeyi birmənalı, yekdil və dəyişməz oldu. Biz - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının növbədənkənar VI Qurultayının nümayəndələri 1,5 milyon həmkarlar ittifaqı üzvləri adından 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində xalqımızla həmrəyliyi davam etdirərək, Azərbaycanı inkişaf etmiş ölkəyə çevirən böyük şəxsiyyət İlham Əliyevi dəstəklədiyimizi bəyan etdik.

Konfederasiyada birləşən 1,5 milyon həmkarlar ittifaqı üzvü prezident seçkilərində vətənimizin bütövlüyünü təmin edən, ölkəmizi qabaqcıl dövlətlər sırasına çıxaran dövlət başçısı İlham Əliyevin namizədliyini yekdilliklə dəstəklədi.

### Beynəlxalq təşkilatlardan seçkiyə müsbət rəy

Ölkəmizdə keçirilən prezident seçkilərini minlərlə xarici müşahidəçi izlədi. Açıqlanan hesabatlara əsasən deyə bilərik ki, Azərbaycan bir daha dünyaya seçki nümunəsi göstərib. Onların bir neçəsinin bəyanatına və müşahidəçilərin fikirlərinə diqqət etsək, buna şahidlik edərik.

Seçkiləri müşahidə edən Parlamentlərarası Assambleyanın, Asiya Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının Gənclər Təşkilatının, TÜRKPA-nın Beynəlxalq Münasibətlər və hüquq komissiyasının, İslam Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Xəzər Strateji Araşdırmalar İnstitutunun, həmçinin Türkiyə, Pakistan, Meksika, Belarus, Bosniya və Herseqovina, Mərakeş, Kamboca, İordaniya, Özbəkistan, İraq və Ərəb parlamentinin nümayəndə heyətlərinin yaydıqları bəyanatlarda, açıqladıqları hesabatlarda qeyd edilir ki, seçkilər rahat və dinc şəraitdə keçib.

Beynəlxalq təşkilatlar seçki prosesinin şəffaf, azad və mütəşəkkil şəraitdə, seçicilərin siyasi və vətəndaş hüquqlarından istifadə etmək üçün yüksək fəallığı ilə keçirildiyini qeyd ediblər. MDB-nin Baş katibi və təşkilatın müşahidə missiyasının rəhbəri Sergey Lebedev isə prezident seçkilərinin Azərbaycan Konstitusiyasına tam uyğun keçirildiyini bəyan edib.

Bu seçkilər həm də antiazərbaycançı şəbəkəyə ağır zərbə oldu. Seçkilərə qədər ölkəmizə qarşı edilən təzyiqlər, hücumların hamısı iflasa uğradı. Xüsusən də Azərbaycan nümayəndə heyətinin imtina etdiyi AŞPA-nın uğursuz cəhdləri bu təşkilatın özünə ləkə vurdu. Dünya gördü ki, Azərbaycanın çox yüksəksəviyyəli seçki təcrübəsi var. Ölkənin vətəndaşları isə mütəşəkkil şəkildə bu seçkilərdə iştirak edərək Avropaya nümunə göstərdilər.

Prezident seçkiləri beynəlxalq mətbuatın da diqqət mərkəzində oldu. Dünyanın aparıcı mətbu orqanları məqalə, reportaj yayımlayaraq və məntəqələrdən canlı yayımlar edərək oxucularını şəffaf və demokratik şəraitdə keçən səsvermə prosesi barədə məlumatlandırdılar. Materiallarda ölkədəki seçkiöncəsi siyasi-iqtisadi vəziyyət və seçkiləri şərtləndirən amillər, səsvermə prosesinin gedişi, nəticələri, seçkinin ölkəmizin və regionun gələcəyinə təsir imkanlarına dair fikirlər yer aldılar. Məsələn: "Associated Press" agentliyinin seçicilərin fəallıqla səs verdiyi seçki məntəqələrindən birində canlı yayımında seçki prosesinin maneəsiz və sərbəst şəkildə davam etdiyi qeyd olunub. Agentliyin digər məqaləsində bildirilib ki, ötən ilin sentyabrında Azərbaycanın Qarabağ regionunda ildırımsürətli proseslərdən sonra Azərbaycan Prezidentinin ölkədə nüfuzu ən yüksək səviyyədədir. Seçkilər isə ölkənin bütün ərazisi üzərində artıq tam nəzarətə malik Azərbaycanda yeni eranın başlanğıcıdır.

### Xalqımızın və dövlətimizin həyatında yeni parlaq dövr başlayır

Prezident seçkiləri bir dövrün yekunu, yeni bir dövrün başlanğıcı sayılır. Ötən ilin sentyabrında suverenliyimiz tam bərpa olundu, Qarabağda separatçı rejimin mövcudluğuna birdəfəlik son qoyuldu. Bununla da Azərbaycan tarixinin çox mühüm dövrünə yekun vuruldu.

Müzəffər Ali Baş Komandan İlham Əliyev qüdrətli sərkərdəliyi, öz müdrik siyasəti ilə xəyal kimi görünən arzularımızı həqiqətə çevirdi. İndi isə yeni bir dövr başlayır, bu dövrün başlanğıcı məhz prezident seçkilərindən sonra qoyulur. Yəni artıq xalqımızın və dövlətimizin həyatında yeni parlaq dövr başlayır. Azərbaycan xalqının xoşbəxt gələcəyinin ən layiqli təminatçısı olan Prezident İlham Əliyevə xalqımızın inamı, etibarı böyükdür. Çünki o, gördüyü möhtəşəm işlərlə xalqın qəlbində özünə taxt-tac qurub.

Prezident İlham Əliyevin müəllifi olduğu islahatlar təkmilləşmə, modernləşmə, demokratikləşmə və davamlı inkişaf prosesinin etibarlı təminatı, həmçinin daha geniş miqyasda tətbiqinin zəminə çevrilib. Cənab İlham Əliyev çevik idarəçilik metoduna yiyələnmiş rəhbərdir. Yeni situasiya ondan islahatları daha geniş miqyasda aparmağı və vacib qərarların operativ qəbulunu şərtləndirir. Nəzərə alaq ki, bu gün üzərində işlənən layihələr, proqramlar böyük strateji dövr üçün nəzərdə tutulur və onların əksəriyyəti 2030-cu ilədək olan mərhələni əhatə edir.

Bütün bu proseslərdə Prezident İlham Əliyevin ən böyük dəstəkçisi, ən yaxın silahdaşı isə ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva olub. Mehriban xanım Əliyeva həm Heydər Əliyev Fondunun rəhbəri, həm də birinci xanım kimi üzərinə düşən missiyanın məsuliyyətini dərindən dərk edərək ölkə üçün taleyüklü məsələlərin həlli yolunda cənab İlham Əliyevlə birgə addımlayıb. Cənab İlham Əliyevin yürütdüyü siyasətin ən böyük dəstəkçisi olan Mehriban xanımın əvəzsiz xidmətlərinin, əlbəttə ki, bundan sonrakı illərdə də şahidi olacağıq.

Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban xanım Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əmin olarıq ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafında çox böyük çəkiyə malikdir. Prezident İlham Əliyevin bütün layihələrinin uğurla reallaşmasında böyük dəstəyi olan Mehriban xanım Əliyeva bu gün Müzəffər Ali Baş Komandanla birgə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında əvəzsiz xidmətlər göstərir. Azərbaycan Prezidentinin ən yaxın silahdaşı kimi Mehriban xanım Əliyeva dövlət başçısı ilə birlikdə üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir. Elə buna görə də xalqın sevimlisinə çevrilən Mehriban xanım Əliyevanın Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətinin uğurla davam etdirilməsindəki müstəsna rolu və mövqeyi təqdir edilir. Mehriban xanımın Azərbaycan naminə yürütdüyü şərəfli missiya xalqın cənab İlham Əliyevin ətrafında daha sıx birləşməsini təmin edir, dövlətçilik kursumuza çevrilən Əliyevçilik siyasi xəttini daha da möhkəmləndirir.

### Zəfər seçkisi - Naxçıvanın 100 illik yubileyinə mühüm töhfə

Ölkəmizdə reallaşan bütün prezident seçkilərində aktiv rol oynayan Naxçıvan Muxtar Respublikası da bütöv Azərbaycanda keçirilən Zəfər seçkilərində bir daha öz nümunəsini ortaya qoydu.

Bütün bunları həm seçkilərə hazırlıq prosesində, həm də səsvermə günü Naxçıvanda şahidlik etdiyim reallıqlara əsasən söyləyirəm. Hələ seçkilərdən öncə seçicilərimlə görüşərkən onlar birmənalı şəkildə seçkilərdə iştirak edəcəklərini və ən layiqli namizədə səs verəcəklərini bəyan edirdilər. Fevralın 7-də bu, bir daha təsdiqini tapdı.

Milli Məclisdə təmsilçisi olduğum Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 6 seçki dairəsi üzrə ümumilikdə 278 mindən çox seçici qeydə alınmışdı. Səsverməyə start verildiyi andan muxtar respublika sakinləri seçkilərdə fəal iştirak etməyə başladılar. Seçki məntəqələrində seçicilərin rahat və şəffaf şəkildə səsverməsi üçün lazımi tədbirlər görülmüşdü. 35 məntəqədə quraşdırılan veb-kameralar vasitəsilə seçki prosesini canlı izləmək mümkün oldu.

4 saylı Naxçıvan şəhər seçki dairəsinin 21 saylı seçki məntəqəsində səsvermə hüququmdan istifadə edərkən şahidi olduğum mənzərə isə qürur hissi yaşatdı. Həm məntəqədə təşkil olunmuş qeydiyyat prosesi, həm seçici fəallığı mükəmməl idi.

Saat 19:00-a olan məlumata görə, muxtar respublika üzrə seçici fəallığı 82.09 faiz göstərilirdi. Səslər hesablandıqdan və "exit-poll" nəticələri elan edildikdən dərhal sonra Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın şəhər və kəndlərində sakinlər küçələrə axışıb, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin yenidən prezident seçilməsini musiqi sədaları altında üçrəngli dövlət bayrağımızı dalğalandırmaqla və səsləndirdikləri şüarlarla böyük sevgi, coşqu ilə qeyd etməyə başladılar. Bu, Naxçıvan əhalisinin cənab İlham Əliyevə olan sevgisinin, inamının, böyük etimadının real mənzərəsi idi.

Ümumiyyətlə, Naxçıvan sakinləri hər zaman seçkilərdə yüksək fəallıqları ilə fərqləniblər və fevralın 7-də bu, bir daha təsdiqini tapdı. Naxçıvanlılar hər zamankı kimi, bu seçkilərdə də aktiv iştirak edərək Azərbaycanın işıqlı sabahına səs verdilər.

Bu seçkilərin həm də Naxçıvan üçün xüsusi özəlliyi oldu. Çünki bütöv Azərbaycanda keçirilən 2024-cü il 7 fevral tarixli ilk prezident seçkiləri muxtar respublikanın 100 illik yubileyinə təsadüf etdi.

Məhz bu gün - fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur. Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutan, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayan Naxçıvan diyarı Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə qəhrəman əhalisi ilə bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarıb, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirib. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar.

Bu gün Naxçıvan Muxtar Respublikası dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir.

Cənab İlham Əliyevin ötən il iyulun 5-də imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamı isə Naxçıvanın yeni tərəqqisinin yol xəritəsi hesab olunur. Dövlət başçısının sərəncamı ilə Naxçıvanda Prezidentin Səlahiyyətli Nümayəndəsi İnstitutunun fəaliyyətə başlaması və məqsədyönlü islahatların uğurla həyata keçirilməsi ilə qədim diyarımızın modern tərəqqisi geniş vüsət almağa başlayıb. Səlahiyyətli nümayəndənin icrasını reallaşdırdığı tapşırıqların mənzərəsi Naxçıvanın yeni hədəflərə doğru düzgün yolda olduğunu təsdiqləyir.

Bir sözlə, Naxçıvan əhalisi Zəfər seçkisində cənab İlham Əliyevə etimad mandatı verməklə həm də daha möhtəşəm gələcəyə səs vermiş oldu. Xalqdan etimad mandatı alan Prezident İlham Əliyev isə yeni milli ideya ilə yeni dövrə başlayacaq. Bu ideya Azərbaycanın daha çox inkişafına, müdafiə gücünün artırılmasına, xalqımızın milli birliyinin daha da möhkəmlənməsinə və xarici düşmənlərimizə qarşı daha mətinləşməsinə səbəb olacaq.

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Xalqın məhəbbəti və dəstəyi ilə qazanılan möhtəşəm qələbə

## Seçki zəfəri İlham Əliyevin halal haqqıdır

**2024-cü il fevralın 7-si tarixində xalqımız çağdaş dövrümüzün ən möhtəşəm, taleyüklü günlərindən daha birini yaşadı. Həmin tarixdə Azərbaycan xalqı növbədənkənar prezident seçkilərinə gedərək bizə Zəfərlər yaşadan, Qarabağ və Şərqi Zəngəzuru azad edən, suverenliyimizi təmin edən Qalib Lider İlham Əliyevə səs verdi.**

Fevralın 7-də cənab İlham Əliyev ilkin nəticələrə görə, seçicilərin 92,05 faizinin səsini qazanaraq seçkilərin qalibi oldu. Bu etibarı, inamı İlham Əliyev 20 illik ölkə prezidentliyi dövründə yorulmadan xalqına, vətəninə sədaqətlə, onun şərəfinə, ləyaqətinə, milli-mənəvi dəyərlərinə canfəşanlıqla, məsuliyyətlə xidmət edərək milyonlarla soydaşımızın səmimi məhəbbəti və dəstəyi ilə qazanmışdır! Bu qalibiyyət cənab İlham Əliyevin halal haqqıdır!

Soydaşlarımız sözü imzası qədər güclü olan İlham Əliyevi dəstəkləyərək xalqımızı qurtuluşdan yeni dirçəlişə aparan dahi şəxsə, bizi yeni zirvələrə, iqtisadi, sosial, bütün sahələrdə dayanıqlı inkişafa doğru yeni uğurlara, rifahımızın yüksəlməsinə, sülhə, əmin-amanlığa, yeni nəsillərin, gənclərin firavan gələcəyinə inamla aparan Qalib Liderinə mütəşəkkilliklə səs verdi.

### Xoşbəxt nəsilik ki, dahi şəxsiyyətlərlə bir dövrdə yaşamışıq

Xoşbəxt xalqıq ki, müstəqillik dövründə qismətimizdə iki nəsildə dahi dövlət başçısı, xalqına sədaqətlə xidmət edən, ona iki dəfə ağır vəziyyətdən qurtuluş imkanı yaradan, keyfiyyətcə yeni dirçəliş və dayanıqlı inkişaf yolları ilə yeni zirvələrə ucaldan şəxsiyyətlərlə bir dövrdə yaşamışıq. Bunlar Ulu Öndər, Ümummilli Liderimiz Heydər Əliyev və layiqli, həm bioloji, həm də ideoloji varisi İlham Əliyevdir ki, onun çoxşaxəli, hərtərəfli istedadlar çələngini, inkişaf strategiyalarını keyfiyyətcə yeni səviyyədə davam etdirərək Azərbaycanı daha yüksək zirvələrə ucaltmışdır. Mübaliğəsiz demək olar ki, Heydər Əliyev həqiqətən fenomenal bir şəxs idi, uzaqgörən, qarşıda duran cari və perspektiv məqsədləri aydın müəyyənləşdirmiş, həmin məqsədlərə aparan ən səmərəli yolları tapmağı və qarşısında duran məqsədlərə məharətlə nail olmağı bacaran, sözün əsl mənasında dahi şəxsiyyət idi.

1993-cü ildə hakimiyyətə qayıtdığı zaman, ölkə əhalisinin yüksək yoxsulluq səviyyəsi, dağıntılar, siyasi, iqtisadi, sosial, bir sözlə, hərtərəfli böhran, xaos və özbaşınalıq, vətəndaş müharibəsi, qardaş qanı tökmək, hətta böyük insan və maddi itkilər bahasına qazandığımız müstəqilliyimizi itirmək təhlükəsi kimi ağır vəziyyətdə Heydər Əliyev qarşısında duran çətinlikləri aradan qaldırmağı, dövləti bu vəziyyətdən inkişaf yoluna çıxarmağı olduqca çətin olsa da, bacardı.

Ulu Öndərin güclü məqsədyönlü siyasəti, özünə xas strategiyaları, sistemli, ardıcıl planları ilə respublikada silsilə tədbirlər keçirilmiş, mühüm qanunvericilik aktları qəbul olunmuş, fərman və sərəncamlar imzalanmışdır. Əminliklə demək olar ki, Heydər Əliyev, sözün əsl mənasında, müstəqil Azərbaycan Respublikasının, onun ilk Konstitusiyasının, Ombudsman İnstitutunun, hüquqi islahatların banisi olmuşdur.

18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair" ilk dövlət proqramı təsdiq edilmişdir.

### Hər birimizin ömründə, həyatında, yaddaşında Heydər Əliyevin yeri var

Ölkəmizdə ilk dəfə yaranmış, məqsədləri məhkəmədən kənar insan hüquqları və azadlıqlarının müdafiəsi olan Ombudsman İnstitutu qısa müddətdə geniş insan hüquqları üzrə maarifləndirmə vasitəsilə hüquq düşüncəsi və hüquq mədəniyyəti, dövlətimizdə demokratik idarəetmənin daha da təkmilləşdirilməsi, sabitliyin yaranması, qanunun aliliyi və ölkənin davamlı inkişafı yeni uğurlara zəmin yaratdı, habelə beynəlxalq ombudsmanlar arasında səmərəli fəaliyyəti, təşəbbüsləri, innovativ yanaşmaları ilə nüfuz qazandı, layiqli yer tutdu və bu fəaliyyəti hazırda prioritetlərə uyğun olaraq davam edir.

Hakimiyyətə qayıtdıqdan sonra hər zaman diqqətində saxladığı insan taleyi və hüquqları olmuşdur. Ulu Öndər ölüm cəzasını ləğv etmiş əfv institutunu yaratmışdır.

1994-cü il mayın 12-də məhz Heydər Əliyevin təşəbbüsü və səyləri nəticəsində Azərbaycanla Ermənistan arasında atəşkəs əldə olundu. Həmin ildə dövlətinin, xalqının tarixində Heydər Əliyev dühasının məhsulu, nəticəsi olan, ölkəmizi dərin iqtisadi və siyasi böhrandan çıxaran, indiyədək həm ölkədaxili, həm də beynəlxalq problemlərin həllində tarixi əhəmiyyət kəsb edən neft kontraktı imzalandı. Bunun nəticələri və əhəmiyyəti barədə hamımız məlumatlıyıq.

Özüm də şahidi olduğum bir hadisəni diqqətinizə çatdırıram. 1999-cu il İstanbul Sammitində Heydər Əliyev ilk dəfə olaraq bəyan etdi ki, Azərbaycan öz neftinin xarici bazarlara çıxarılması üçün, bəzi dövlətlərin marağında olanı deyil, Bakı-Tbilisi-Ceyhan marşrutunu seçdi. Bu xəbər coşqu ilə qarşılandı, Türkiyənin ozamankı prezidenti Süleyman Dəmirəl bununla bağlı bildirdi ki, "Heydər Əliyev bu qərarı ilə yalnız Türkiyəni deyil, bütün türk dünyasını şərəfləndirdi".

Heydər Əliyev bir şəxsiyyət kimi fərdi xüsusiyyətlərinə görə hər bir insan üçün örnəkdir. Dönməz əqidəsi, məsuliyyəti, fitri istedadı, yaradıcılıq enerjisi ilə, qətiyyətlə, israrla həyatının, ömrünün məqsədi, mənası kimi seçdiyi, "Mən Azərbaycan üçün dünyaya gəlmişəm" deyə, dərin məhəbbətlə, sədaqətlə doğma vətəni Azərbaycanı sevən, həm də özünəxas olan insanlara diqqəti, davranış tərzi ilə fərqlənən bir dahi siyasi, dövlət xadimi, Azərbaycan xalqının lideri idi. Bizim hər birimizin ömründə, həyatında, yaddaşında Heydər Əliyevin yeri var. Heydər Əliyev öz ömrü və fəaliyyəti ilə əbədiyaşarlıq qazandı.

Deyərlər ki, insan yaddaşlarda qaldığı qədər yaşayır. Odur ki, hər birimizin vəzifəsi yaşadıqca Azərbaycan xalqı qarşısında ölçüyəgəlməz xidmətləri olan Heydər Əliyevi, onun dəyərli irsini nəsildən-nəsilə ötürərək, təbliğ etmək, yaşatmaqdır.

Eyni zamanda öz fəaliyyəti ilə xalqına, dövlətinə nə qədər zəngin taleyüklü töhfələr versə də, Heydər Əliyevi ömrü boyu narahat edən bir məsələ var idisə, o da əzəli Azərbaycan torpaqlarımızın 20 faizinin erməni təcavüzkarları tərəfindən zəbt olunması, bu torpaqlardan silah gücünə zorla qovulmuş yüz minlərlə soydaşımızın isə məcburi köçkün damğası ilə ağır şəraitdə yaşaması idi. Ulu Öndər bu istiqamətdə məqsədyönlü siyasət aparır, torpaqlarımızın azad olunması, ata-baba yurdundan didərgin düşən insanlarımızın qayıdışının tez bir zamanda təmin edilməsi üçün çalışırdı.

### İlham Əliyev xalqını, dövlətini yeni zirvələrə yüksəltdi

Onun bu ülvi arzusunu özü qədər inandığı varisi, Prezident İlham Əliyev gerçəkləşdirdi və atasının məzarı önündə hesabat verərək ruhunu şad etdi.



Dövlət xadimi İlham Əliyev daim vurğulayır ki, biz Heydər Əliyev yolu ilə, onun strategiyaları ilə inkişaf edəcəyik. Amma bununla belə sürətlə dəyişən geosiyasi vəziyyət, zamanın onun qarşısında qoyduğu çağırışların ən səmərəli, optimal həllini tapmaq, həm də yalnız taleyüklü ölkədaxili məsələlər deyil, bunlarla yanaşı, regional və qlobal problemləri əhatə etməklə, o cümlədən gələcəyi qabaqlamaqla, sürətli zəruri qərarlar qəbul etmək bu siyasi kursa düzəlişlər tələb edirdi.

2020-ci il 44 günlük Vətən müharibəsində, habelə 2023-cü il 19-20 sentyabr tarixli 23 saatlıq lokal xarakterli antiterror tədbirləri zamanı Ali Baş Komandan İlham Əliyevin bilavasitə rəhbərliyi ilə ordumuz tərəfindən düşmənin darmadağın edilməsi tariximizin unudulmaz səhifəsidir. Dövlət başçımızın bir çağırışına xalqımızın ayağa qalxması, anaların vətənpərvər oğullarını ölkəboyu çal-çağırla bir üzü qələbə, bir üzü ölüm olan müharibəyə göndərməsi, qəhrəman xalqımızın, rəşadətli ordumuzun hərbi texnikası ilə, adı belə düşməni lərzəyə gətirən "yeni silah", "dəmir yumruq" kimi birləşməsi, möhtəşəm Zəfər çalması hərb elm və təcrübəsində tapıntı, yeniliklər idi və bunlar hələ də dünyanın hərbi mütəxəssisləri tərəfindən öyrənilməkdədir.

Vətən müharibəsinin hər günü bir qələbə, möcüzə oldu, hər azad olunmuş yaşayış məntəqəsində üçrəngli bayrağımızın Prezident İlham Əliyev tərəfindən yüksəldilməsi isə xalqımız tərəfindən el bayramı kimi qarşılandı.

İlham Əliyev xalqımızı uzun sürən erməni təcavüzündən, terrorçulardan, separatçılardan qurtararaq azadlığa qovuşdurduğu torpaqlarımızda sürətli bərpa-quruculuq işlərini təşkil etmiş, 30 illik bir dövrdə əzab çəkərək yaşamış keçmiş məcburi köçkünləri mərhələli şəkildə ata-baba yurdlarına qaytarmağa başlamışdı.

On illərlə səlahiyyətli beynəlxalq təşkilatların həll edə bilmədiyi "Dağlıq Qarabağ" problemini Prezident İlham Əliyev özü həll etmiş və bunu dünyaya bəyan etmişdir.

Tanınmış dövlət və siyasi xadim, müzəffər sərkərdə olan İlham Əliyev qısa zaman kəsiyində öz bacarıqları, xüsusiyyətləri ilə dünya siyasi liderləri və xadimlərini heyran etmiş və öndərlər sırasında layiqli yer tutmuşdur.

Qoşulmama Hərəkatına uğurla sədrlik edən İlham Əliyev bu quruma xüsusi status qazandırmış və hərəkatın nüfuzunu BMT səviyyəsinə qaldırmışdır. Çoxsaylı beynəlxalq konfranslarda, sammitlərdə, forumlarda lider kimi dünya birliyində hər zaman hörmətlə qarşılanmışdır. Özü ucaldıqca xalqını, dövlətini, onun şərəfini, ləyaqətini də ucaltmış, yeni zirvələrə yüksəltmişdir.

Siyasi, iqtisadi, ümumiyyətlə, müxtəlif mövzularda diskussiyalarda faktlara əsaslanan sərrast cavabları ilə bu sahədə də yüksək məharətini göstərməyi bacarmışdır. Xarici jurnalistlərlə görüşündən sonra onlardan biri belə söyləmişdir: "Mən bir çox ölkədə bənzər tədbirlərdə iştirak etmişəm, lakin heç yerdə 4 saat ərzində, dörd dildə xarici jurnalistlərin çoxsaylı suallarını cavablandıran ölkə Prezidenti görməmişəm!"

### İlk dəfə olaraq bütöv Azərbaycan ərazisində seçki keçirdik

Dəfələrlə seçki proseslərində müşahidəçi qismində iştirak etdikdə şahidi olmuşam ki, ölkəmizdə müstəqillik dövründə mükəmməl seçki sistemi işlənib və bu, uğurla sınaqdan keçib. Bu il fevralın 7-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri də demokratikliyi və şəffaflığı ilə diqqət çəkdi! Bu seçkiyə hazırlıq prosesi yüksək səviyyədə təşkil olunmuşdu. Seçicilər siyahısı dəqiqləşdirilmiş, seçki prosesinin iştirakçılarının maarifləndirilməsi işi aparılmış, ölkə prezidenti vəzifəsinə namizədlər qeydiyyata alınmış və onların təşviqat işləri üçün bərabər imkanların yaradılması üzrə lazımi tədbirlər görülmüş, həmçinin media nümayəndələri üçün seçkilərlə bağlı istənilən məlumatları vaxtında əldə etmək və yayımlamaq üçün şərait yaradılmışdı.

Seçkiyə hazırlıq ərəfəsində soydaşlarımız, bir qayda olaraq, Yeni Azərbaycan Partiyasına bu seçkilərin keçirilməsi təşəbbüsünə və xalqımızın Lideri Prezident İlham Əliyevin namizədliyini ölkə prezidentliyi vəzifəsinə irəli sürdüyünə görə öz minnətdarlıqlarını bildirirdilər, "Seçimimiz Müzəffər Liderimiz İlham Əliyevdir, Qalib xalqımızın Qalib Lideri İlham Əliyev!" söyləyirdilər.

Fevralın 7-də ilk dəfə olaraq bütöv Azərbaycan ərazisində keçirilən seçkilər həm də Zəfər seçkisi idi. Çünki ilk dəfə azad olunmuş Şuşa, Laçın, Kəlbəcər, Xankəndi, Füzuli, Cəbrayıl, Zəngilan, bir sözlə, Qarabağ və Şərqi Zəngəzurda keçirildi. Vətəndaşlarımız bu ərazilərdə də yüksək fəallıq nümayiş etdirərək seçkilərə qatıldılar. Onlar Qarabağ və Şərqi Zəngəzuru azad edərək Böyük qayıdışı həyata keçirən Müzəffər Lider İlham Əliyevi dəstəklədilər.

### Vətəndaşlıq borcumuz layiqincə yerinə yetirildi

Bütün ölkəboyu səsvermədə iştirak edən xalqımızın nümayəndələri yekdilliklə Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycana qələbələr yaşadan mahir siyasi lider İlham Əliyevə səs verdilər.

Bu, müzəffər Prezident, ordumuzun Ali Baş Komandanı, müdrik sərkərdə və diplomat İlham Əliyevin 20 illik hakimiyyəti ərzində ölkəmizin hərtərəfli inkişafında qazandığı nəhəng uğurlara, Azərbaycanı qalib ölkəyə, xalqımızı qalib xalqa çevirdiyinə görə idi.

Cənab İlham Əliyev ilk dəfə prezidentlik vəzifəsinə seçiləndən sonra qarşısına qoyduğu məqsədlərin həll olunmasına tam nail olub. Xalqımız yeni dövrdə də Qalib Lider İlham Əliyevin qarşısına qoyduğu möhtəşəm yeni məqsədlərə çatacağının tam inamı ilə bu dəfə də ona yekdilliklə səs verdi. Bu seçkinin nəticəsi həm ötən illərdə irəli sürülən siyasi, iqtisadi, sosial problemlərin həllinə, qeyri-neft sektorunun inkişafına, ekoloji tarazlığın qorunmasına verilən töhfələrə, yeni texnika və texnologiyaların tətbiqinə, elmin, təhsilin inkişafına görə qazanılan böyük inamın təcəssümü oldu. Bu, eyni zamanda işğaldan azad edilən torpaqlarda baş planlar üzrə tikilən "ağıllı şəhərlər"ə və yaşayış məntəqələrinə, o yerlərə qayıdış prosesinin sürətlənməsinə, tarixi və dini abidələrin, mədəniyyət ocaqlarının bərpasına və digər məsələlərə, bir sözlə, görülən mühüm işlərə xalqımız tərəfindən verilən yüksək dəyər oldu.

7 fevral prezident seçkiləri vətəndaşlıq borcumuzun layiqincə yerinə yetirilməsi, düzgün seçim edərək Azərbaycanın gələcəyinin daha parlaq olmasına imza atdığımız tarixi gün oldu.

***Elmira SÜLEYMANOVA,***
***Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, professor***

# Tarixi xidmətlərinizi xalqımız heç vaxt unutmayacaq



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə**

Hörmətli İlham Heydər oğlu!

Prezident seçkilərində parlaq qələbəniz münasibəti ilə Sizi öz adımdan, ailəm adından və yazıçılar adından ürəkdən təbrik edirəm. Sizin qələbəniz - müstəqilliyimizin, sabitliyin, xalq birliyinin, gələcək sağlam inkişafımızın qələbəsidir. Əgər Sizin rəhbərliyinizlə 44 günlük savaşda işğal olunmuş torpaqlarımız azad edildisə, 23 saatlıq antiterror əməliyyatında iki yüz illik ağrılı problemə son qoyuldu. Bu tarixi xidmətlərinizi xalqımız heç vaxt unutmayacaq.

2003-cü ildən bəri bütün prezident seçkilərində Sizə səs vermişəm. Ömrüm vəfa etsə, gələcək seçkilərdə də Sizə səs verəcəyəm.

Bir daha təbriklər!

***ANAR,***
***Azərbaycan Yazıçılar Birliyinin sədri***

# Gəncəlilər bu qələbə xəbərini də coşqu ilə qarşıladılar

**Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri yüksək fəallıqla başa çatdı. İndi ekspertlər də təsdiq edirlər ki, Azərbaycan xalqı bu siyasi kampaniyada görünməmiş fəallıq nümayiş etdirdi. Hamı bir nəfər kimi bu taleyüklü seçkidən kənarda qalmadı, səsini Zəfərin və inkişafın davamına - İlham Əliyevə verdi.**







Bu seçimin səbəbi çoxdur. Lakin biz onlardan yalnız birini qeyd etmək istərdik. Məhz İlham Əliyevin rəhbərliyi altında ordumuz 44 günlük Vətən müharibəsində 30 il işğal altında qalmış torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüz təmin olundu. Azərbaycanın qazandığı bu tarixi qələbə dövlətimizin qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Bu Zəfərdən sonra xalqın fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində yenidən İlham Əliyevə etimad göstərməsi təbiidir.

İndi ölkəmizin hər yerində seçkilərin nəticələri əsl bayram ovqatı ilə qeyd olunur. Respublikamızın ikinci böyük şəhəri olan Gəncədə də sakinlərin sevinci hədsizdir. Ölkəmizin taleyüklü məsələlərində həmişə fəallıqları ilə seçilən gəncəlilər seçki günü də nümunə göstərdilər. Fevralın 7-də bütün şəhərdə böyük canlanma yaşandı. Gəncəlilərin yeganə arzusu İlham Əliyevi yenidən Prezident görmək idi. İndi onlar bu arzularına çatdıqları üçün qürur duyurlar.

Gəncə Elm Mərkəzinin akademik katibi, AMEA-nın həqiqi üzvü Fuad Əliyev söhbət zamanı ürək sözlərini belə ifadə etdi:

- İlham Əliyevin Azərbaycan xalqı üçün etdiklərini saymaqla qurtarmaz. Ümummilli Lider Heydər Əliyevdən sonra onun gördüyü işlər nəticəsində Azərbaycan dünya miqyasında tanınan ölkələr sırasına çıxdı. İndi dünya birliyi ölkələri Azərbaycanla hesablaşır, onun adını nüfuzlu ölkələrlə bir sırada çəkirlər. Bu da təsadüfi deyil. Son illər iqtisadiyyatımız o qədər inkişaf edib ki, hətta işğaldan azad edilmiş regionlarda aparılan abadlıq və quruculuq işlərində də heç bir dövlətin yardımına ehtiyac duymuruq. Elm sahəsində qazandığımız nailiyyətlər, alimlərimizin əldə etdikləri uğurlar da müstəqil Azərbaycanın şöhrətini artırmışdır. Gənclərimizə yaradılan şərait onların elm sahəsində yeni uğurlara imza atmalarına imkan vermişdir. Ümumiyyətlə, Azərbaycanın davamlı inkişafı, qazanılan bütün nailiyyətlər Prezident İlham Əliyevin daxili və xarici siyasətinin məntiqi nəticəsidir.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Gəncə tanınmaz dərəcədə dəyişmişdir. Bu gün abadlığına görə qədim Nizami yurdunu Avropa şəhərləri ilə müqayisə edirlər. Gəncədə 3 ali təhsil müəssisəsi, 2 orta ixtisas kolleci fəaliyyət göstərir. Azərbaycanın aqrar sektorunu kənd təsərrüfatı kadrları ilə təmin edən Dövlət Aqrar Universiteti də Gəncədə fəaliyyət göstərir. Dövlət başçısının sərəncamı ilə universitet üçün müasir tədris binaları, tələbələr üçün yataqxana şəhərciyi inşa edilmişdir. Universitetin kafedra müdiri Hasil Fətəliyev deyir ki, ölkədə yeganə kənd təsərrüfatı kadrları hazırlayan bu ali təhsil müəssisəsinin tədris bazası son illər çox zənginləşmişdir: "İndi hətta xaricdən gələn ali təhsil müəssisələrinin nümayəndələri universitetimizə yaxşı mənada qibtə edirlər. O üzdən xarici gənclərin universitetimizdə təhsil almağa maraqları xeyli artmışdır. Söz yox ki, bütün bunlar Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Odur ki, mən və digər alim yoldaşlarım fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyevə səs verdik".

Ölkəmizdə elə bir sahə yoxdur ki, inkişafdan kənarda qalsın. O cümlədən səhiyyə sahəsində qazandığımız uğurları saymaqla bitməz. Vaxtilə xırda bir əməliyyat üçün xarici ölkələrə üz tutan xəstələrimizin indi hətta Bakıya getmələrinə ehtiyac yoxdur. Çünki əksər regionlarda dünya standartlarına cavab verən səhiyyə ocaqları fəaliyyət göstərir. Səhiyyə sistemi sığortaya keçdikdən sonra hər kəs üçün sağlamlığını bərpa etmək əlçatan olmuşdur.

Yeni Gəncə Tibb Mərkəzinin həkimi Elman İbrahimov uzun illərdir səhiyyə sistemində çalışır. Deyir ki, Azərbaycanda tibbin bu qədər yüksək səviyyədə inkişaf etdiyini görməmişdir: "İndi elə bir xəstəlik yoxdur ki, regionlarda müalicəsi mümkün olmasın. Tibb ocaqlarımız ən müasir avadanlıqlarla təchiz edilib. Belə bir şəraitdə işləmək bizim üçün olduqca rahatdır. Əlbəttə, bu şəraiti bizə yaradan dövlət başçısıdır. Məhz buna görə Gəncənin bütün səhiyyə işçiləri də seçkilərdə İlham Əliyevə səs verdilər".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Daha firavan gələcəyə, daha güclü dövlətə səs verdik

**Budəfəki prezident seçkilərində də xalqımız müdrikliyini, taleyüklü məsələlərdə qəti mövqe nümayiş etdirmək bacarığını göstərdi - böyük səs çoxluğu ilə cənab İlham Əliyevi yenidən dövlətimizin başçısı seçdi.**

Açığını deyim ki, seçkilərin elan edildiyi gündən Prezidentimizə yenidən etimad göstəriləcəyinə ürəyimdə bir inam, arxayınlıq var idi. Bunun səbəbi açıq-aşkar hamıya məlumdur. Son 20 ildə Ulu Öndər Heydər Əliyev kursunu uğurla davam etdirən Prezident İlham Əliyev respublikamızın hərtərəfli inkişafı üçün misilsiz işlər görmüşdür. Rayon mərkəzlərimiz, şəhər, qəsəbə və kəndlərimiz öz simasını dəyişərək abadlaşmış, müasirləşmişdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində yeni təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilmiş, saysız iş yerləri açılmış, yollar, körpülər inşa edilmiş, əhalinin elektrik enerjisi, təbii qaz, içməli su ilə təchizatı yaxşılaşmışdır. Əməkhaqları, pensiya və müavinətlər hər il indeksasiya edilərək artırılmışdır. Bu il də istisna olmamışdır. Prezidentin sərəncamı ilə bütün növ pensiyaların məbləği 11,2 faiz artırılmışdır. Prezidentlik fəaliyyətinin 20 ili ərzində cənab İlham Əliyevin gördüyü işlər saya və ölçüyəgəlməzdir. Bütün bunlar Azərbaycanın dostlarını sevindirir, düşmənlərini çıxılmaz vəziyyətə salır.

Ən əsası Prezident İlham Əliyev Azərbaycan xalqını iki əsrdən bəri davam edən erməni hiylə-fəsadlarından xilas etmiş, ölkəmizin canına yer eləmiş bir şişi kəsib atmışdır. Düşünülmüş siyasəti ilə xalqımızı, ordumuzu səfərbər edən Ali Baş Komandanımız xalqı "dəmir yumruğ"un ətrafında birləşdirmişdir. Bu yumruğun zərbəsi ilə düşmənin beli qırılmış, 30 il işğal altında olan torpaqlarımız - Qarabağ və Şərqi Zəngəzur azad edilmişdir. Ermənistanı müdafiə edən ölkələrin başçıları bu gün də İlham Əliyevin siyasi iradəsi, diplomatiyası, məntiqli düşüncəsi qarşısında duruş gətirə bilmirlər və indən sonra da gətirə bilməyəcəklər.

Mən kənd adamıyam, siyasətçi deyiləm. Bu yazdıqlarım ürəyimdən gələn sözlərdir. Yaxşı bildiyim, bir fermer kimi işimdə gördüyüm odur ki, Prezidentin fərman və sərəncamları, göstərişləri ilə kənd təsərrüfatında olmazın inkişaf var. Verilən subsidiyalar, edilən güzəştlər hər bir kənd adamını yenidən torpağa qaytarıb. İndi hər kəs torpağın nə olduğunu yaxşı bilir.

Özümün torpaq sahəm var. Toxumçuluqla məşğul oluram. Yetişdirdiyim yüksək reproduksiyalı buğda və arpa toxumları fermerlər tərəfindən bəyənilir. Pambıq əkib-becərməklə də məşğulam. Pis dolanmıram, heç nəyə ehtiyacım yoxdur. Halal zəhmətimlə uşaqlarımın dördü də ali təhsil alıb. Qızlarımı köçürmüşəm. Şükür Allaha, güzəranlarından şikayətçi deyillər. Bunların hamısı dövlətimizin, Prezident İlham Əliyevin kənd adamına, məhsul istehsalçısına yaratdığı şərait hesabına mümkün olub. Ona görə də fevralın 7-də hamılıqla İlham Əliyevə - daha firavan gələcəyimizə, daha güclü dövlətimizə səs verdik.

***Mərdan CƏLİLOV,***
***Salyan rayonunun Sarvan kənd sakini, fermer***

# "Azərbaycanda seçkilərin təşkili Avropa standartlarını üstələyir"

## Bunu beynəlxalq müşahidəçilər etiraf etdilər

**Fevralın 7-də keçirilən prezident seçkilərində iştirak üçün 760 beynəlxalq müşahidəçi qeydiyyatdan keçmişdi. Müxtəlif ölkələrdən olan həmin beynəlxalq müşahidəçilər respublikamızın bölgələrində, habelə paytaxt Bakıda və işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən məntəqələrdə seçki prosesini izləmişlər. Onlar seçici fəallığını, vətəndaşların bayram əhvali-ruhiyyəsində olduğunu vurğulamış, heç bir nöqsanla rastlaşmadıqlarını qeyd etmişlər. Beynəlxalq müşahidəçilərin ilkin rəyləri də təsdiqləyir ki, ölkəmiz daha bir demokratik, şəffaf və ədalətli seçkilərin keçirilməsinə nail olmuşdur.**

**Arçil Talakvatze,**

*Gürcüstan parlamentinin sədr müavini:*



- Azərbaycanda fevralın 7-də keçirilmiş prezident seçkiləri yüksək səviyyədə təşkil edilmişdi. Məntəqələrdə seçicilərin fəallığını müşahidə etdik. Seçki məntəqələrində ab-hava və mühit çox yüksək səviyyədə idi. Müşahidələrimizə əsasən əminliklə deyə bilərəm ki, seçki prosesində bütün qaydalara əməl edilib və seçicilər seçki hüququndan yüksək səviyyədə bəhrələnib. Azərbaycana sülh və əmin-amanlıq arzulayıram. Qonşumuzun sülh və əmin-amanlıq şəraitində yaşaması Gürcüstanın, eləcə də bütün regionun marağındadır.

**Özgür Çəngəl,**

*Türkiyənin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin nümayəndəsi:*



- Seçkilər kifayət qədər şəffaf, rahat və demokratik şəkildə keçirildi. Hər hansı neqativ halla rastlaşmamışıq. İnanırıq ki, seçkilərin nəticəsi Azərbaycanın gələcəyi üçün uğurlu olacaq. Hesab edirəm ki, bu seçkilər bir çox ölkəyə örnək ola bilər.

**Qulmurat Muratov,**

*Türkmənistan Mərkəzi Seçki Komissiyasının sədri:*

- Azərbaycanda seçkilər şəffaf şəkildə keçirildi, seçicilər rahat və təhlükəsiz şəraitdə səs verdilər. Müşahidələrimizə əsasən, seçki prosesinin yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaradılmışdı. Xüsusi qeyd etmək lazımdır ki, prezident seçkilərində bütün yaş kateqoriyalarından olan vətəndaşlar iştirak edirdilər.

**Baxtiyor Xudoyorzoda,**

*Tacikistan Mərkəzi Seçki Komissiyasının sədri:*



- Seçkilərdə hər şey şəffaf və demokratik idi. Seçki prosesində müasir texniki avadanlıqlardan istifadə edildiyi də diqqətimizdən yayınmadı. Bu, təhlükəsizlik, eləcə də şəffaflıq baxımından müsbət hadisədir. Müşahidə prosesi göstərdi ki, hökumət bu mühüm siyasi tədbirin təşkilinə hərtərəfli hazırlaşıb.

**İlyas Umaxanov,**

*Rusiya Federasiyası Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini:*



- Azərbaycanda bundan əvvəl keçirilən seçki kampaniyalarını da müşahidə etmişəm. Tam məsuliyyətimlə bəyan edə bilərəm ki, hər növbəti seçki kampaniyası həm mövcud seçki qanunvericiliyi, həm də seçkilərin təşkili təcrübəsi baxımından getdikcə təkmilləşir və əvvəlkindən daha yaxşı olur. Azərbaycan vətəndaşları seçkilərdə dövlətin suverenliyinin, müstəqilliyin möhkəmlənməsinə və ölkənin çiçəklənməsinə səs verirlər. Azərbaycanda prezident seçkilərinin təşkili Avropa standartlarını üstələyir.

**Adel bin Əbdulrəhman əl-Asumi,**

*Ərəb parlamentinin prezidenti:*



- Prezident seçkilərində qazandığı böyük uğura görə Azərbaycan xalqını təbrik edirəm. Müşahidə apardığımız seçki məntəqələrinin hamısında çox yüksək fəallığın şahidi olduq. Seçicilərin iradəsinə hər hansı bir müdaxiləyə qətiyyən rast gəlmədik. Hər bir seçici öz iradəsi ilə istədiyi namizədə səs verə bilirdi. Seçki prosesi xüsusi aktivliklə davam edirdi. Məntəqələrdə həm yerli, həm də beynəlxalq müşahidəçilər var idi. Ərəb parlamenti olaraq biz seçkilərin tam şəffaf keçirilməsini alqışlayırıq. Seçki gedişatının pozulması ilə bağlı heç bir halın qeydə alınmaması təqdirəlayiqdir.

**Sergey Voronin,**

*rusiyalı siyasətçi:*



- Fevralın 7-də Bakıda hava çox gözəl idi. Sanki hava şəraiti belə seçki prosesinə öz töhfəsini verirdi. İlk dəfə deyil ki, Azərbaycanda seçki prosesini müşahidə edirəm. Ötən illərdə olduğu kimi, bu il də seçki çox şəffaf və demokratik şəkildə həyata keçirildi. Seçicilərin axınından hiss olunurdu ki, onlar seçkiyə çox məsuliyyətlə yanaşırlar.

**Mosine Sos,**

*Kamboca parlamentinin deputatı:*



- Seçki prosesində heç bir pozuntu aşkarlanmayıb, siyasi partiyalara diskriminasiya tətbiq edilməyib. Bizim nümayəndə heyətində olan müşahidəçilər səsvermə günü məntəqələr açılandan səsvermə bitənədək bütün proseslərdə iştirak ediblər. Onlar seçki məntəqələrində seçicilərlə ünsiyyətdə olub, namizədlərin tərəfdarları ilə görüşlərini müşahidə ediblər. Bütün məntəqələrdə seçicilər üçün lazımi şərait yaradılıb, onların təhlükəsizliyinin təmin olunması üçün bütün addımlar atılıb. Eynilə müşahidəçilər üçün hər cür şərait yaradılmışdı. Səslərin sayılması da çox effektiv aparıldı, prosesdə bütün müşahidəçilər və siyasi partiyaların iştirakına imkan yaradıldı. Azərbaycan xalqını prezident seçkilərinin şəffaf və azad keçirilməsi münasibətilə təbrik edirəm. Bütün partiyalara seçkidə bərabər iştirak hüququnun yaradılması təqdirəlayiqdir. Bu, ölkədə demokratik mühitin yüksək səviyyədə olduğunu sübuta yetirir.

**Musafəndi Vəlimuradov,**

*Dağıstan Respublikası parlamentinin nümayəndəsi:*



- Məntəqələrdə bütün siyasi partiyalardan müşahidəçilər, namizədliyi irəli sürülmüş şəxslərin nümayəndələri var idi. Heç bir pozuntu müşahidə edilmədi. Prosesə ciddi nəzarət var idi, bütün proses şəffaf təşkil edilmişdi.

**Qriqori Karasin,**

*Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin sədri:*



- Məntəqələrə axın edən seçicilərdə nikbin ovqat gözə dəyirdi. Onların gözlərində gələcəyə inam, ümid işığı var idi. İnsanlar səs vermək üçün öz növbəsini təmkinlə gözləyirdilər və onların üzlərində yaranan təbəssüm çox xoş idi. Vətəndaşlar öz seçimlərini tərəqqinin, hamı üçün müsbət nəticələr verəcək müasir, suveren Azərbaycanın xeyrinə etmək istəyirdilər. Elə bu baxımdan Azərbaycanda keçirilən bu seçkilər Rusiya üçün nümunə ola bilər. Nəzərə almaq lazımdır ki, Rusiya da martda prezident seçkilərinə hazırlaşır. Biz müşahidəçilər Bakıda özümüzə müəyyən təcrübə qazandıq. Bu seçkilər məsuliyyətli şəkildə və səlahiyyətli çərçivədə təşkil olunmuşdu. Bütün beynəlxalq müşahidəçilərə rahat müşahidə aparmaları üçün lazımi şərait yaradılmışdı.

**Cemal Smajik,**

*Bosniya və Herseqovina parlamentinin nümayəndə heyətinin üzvü:*



- Fevralın 7-də seçkilər insidentsiz, ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun keçirildi. İnsanlarda müşahidə edilən ruh yüksəkliyi, həmçinin onların çox rahat şəkildə məntəqələrə üz tutaraq istədikləri namizədlərə səs vermələri prosesin ədalətli gedişindən xəbər verirdi. İnanırıq ki, Azərbaycan bu seçimi ilə öz keçmişini qoruyub saxlamaqla yanaşı, parlaq gələcəyini də qura biləcək.

**Nelson Trad Filxo,**

*Braziliya parlamentinin müşahidə missiyasının nümayəndəsi:*



- Biz olduğumuz məntəqələrdə müşahidə zamanı seçicilərin çoxunun qadın olduğunu gördük. Bu, çox müsbət haldır. Çünki qadınların seçki prosesində iştirakı çox vacib məsələdir. Bununla yanaşı, gənclərin iştirakı da önəmlidir. Fikrimcə, Azərbaycanda seçkilərin şəffaf keçirilməsi ölkənin gələcəyi üçün də vacib məqamdır.

**Sanya Praseut,**

*Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) Parlament Assambleyasının (AİPA) müşahidə missiyasının rəhbəri:*



- Bizim missiya baş çəkdiyimiz məntəqələrdə səsvermə prosesini sonadək izləyib və səslərin sayılmasında iştirak etmək idi. Missiyamızın qənaəti bundan ibarətdir ki, seçkilər tam şəffaf və demokratik şəkildə başa çatıb, heç bir təzyiq hadisəsi qeydə alınmayıb. Vətəndaşlar səsvermə prosesində sakit və rahat şəkildə iştirak ediblər. Bu sabit şərait eyni zamanda həm yerli, həm də beynəlxalq müşahidəçilərin seçki prosesini sərbəst izləyə bilməsi üçün əlverişli olub.

**Qayser Nəvvab,**

*Beynəlxalq Münasibətlər və Dayanıqlı İnkişaf Məqsədləri üzrə ekspert, pakistanlı müşahidəçi:*



- Biz bütün məntəqələrdə seçicilərin yüksək fəallığının şahidi olduq. Görünür, Azərbaycanın Mərkəzi Seçki Komissiyası azad, ədalətli və şəffaf səsvermənin keçirilməsini təmin etmək məqsədi ilə mühüm tədbirlər həyata keçirib. Səsvermə hüququ olan əksər Azərbaycan vətəndaşları da seçki günü səhər 8-dən axşam 7-yə kimi demokratik hüquqlarından faydalanıblar. Gənclər də daxil olmaqla, xeyli sayda insan ölkənin demokratik ruhunu əks etdirən seçki prosesində fəal iştirak edib. Müşahidələrimdə diqqətçəkən məqamlardan biri də o idi, insanlar seçkilərə adətən ailəvi gəlirdilər. Valideynlər azyaşlı uşaqları ilə birlikdə seçki məntəqələrinə həvəslə yaxınlaşıb öz namizədlərini dəstəkləyirdilər. Bu fakt erkən yaşlarda demokratiya haqqında məlumatlılığı aşılamaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu, gələcək nəsillərdə demokratik dəyərlərin təşviqinə sadiqliyi nümayiş etdirir. Ümumiyyətlə, prezident seçkiləri çox əlamətdar hadisələrdəndir. Çünki o zaman ölkənin gələcək inkişafı müəyyən edilir.

**Valeri Belski,**

*Belarus parlamenti Respublika Şurasının sədr müavini:*



- Seçkilərin şəffaf keçdiyini müşahidə etdim. Azərbaycan xalqı prosesə xoş məramla, bayram əhvali-ruhiyyəsi ilə qoşulmuşdu.

**Tami Ovazzani Tuhami,**

*Mərakeş parlamentinin Nümayəndələr Palatasının deputatı:*

- Seçkilərin müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq erməni işğalından azad edilmiş ərazilərdə də keçirilməsi tarixi hadisədir. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirəm. Müşahidələrimə gəlincə isə, hər şey şəffaf və seçici fəallığı yüksək səviyyədə idi. Bu, Azərbaycanda MSK-nın böyük potensialından və bacarığından xəbər verir. Seçkilərdə seçicilər iradələrini sərbəst ifadə edərək istədikləri namizədə səs verə bilirdilər. Səsvermə demokratik prosedurlara və beynəlxalq meyarlara uyğun şəkildə həyata keçirildi. Açıq-aydın ortadadır ki, MSK seçki prosesinə ciddi yanaşıb və hər şeyi layiqincə həyata keçirib. Ümumiyyətlə, müşahidə apardığımız məntəqələrdə səsvermənin gedişinə təsir edə biləcək hər hansı pozuntu ilə rastlaşmadıq. Seçkilərin bu cür yüksək səviyyədə, gözəl sonluqla başa çatması münasibətilə də Azərbaycan xalqını xüsusi təbrik edirik. Həqiqətən də, Azərbaycanda keçirilən seçkilərdən öyrənəcəyimiz çox şey var idi. Xalqın seçdiyi Prezidentə uğurlar, Azərbaycan xalqına rifah, əmin-amanlıq və böyük inkişaf arzu edirik.

**İsgəndər Matraimov,**

*Qırğızıstan parlamentinin deputatı:*



- Azərbaycanda prezident seçkiləri bütün ərazilərdə hüquq və azadlıqlara hörmətlə yanaşıb, hamı tərəfindən qəbul edilmiş demokratik prinsiplərə uyğun keçirilib. Əhalinin bütün təbəqələri nəzərə alınıb. Səhhətinə görə seçki məntəqəsinə gələ bilməyənlər üçün daşınan qutular hazırlanıb. Bütün Azərbaycan xalqını seçkilər münasibətilə təbrik edirəm. Ölkənizə sülh və firavanlıq arzulayıram. Onu da xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycanın seçki qanunvericiliyi demokratik seçkilərin keçirilməsi üçün bütün lazımi şəraiti təmin edir.

**Cabbar Al-Çnani,**

*İraq parlamentinin nümayəndə heyətinin rəhbəri:*



- Bizim nümayəndə heyəti 7 seçki məntəqəsində müşahidə aparıb. Müşahidələrimizə görə, seçicilər rahat şəkildə səsvermə prosesində iştirak edib, istədikləri namizədə səs veriblər. Seçki prosesi beynəlxalq standartlara uyğun təşkil olunub və inkişaf etmiş ölkələrdə olduğundan heç də fərqlənməyib. Azərbaycan xalqına uğurlar arzu edir, həmçinin Azərbaycanla İraq arasındakı əlaqələrin hər zaman yüksələn xətlə inkişaf etməsini diləyirik.

**Abdelrahim Faleh Obeidallah Al-Maya,**

*İordaniya Nümayəndələr Palatası sədrinin müavini:*



- Azərbaycanda prezident seçkiləri demokratik şəraitdə və şəffaf keçirilib. Seçkilər xalqın azad iradəsi ilə başa çatıb. Biz, İordaniya parlamentinin üzvləri olaraq seçkinin demokratiya şəraitində aparıldığını təsdiq edirik. İordaniya rəhbərliyi adından Azərbaycan dövlətinə bizi müşahidəçi qismində qəbul etdiklərinə görə təşəkkürümüzü bildiririk.

**Valeri Kolyux,**

*Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri:*



- Fevralın 7-də keçirilən prezident seçkilərinin özəlliyi ondan ibarət idi ki, ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində, o cümlədən işğaldan azad edilmiş rayonlarda da səsvermə keçirilirdi. Məntəqələrdə seçici fəallığının yüksək olması da müəyyən qədər bununla izah olunur. Ümumiyyətlə, ölkənin işğaldan azad olunmuş ərazilərində seçkilərin keçirilməsi bizim üçün unikal təcrübədir. Ümid edirik ki, Azərbaycan xalqı qədəm qoyduğu yeni mərhələdə də daim uğurlara imza atacaq.

**Odiljon İminov,**

*Özbəkistan Senatının komitə sədri:*



- Seçki prosesini müşahidə etmək bizim üçün faydalı idi. Xüsusilə Şuşada və Xankəndidə yerləşən məntəqələrdə seçki prosesini izləməkdən məmnun qaldıq. Həmin məntəqələrdə seçki prosesi vaxtında başlamışdı və qutular möhürlənmişdi. Məntəqələr həmçinin veb-kamera ilə təchiz edilmişdi. Seçkiləri işıqlandırmaq üçün media nümayəndələrinə də şərait yaradılmışdı. Seçki prosesi açıq və şəffaf şəkildə keçirildi. Məntəqələrdə ilk dəfə səs verməyə gələn gəncləri görmək xüsusilə xoş idi. Onlar öz gələcəklərinə səs verirdilər. Müşahidələrimiz zamanı seçki qanunvericiliyinə zidd hər hansısa hal aşkarlamadıq.

**Aleksey Çepa,**

*Rusiya Dövlət Dumasının deputatı:*



- Azərbaycanda keçirilən seçkilər təşkilatçılıq və seçicilərin ovqatı baxımından müsbət qymətləndirilir. Xüsusilə gənclərin səsvermədə fəal iştirakı gözdən yayınmadı. Bu seçkilər müxtəlif ölkə və qitələrdə keçirilən bir çox seçkidən fərqlənirdi. İlk növbədə təşkilatçılıq, nizam-intizam və seçicilərin əhvali-ruhiyyəsi yüksək səviyyədə idi. Misal üçün, hazırda əksər ölkələrdə gənclər seçkiyə getməyə o qədər də hazır və həvəsli deyillər. Azərbaycanda isə ünsiyyətdə olduğum seçicilərin fikirlərindən də aydın olurdu ki, gənclər yaşadıqları ölkənin gələcəyinə səs verməyə hər zaman hazırdırlar.

**İsmayıl Özdəmir,**

*Türkiyə parlamentinin nümayəndə heyətinin üzvü:*



- Avropa İttifaqı daxil olmaqla Azərbaycan demokratiyasına dil uzadan bəzi təşkilatlar fikir bildirmədən əvvəl dönüb özlərinə baxsınlar. Avropa, dünyanın sülh və sabitliyi Azərbaycanın sülh və sabitliyindən keçir. Onlar Azərbaycan xalqının iradəsini təqdir etmək məcburiyyətindədirlər. Fevralın 7-də tamamilə şəffaf və demokratik keçirilən seçkilər də bunu təsdiq edir. Azərbaycan ictimaiyyətini bu münasibətlə təbrik edirəm. Prezident İlham Əliyevin necə doğru iş gördüyünü bu seçkilərin nəticəsi də sübut etdi.

**Tınçtık Şaynazarov,**

*Qırğızıstan Mərkəzi Seçki Komissiyasının sədr müavini:*



- Azərbaycanda keçirilən prezident seçkilərinin müşahidəsi zamanı heç bir qanun pozuntusu qeydə alınmayıb. Müşahidələrimiz zamanı seçki prosesi ilə bağlı şikayətlə qarşılaşmamışıq. İstənilən ölkə Azərbaycanın seçiminə hörmət etməlidir.

**Karlos Viana,**

*Braziliya parlamentinin nümayəndəsi:*



- Azərbaycan və Braziliya demokratiyası və bizim qarşımızda duran vəzifələr çox oxşardır. Misal üçün, Azərbaycanda qadınların seçki prosesinə cəlb edilməsi çox önəmli imiş, eynilə Braziliyada da vəziyyət belədir. Bununla yanaşı, gənclərin də seçki prosesinə cəlb edilməsi Azərbaycan üçün vacib şərtlərdəndir. Fikrimcə, ölkəniz bunun öhdəsindən gəlib və gəncləri səsverməyə cəlb edə bilib. Ümumiyyətlə, prezident seçkiləri çox şəffaf şəkildə həyata keçirildi və seçici fəallığı müşahidə edilirdi.

**Faysal Salim Rəhman,**

*Pakistan parlamentinin deputatı*



- Səsvermə məntəqələrində KİV nümayəndələrinin olmasını, prosesin şəffaf işıqlandırılmasını təqdir edirəm. Seçkidə gənc nəslin fəal iştirakını da xüsusi vurğulamaq istəyirəm. Mən bunu yüksək qiymətləndirirəm. Bu, gənclərin vətənpərvərliyi və ölkənin gələcəyinə töhfə vermək istəyi ilə bağlıdır. Mən Azərbaycan Prezidentini qalibiyyəti münasibətilə təbrik edirəm.

**Afif Demirkan,**

*Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) müşahidə missiyasının rəhbəri:*

- Ötən gün keçirilən seçkilərlə bağlı Azərbaycan xalqını təbrik edirəm. İCAPP nümayəndə heyəti kimi seçki prosesini başdan sona qədər müşahidə etdik. Şahid olduq ki, seçki məntəqələri qrafikdə olduğu kimi 08:00-da seçiciləri qəbul etməyə başladı. Eyni zamanda səsvermə qutuları lazımi şəkildə möhürlənmişdi. Gün ərzində 7 seçki məntəqəsində olduq. Həmin məntəqələrdə seçkilər sərbəst, ədalətli və şəffaf keçirildi. Hər hansı təhdid və ya məhdudlaşdırmanın şahidi olmadıq. Seçki komissiyası üzvləri işlərini məsuliyyətli şəkildə həyata keçirirdilər. Səsvermə prosesi bitdikdən sonra səslərin sayılması prosesini də müşahidə etdik. Seçkilərin nəticəsinə mənfi münasibət gətirəcək hər hansı bir şikayətlə qarşılaşmadıq. Bu seçkilər bayram əhvali-ruhiyyəsində başa çatdı.

**Alberto Villa Villeqas,**

*Meksika parlament heyətinin rəhbəri:*



- Meksika parlamentinin nümayəndələri ötən gün 10 seçki məntəqəsində müşahidə apardılar. Şahidi olublar ki, seçki prosesi tamamilə şəffaf formada keçirilir. Onu da qeyd edim ki, Azərbaycan və Meksikada seçki prosesləri çox oxşardır.

**Vitali Jakot,**

*Moldova parlamentinin nümayəndə heyətinin rəhbəri:*



- Seçki prosesini izləmək üçün Şuşa və Xankəndidə oldum. Proses şəffaf şəkildə aparılırdı. Təəssüratlarım çox xoşdur. Hələ səhər saatlarından etibarən məntəqələrdə aktivlik müşahidə edilirdi. Seçki komissiyasının üzvləri ilə söhbət apardım. 30 il sonra öz evlərinə qayıdan insanların üzündə çox böyük optimizm və ümid müşahidə etdim. İki il əvvəl parlamentlərarası dostluq qrupunu təmsil edərək Şuşaya səfər etmişdim. İndi yenidən Şuşada və Xankəndidə səfərdə olarkən anladım ki, Azərbaycan haqq yolundadır. Moldova da beynəlxalq hüququn müəyyən etdiyi çərçivədə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan bizim üçün strateji partnyor kimi çox əhəmiyyət daşıyır. Bizi birləşdirən cəhətlər çoxdur. Moldova bundan sonra da Azərbaycanla həmrəyliyi davam etdirəcək.

**Naike Qruppioni,**

*İtaliya parlamentinin nümayəndəsi:*



- Azərbaycan xalqının prezident seçkilərində səsvermədə fəal iştirakından təsirləndim. İtaliyaya qayıdandan sonra Azərbaycanda əldə etdiyim təcrübəni orada tətbiq etmək üçün səy göstərəcəyəm. Seçki prosesinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığımı bildirirəm. Doğrudan da, Azərbaycan xalqının səsvermədə coşqu və ruh yüksəkliyi ilə iştirakı məni heyran qoydu. Vətəndaşların səhərdən günün ikinci yarısına qədər davam edən fəallığı alqışlanası idi. İstərdim ki, dünyanın digər ölkələrində də seçicilər Azərbaycanda olduğu kimi belə fəallıq nümayiş etdirsinlər.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# "Qardaşın seçimi İlham Əliyevdir"

## Türkiyə mediası prezident seçkilərini ölkəmizin gələcək inkişafı yolunda uğurlu addım kimi qiymətləndirir

**Azərbaycanda baş tutan prezident seçkilərinə dünya miqyasında da böyük diqqət və maraq müşahidə edilməkdə, proses ən müxtəlif aspektlərdən çoxsaylı xarici media orqanı tərəfindən işıqlandırılmaqdadır. Mətbuatda ümumi yanaşma ondan ibarətdir ki, seçki prosesi aşkarlığın və şəffaflığın təmin olunması ilə demokratik prinsiplərə tam riayət olunması şəraitində baş tutub. Eyni zamanda ona da diqqət yetirilir ki, bu seçkilər ölkənin gələcək inkişafı yolunda daha bir mühüm və uğurlu addım kimi qiymətləndirilməlidir.**

Bu xüsusda qardaş Türkiyənin kütləvi informasiya vasitələri ölkəmizdə keçirilmiş prezident seçkilərini diqqət mərkəzində saxlayıb. Qonşu ölkənin qəzetləri və informasiya agentlikləri seçkilər haqqında operativ xəbərlər verib, telekanallar bu mühüm siyasi kampaniyadan reportajlar hazırlayıb tamaşaçılara təqdim ediblər.

Türkiyənin ən çox oxunan "Hürriyet" qəzeti "Böyük Zəfərdən seçki zəfərinə" başlıqlı xəbəri manşetə çıxarıb. Qeyd edilir ki, səsvermənin ilkin nəticələrinə əsasən, İlham Əliyev 92 faizdən yuxarı səs toplayaraq növbəti dəfə Azərbaycan Prezidenti seçilib. Bildirilir ki, 7 namizədin iştirak etdiyi seçkilərdə səsvermə yerli vaxtla saat 19:00-da başa çatıb. Əlavə edilib ki, 4 il öncə tarixi Zəfərə imza ataraq torpaqlarını işğaldan azad edən Azərbaycan Ali Baş Komandanına yenidən etimad göstərib.

Qardaş ölkənin çox oxunan qəzetlərindən olan "Türkiye" ölkəmizdə keçirilən prezident seçkilərinə geniş yer ayırıb. Qəzet "Azərbaycan yenə Əliyev dedi" adlı xəbərdə yazır ki, Azərbaycan xalqı 5-ci dəfə Prezident İlham Əliyevə etimad göstərib: "90 faizdən çox səs toplayan İlham Əliyev seçkilərin qalibi olub".

"Akşam" qəzeti "Qarabağda 30 illik fasilədən sonra ilk səsvermə" başlıqlı xəbərində Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səsvermədə iştirak etdiklərini oxucularının diqqətinə çatdırıb. Əlavə edilib ki, Azərbaycan xalqı müstəqillik tarixində ilk dəfə olaraq qalib xalqın qalib vətəndaşı kimi prezident seçkilərində iştirak edib.

"Diriliş Postası" qəzeti də "Qardaşın seçimi İlham Əliyevdir" başlıqlı xəbəri oxucularına son dəqiqə xəbəri olaraq çatdırıb. Qeyd olunub ki, seçkilərdə 4 təşkilat tərəfindən keçirilən "exit-poll"ların nəticələri ilə Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən açıqlanan ilkin nəticələr üst-üstə düşdü. İlham Əliyev 90 faizdən çox səs toplayıb: "Bu isə o deməkdir ki, Azərbaycan xalqı növbəti dəfə İlham Əliyevi Prezident seçib. "Exit-poll"ların nəticələri həmişə MSK-nın nəticələri ilə demək olar ki, eyni olur".

Türkiyənin radikal müxalif nəşri sayılan "Sözcü" qəzeti də Azərbaycada prezident seçkilərinə geniş yer ayırıb. Qeyd olunub ki, İlham Əliyev artıq 5-ci dəfədir ki, seçkilərdə qalib gəlib: "Azərbaycan Lideri 30 illik torpaq həsrətinə son qoyaraq 2020-ci ildə Qarabağı işğaldan azad etdi. Əliyevin seçkidə qalib gəldiyi elan edildikdən sonra insanlar qələbəni qeyd etmək üçün küçələrə axışıblar. Dənizkənarı Milli Parkda, Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda İlham Əliyevin qələbəsini musiqi və rəqslərlə qeyd ediblər".

"Yeni Şafak" qəzeti də "Qarabağda 30 illik fasilədən sonra seçkilər keçirildi" başlıqlı xəbəri manşetə çıxarıb. Bildirilib ki, Azərbaycan xalqı müstəqillik həyatında ilk dəfə olaraq bu seçkilərə ərazi bütövlüyünün tam bərpası fonunda getdi. Bu seçkilərin işğaldan azad edilmiş yurdlarda keçirilməsi isə bir ayrı milli qürurdur. Məhz bu səbəbdən də xalq budəfəki seçkini Zəfər seçkiləri adlandırıb.

"Yeni Birlik" qəzeti isə "İlham Əliyevdən böyük fərq" başlıqlı xəbərə yer ayırıb. Bildirilib ki, ilkin nəticələrə görə 90 faizdən çox səs toplayan İlham Əliyev Azərbaycanda növbəti dəfə Prezident seçilib. O da vurğulanıb ki, seçici fəallığının nümayiş edildiyi seçkilər Azərbaycan xalqının demokratik iradəsini tam əks etdirdi.

Qəzetlərdən "Milliyet"in "Azərbaycanda zəfər Əliyevin", "Sabah"ın "Zəfəriniz xeyirli olsun", "Yeni Mesaj"ın "İşğaldan qurtulan bölgədə seçim həyəcanı", "Yeni Akit"in "Əliyev rekord səslə yenə seçildi", "Burdur Yenigün"ün "Yenə yenidən", "Aydın Denge" və "Gerçek Gündem"in "Seçkiləri İlham Əliyev 92 faizlə qazandı" başlıqlı xəbərlərində seçkilərin tam demokratik, ədalətli və şəffaf keçirildiyi vurğulanıb.

Türkiyənin məşhur televiziya kanalları "Haber Global" "Qalib xalqın, qalib Lideri", "NTV" "Azərbaycan xalqı bir daha Əliyev dedi", "TRT Haber" "Ərdoğandan Əliyevə seçki təbriki", "TGRT Haber" "Qardaş yenə Əliyev dedi" və s. kimi başlıqları təqdim etməklə ölkəmizdə seçkilərin dinc və sabit şəraitdə keçdiyini, heç bir pozuntu və yayınma hallarının müşahidə edilmədiyini diqqətə çatdırıblar.

"Anadolu", "Sondakika.com" və digər agentliklər isə dərc etdikləri xəbərlərdə Azərbaycanda növbəti prezident seçkilərinin keçirildiyini qeyd ediblər. Bildirilib ki, ölkə vətəndaşları müstəqillik dövrünün 9-cu prezident seçkisində liderini - İlham Əliyevi seçib.

Bütün bunlar onu deməyə əsas verir ki, hər iki dövlət istər regionda, istər dünyada, istərsə də öz daxillərində cərəyan edən hadisələrə kifayət qədər həssaslıqla yanaşır. Bu mənada Azərbaycanın qarşıdakı dövr üçün ictimai-siyasi həyatında mühüm rol oynayan prezident seçkilərinin Türkiyənin xüsusi diqqətdə saxlaması tamamilə təbiidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


































































# Naxçıvan Muxtar Respublikası -100

# 100 illik şanlı tarix

## Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyevin timsalında Heydər Əliyev siyasi kursuna sədaqətini, məhəbbətini və etimadını növbəti dəfə göstərdi



**Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100-cü ili tamam olur. Prezident İlham Əliyevin imzaladığı 30 dekabr 2023-cü il tarixli müvafiq sərəncamla muxtar respublikanın 100 illik yubileyi geniş qeyd olunur. Qədim yurdumuzun birəsrlik muxtariyyət yubileyini fevral ayının 7-də keçirilən prezident seçkilərində xalqımızın cənab İlham Əliyevə növbəti dəfə göstərdiyi yüksək etimadın yaratdığı yüksək əhvali-ruhiyyə fonunda qarşılayırıq.**

### 20 ilin möhtəşəm uğurlarına söykənən ümumxalq qərarı

2 gün əvvəl keçirilmiş səsvermənin nəticələri xalqımızın milli maraq və mənafelərini layiqincə təmin edən, Azərbaycanı davamlı və sürətli inkişaf yoluna çıxaran hazırkı siyasi kursun alternativsizliyini bir daha sübuta yetirdi. Prezident seçkisi xalqımızın müdrik və dəyişməz seçiminə əsaslandı. Ölkə vətəndaşları növbəti dəfə Ulu Öndər Heydər Əliyev siyasi kursuna, bu kursun layiqli davamçısı kimi ötən 20 ildə Azərbaycanın bütün uğurlarının memarı olan möhtərəm İlham Əliyevə səs verdilər.

Ümumiyyətlə, ötən 20 ildən artıq dövrün reallıqları xalqımızın seçkilərdə İlham Əliyevə etimadının nə qədər düzgün və müdrik qərar olduğunu təsdiq edir. Bu illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın yüksəlişi, güclənməsi, qlobal səviyyədə nüfuzunu artırması, dövlətçiliyinin ən qüdrətli mərhələsinə qədəm qoyması tariximizin isbata ehtiyacı olmayan həqiqətləridir. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf siyasətini, strateji xətti layiqincə davam etdirən, onu zamanın çağırışlarından irəli gələrək daha da zənginləşdirən və həm də özü böyük bir siyasət məktəbinin banisinə çevrilən Prezident İlham Əliyev bu illərdə Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirib, dövlətimizin yüksəlişi yolunda meydana çıxan bütün əngəlləri və maneələri qətiyyətlə aradan qaldırıb. İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı sürətli inkişaf yoluna çıxarmaqla bərabər, onun beynəlxalq mövqelərini də əhəmiyyətli dərəcədə gücləndirib. Artıq uzun müddətdir ki, regionun lideri olan Azərbaycan qlobal məsələlərdə söz və nüfuz sahibidir.

Bu mənada fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində cəmiyyətin seçimi Heydər Əliyev siyasətinin alternativsizliyinə və ötən 20 ilin yekunlarına əsaslanan ümumxalq qərarıdır. Bu dövrdə Prezident İlham Əliyevin nəinki müasir müstəqillik, bütövlükdə dövlətçilik tariximizdə yaratdığı ən böyük salnamə torpaqlarımızın işğaldan azad edilməsi oldu. Məlumdur ki, torpaqlarımızın azadlığı və erməni separatizminə son qoyulması yeni reallıqlar yaradıb. Növbədənkənar prezident seçkiləri də bu reallıqlar şəraitində keçirildi. Müstəqilliyimizin bərpasından sonra ilk dəfə olaraq seçkilər torpaqlarımızın tam azadlığı şəraitində baş tutdu. Ona görə bu seçki Zəfər seçkisi və ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi tarixə düşdü.

Vətən müharibəsində Zəfərdən və Qarabağda erməni separatçılığına son qoyulmasından sonra Azərbaycan öz tarixinin tamamilə yeni mərhələsinə qədəm qoyub. Ölkəmizin əsas ağrılı problemi həll edildiyindən artıq yeni hədəflər meydana çıxıb və Prezident İlham Əliyevin bir müddət əvvəl elan etdiyi milli prioritetlərdə qarşıya qoyulmuş yeni vəzifələr öz əksini tapıb. Bu mənada Azərbaycan yeni mərhələyə Prezident seçkiləri ilə qədəm qoyur.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyini həm Azərbaycanın ərazi bütövlüyünün təmin olunduğu, həm də respublikamızın öz inkişafının yeni mərhələsinə qədəm qoyduğu bir şəraitdə qarşılayırıq. Qürur hissi ilə deyə bilərik ki, Azərbaycanın ərazi bütövlüyü və ölkəmizdə erməni separatizminə son qoyulması Naxçıvanın 100 illiyinə cənab Prezidentimizin, Müzəffər Ali Baş Komandanımızın ən böyük hədiyyələridir.

### Dövlətçilik tariximizdə, milli, mədəni və ədəbi proseslərdə xüsusi yeri olan diyar

Zəngin keçmişə, ənənələrə, mənəvi və mədəni dəyərlərə malik olan xalqımız keşməkeşli olduğu qədər də parlaq və şərəfli inkişaf tarixinə malikdir. Bu yolda hər bir yurd yerimiz kimi Naxçıvanın da özünün xüsusi yeri var. Bu diyar Azərbaycanın siyasi sosial-iqtisadi, elmi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynamışdır.

Naxçıvan Azərbaycanın dövlətçilik tarixidir. Əcdadlarımız min illər boyu burada ardıcıl həyat sürmüş, böyük dövlətçilik ənənələrinin əsasını qoymuşlar. XII əsrdə Naxçıvan Azərbaycan Atabəyləri- Eldəgizlər dövlətinin, o əsrdə Azərbaycanın ən böyük, ən qüdrətli dövlətinin paytaxtı olub. Atabəylər 100 ildən artıq hökm sürmüş və onun paytaxtı azərbaycançılığı qoruyub saxlamışdır. XVIII-XIX əsrlərdə isə Naxçıvan xanlığı mövcud olmuşdur.

Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına da dəyərli töhfələr vermişdir. Naxçıvan ərazisi antik və orta əsrlər dövrünə aid türk-islam mədəniyyəti nümunələri və tarixi abidələrlə - qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir. Bu günədək qorunub saxlanılan arxeoloji abidələr, qədim karvansaralar, məscid və məbədlər, həmçinin mədəni irsimizin inciləri sırasına daxil olan Nuh Peyğəmbər, Qarabağlar türbələri, "Əshabi-Kəhf" ziyarətgahı, Əlincəçay Xanəgahı öz möhtəşəmliyi ilə seçilməklə, hər biri özündə tariximizi, milli və mənəvi dəyərlərimizi yaşadır. Azərbaycan xalqının əsası Naxçıvanda Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi bütün Şərqdə məşhur olmuşdur və Möminəxatun türbəsi kimi nümunələri müasir dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, muxtar respublika ərazisində 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılmışdır.

Naxçıvan böyük şəxsiyyətlərin, Azərbaycan ədəbi-fəlsəfi fikrində və elmində xüsusi yeri olan mütəffəkkirlərin, filosofların, ustad qələm sahiblərinin vətənidir. Naxçıvan xalqımıza Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Məmməd Araz, Yusif Məmmədəliyev kimi şəxsiyyətləri bəxş edib.

Xüsusilə qeyd etməliyik ki, Naxçıvan Azərbaycanın müasir inkişaf və dövlətçilik epoxasının müəllifi, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vətənidir. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü müasir dövlətçilik tariximizin parlaq səhifəsidir.

Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamında da buna diqqət çəkilərək deyilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, islam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlərboyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".

1920-ci ildə Azərbaycanın müstəqilliyinin itirilməsindən və sovet hakimiyyətinin Zəngəzuru Ermənistana verməsindən sonra Naxçıvan üçün də böyük təhlükə yaranmışdı. Zəngəzurla kifayətlənməyən ermənilər Naxçıvanın da Ermənistana birləşdirilməsi üçün cəhdlər etmişdilər. Lakin Ermənistan niyyətinə çatmamışdır. Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu almasında Türkiyənin də böyük rolu olmuşdu. 1921-ci il martın 16-da bağlanmış Moskva və 1921-ci il oktyabrın 13-də bağlanmış Qars müqavilələri Naxçıvanın taleyinin həll edilməsində böyük əhəmiyyətə malik olmuşdur. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.

1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər Qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz və tərkib hissəsi olduğunu təsdiq etdi. 1923-cü il dekabrın 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan muxtar diyarının Azərbaycanın tərkibində muxtar respublikaya çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya Mərkəzi İnqilab Komitəsindən xahiş etdi. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi 1924-cü il yanvarın 8-də bu qərarı təsdiq etdi.

1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikasının yaranması ilə Ermənistanın bu qədim Azərbaycan torpağı haqqındakı iddialarının qarşısına dəmir sədd çəkildi. Bu hadisə erməni yalanlarının və iddialarının sürətlə ayaq tutub yeridiyi gərgin və mürəkkəb siyasi şəraitdə xalqımızın nail olduğu mühüm tarixi-siyasi uğur idi.

### Heydər Əliyevin milli mücadiləsinin Naxçıvan mərhələsi

Naxçıvan Muxtar Respublikası yarandıqda onun sahəsi Naxçıvanın tarixi ərazisinin yalnız 5.988 kv.km-ni əhatə edirdi. 1929-1930-cu illərdə və bundan sonra, sovet dövləti 1921-ci il Moskva və Qars müqavilələrinin qərarlarına zidd olaraq Naxçıvana qarşı ermənilərin yeni ərazi iddialarını həyata keçirdi və nəticədə muxtar respublikanın ərazisi daha da azaldıldı.

Bununla belə qeyd edilməlidir ki, sovet illərində Naxçıvanda əhalinin savadsızlığının aradan qaldırılmasında, məşğulluğun yüksəldilməsində, iqtisadi potensialdan istifadədə nəzərəçarpan irəliləyişlər baş vermişdi. Lakin sovet illərində Naxçıvanın ən sürətli inkişaf dövrü xalqımızın Ulu Öndəri Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Azərbaycanın o illərdə keçmiş ittifaq miqyasında sonuncu yerlərdən qabaqcıllar sırasına yüksəlməsində Naxçıvanda əldə edilən iqtisadi və aqrar uğurlar mühüm rol oynamışdı. Bütövlükdə 1970-1980-ci illərin əvvəllərində Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında böyük dirçəliş baş vermişdi. Həmin dövrdə SSRİ və Azərbaycan SSR konstitusiyalarına uyğun olaraq, Naxçıvan MSSR-in də yeni Konstitusiyası qəbul edilmişdi. Xüsusilə qeyd etməliyik ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə ermənilərin Azərbaycandan, o cümlədən Naxçıvan Muxtar Respublikasından yeni ərazilər qoparmaq planları baş tutmamışdı.

Xalqımızın Ulu Öndəri Heydər Əliyevin Azərbaycanın Naxçıvan Muxtar Respublikası qarşısındakı tarixi xidmətlərinin növbəti əsas dövrü 1990-cı ildən sonra başlayır. Bu, həmin dövr idi ki, Azərbaycanda milli azadlıq mücadiləsi başlamışdı, amma bu proses məhz Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlişindən sonra daha mütəşəkkil forma almışdı. Öncə onu qeyd edim ki, M.Qorbaçovun yürütdüyü siyasətə etiraz edərək bütün vəzifələrindən istefa verən Heydər Əliyev bundan sonra da öz xalqının yanında olmuş, öz fəaliyyəti ilə yeni yaranmaqda olan müstəqillik hərəkatının daha geniş vüsət almasına xidmət etmişdir. Bu baxımdan Heydər Əliyevin hələ 1990-cı ildə 20 Yanvar hadisələrindən dərhal sonra oğlu cənab İlham Əliyevlə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək böyük cəsarətlə xalqımızın haqq səsini ucaltması milli müstəqilliyə gedən yolumuzun ən önəmli hadisələrindən biri idi.

Ulu Öndərin həmin ilin yayında Naxçıvana gəlişi isə milli müstəqilliyimizə gedən yolun yeni başlanğıcı oldu. Həmin dövrün reallığı həm də ondan ibarətdir ki, naxçıvanlılar doğma Heydər Əliyevi böyük sevgi ilə qarşılamışdılar. Təsadüfi deyil ki, həmin dövrdə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərdə Heydər Əliyevin namizədliyini iki seçki dairəsindən irəli sürmüşdülər.

İctimaiyyət nümayəndələrinin təkidli xahişi ilə 1990-cı ildə deputat seçilən Heydər Əliyevin təşəbbüsləri ilə hələ 1990-cı ilin noyabr ayında Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar xalqımızın müstəqillik yolunun ən cəsarətli siyasi-hüquqi addımları idi. Belə ki, Ali Məclisin qəbul etdiyi qərarlarla 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağının yenidən rəsmi bayraq kimi təsbit olunması, Naxçıvan Muxtar Respublikasının adından "sovet" və "sosialist" sözlərinin çıxarılması və bütün bunların davamı kimi bir neçə ay sonra sovet dövlətinin keçirdiyi SSRİ-nin saxlanılması ilə bağlı referendumun Naxçıvanda baykot edilməsi sovet hakimiyyətinə böyük cəsarətlə meydan oxumaq idi. O cümlədən hələ sovet dövründə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvan Ali Məclisi tərəfindən 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüqiqi qiymətin verilməsi, qəbul edilən qərarda SSRİ-nin və Azərbaycanın siyasi rəhbərliklərinin 20 Yanvar faciəsinə görə birbaşa məsuliyyət daşıdıqlarının göstərilməsi Heydər Əliyev cəsarətinin möhtəşəm göstəricisi idi.

### Ulu Öndər Naxçıvanın böyük xilaskarıdır

Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyətinin növbəti mühüm mərhələsi Ümummilli Liderin xalqın təkidli istəyi ilə 1991-ci il sentyabrın 3-də muxtar respublika Ali Məclisinin Sədri seçilməsindən sonrakı dövrü əhatə edir. Bu, həmin dövr idi ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı genişlənir, respublikamızın bütün sərhədyanı yaşayış məntəqələrinə ermənilər tərəfindən edilən hücumlar güclənirdi. Tədricən blokadaya düşməsi səbəbindən Naxçıvanda isə vəziyyət daha ağır idi.

Ulu Öndərin ilk gündən atdığı qətiyyətli addımlar, həyata keçirdiyi kompleks tədbirlər Naxçıvanla bağlı Ermənistanın bütün işğalçılıq planlarını altüst etdi. Naxçıvanlılar böyük Heydər Əliyevin liderliyi ilə silaha sarılaraq doğma diyarın müdafiəsinə qalxdılar. Mərkəzi hakimiyyətin ögey münasibətinə, hərbi dəstəyin olmamasına baxmayaraq, Heydər Əliyev böyük sərkərdə kimi Naxçıvanı qorudu, xilas etdi, düşmən tərəfindən işğal edilməsinə imkan vermədi.

Naxçıvanla bağlı daha bir diqqəti çəkən məqam ondan ibarətdir ki, keçmiş sovet qoşunları muxtar respublikanı tərk edərkən bütün silah və texnikaların yeni yaranan Azərbaycan Ordusunun hissələrinə təhvil vermişdilər. Əlbəttə ki, bu prosesdə Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevin müdrikliyi böyük rol oynamışdı. 1992-ci ilin iyulunda Naxçıvandakı 75-ci diviziyanın əmlakının, silah-sursatının Azərbaycan Milli Ordusuna təhvil verilməsinə başlanılmış və proses avqustun ortalarında başa çatdırılmışdı. Bundan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvandakı 5-ci əlahiddə motoatıcı briqadası yaradılmışdı. Silah-sursatın tam təhvil verilməsindən cəmi 3 gün sonra - 1992-ci il avqustun 18-də keçmiş sovet ordusunun 75-ci diviziyasının son dəstəsi Naxçıvanı tərk etmişdi.

Eyni zamanda Naxçıvanda dövlət sərhədlərini qoruyan keçmiş 41-ci sərhəd dəstəsinin də bütün hərbi, hərbi-texniki və təsərrüfat əmlakı Azərbaycan Sərhəd Qoşunlarının Naxçıvandakı dəstəsinə təhvil verildi. Artıq 1992-ci il sentyabrından Naxçıvan ərazisində digər dövlətin - Rusiyanın heç bir hərbi hissəsi və hərbi qulluqçusu qalmamışdı. Qonşu dövlətlərlə sərhədin mühafizəsi Azərbaycan Sərhəd Qoşunları tərəfindən həyata keçirilməsinə başlanılmışdı.

1992-ci ilin avqust-sentyabr aylarında sözügedən hərbi hissələrin şəxsi heyətinin Azərbaycanı tərk etməsindən sonra Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanın müdafiəsi daha da möhkəmləndi. Blokada vəziyyətində olmasına baxmayaraq bu diyar Ermənistanın təcavüzkarlığının qarşısında qətiyyətlə, mərdi-mərdanə mübarizə aparırdı.

Onu da qeyd edək ki, müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan siyasi qruplar - nə A.Mütəllibov iqtidarı, nə də onun yerinə gəlmiş AXC-Müsavat cütlüyü blokada vəziyyətində olan muxtar respublikanın mövcud ağır vəziyyətini qismən də olsa yaxşılaşdırmaq üçün əməli tədbir görə bilmiş və ya görmək istəmişdilər. Belə bir şəraitdə Heydər Əliyev muxtar respublikanın sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün məhdud daxili imkanlarından maksimum və səmərəli istifadə edir, o cümlədən qonşu Türkiyə və İranla iqtisadi əlaqələrin inkişafı üçün zəruri tədbirlər həyata keçirirdi. Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi həmin dövrdə inşasına başlanılan və 1992-ci il mayın 28-də istifadəyə verilən Azərbaycanla qardaş Türkiyə arasındakı "Ümid" körpüsü həmin dövrdə Naxçıvanın nəqliyyat blokadasının qismən aradan qaldırılmasında böyük rol oynamışdı. Bütövlükdə Heydər Əliyevin uzaqgörənliyi nəticəsində görülən tədbirlər enerji çatışmazlığından, nəqliyyat blokadasından, sosial-iqtisadi böhrandan əziyyət çəkən muxtar respublikanı bütün fəlakətlərdən xilas etmiş  və ayaqüstə qalmasında böyük rol oynamışdı.

Bütün bunları o dövrdə Azərbaycana rəhbərlik edən qaragüruhçu qruplar da bilir və Heydər Əliyevi özlərinə rəqib gördükləri üçün onu Naxçıvana rəhbərlikdən uzaqlaşdırmaq istəyirdilər. Lakin onların bu istiqamətdə bütün cəhdləri Naxçıvan ictimaiyyətinin Heydər Əliyevin ətrafında güclü səfərbər olması səbəbindən baş tutmamışdı. Eyni zamanda Azərbaycanın gələcəyini düşünən, dövlətçiliyimizin və müstəqilliyimizin itirilməsi təhlükəsindən dərin narahatlıq keçirən ziyalılar, aydınlar ölkəmizin nicatını yalnız Heydər Əliyevin siyasi hakimiyyətə gəlişində görürdülər və bu məqsədlə Ulu Öndərin ünvanına respublikamızın hər yerindən müraciətlər edilir, teleqramlar göndərilirdi. Bu baxımdan tariximizin üz qarası olan AXC-Müsavat cütlüyünün yaratdığı maneələrə rəğmən, 1992-ci ilin noyabr ayında Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis edilməsi respublikamızın yeni siyasi tarixinin böyük hadisəsi idi. Ümumxalq sevgisinin və etimadının təcəssümü kimi Heydər Əliyevin 1993-cü ilin iyun ayında Naxçıvandan Bakıya gəlişi və hakimiyyət sükanının arxasına keçməsi Azərbaycanda tamamilə yeni siyasi-ictimai proseslərin inkişafına səbəb oldu. O proseslər ki, Azərbaycanın dövlətçiliyinin və müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etdi.

### Naxçıvan hər zaman Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını hiss edib

Ulu Öndərin xalqımızın istək və arzusu ilə siyasi hakimiyyətə gəlişi Naxçıvanda da mühüm dəyişikliklərə səbəb oldu. Belə ki, düşmən qarşısında yalnız qalmış Naxçıvanın ilk növbədə müdafiəsi daha da gücləndirildi. Ulu Öndərin başlatdığı yeni islahatlar muxtar respublika iqtisadiyyatının inkişaf etdirilməsinə böyük töhfələr verdi. Naxçıvan sakinlərinin uzun müddətdən bəzi əziyyət çəkdikləri sosial problemlər tədricən aradan qaldırıldı.

Ötən 20 ildə isə Naxçıvan hər zaman Prezident İlham Əliyevin böyük diqqət və qayğısını hiss edib. Bu dövrdə Azərbaycan Prezidentinin imzaladığı dövlət proqramlarının, ayrı-ayrı vaxtlarda ayırdığı maliyyə vəsaitlərinin nəticəsi kimi Naxçıvan böyük inkişaf yolu keçib, respublika üzrə istehsal edilən ÜDM-də muxtar respublikanın payı əhəmiyyətli dərəcədə yüksəlib. Habelə ötən 20 ildə Prezident İlham Əliyevin birbaşa diqqəti sayəsində muxtar respublikanın enerji problemi tamamilə aradan qaldırılıb.

Bu dövrdə Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı ilə Əlahiddə Ümumqoşun Ordusunun döyüş imkanları ən modern səviyyəyə yüksəldilib. Muxtar respublikada hərbi təhsilə əlçatanlığın təmin edilməsi üçün Heydər Əliyev adına hərbi lisey yaradılıb. Bu diqqət və qayğının təcəssümü olaraq torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində Əlahiddə Ümumqoşun Ordusunun şəxsi heyəti böyük qəhrəmanlıq nümunələri yaratdı, Şuşaya qədər döyüş yolu keçdi, bəziləri şəhidlik mərtəbəsinə ucaldılar. "İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır", - deyə Prezident İlham Əliyev bildirib.

Prezident İlham Əliyevin sayəsində Naxçıvan həm də türk dünyasının önəmli ünvanlarından biri kimi diqqəti çəkir. Bu sırada türk dövlətlərinin təşkilatlanmasının əsas tarixi mərhələlərindən birinin məhz Naxçıvandan başlamasını qeyd etmək yerinə düşər. Belə ki, 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə Toplantısı zamanı "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişi imzalanıb. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq isə Orta dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir. Möhtərəm Prezidentimizin qətiyyətli siyasətinin nəticəsi kimi Zəngəzur dəhlizinin açılması həm Naxçıvanın tarixində yeni mərhələ olacaq, həm də bu Azərbaycan diyarının bütün türk dünyasındakı yerini daha da möhkəmləndirəcək. İki il öncə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin yaradılması ilə muxtar respublikanın idarəçiliyində baş  verən dəyişikliklər isə dövlət başçısının qarşıya qoyduğu tapşırıqların və tövsiyələrin bu qədim diyarda layiqincə və daha keyfiyyətlə yerinə yetirilməsinə yol açacaq. Hər halda muxtar respublikada əldə olunmuş ötən ayların statistik məlumatları bunu deməyə əsas verir.

Heydər Əliyev siyasətinin və Prezident İlham Əliyevin uğurlu inkişaf strategiyasının nəticəsində Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu silsilədə respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın misilsiz fəaliyyəti dövlətə və xalqa xidmət məramının mükəmməl nümunəsidir. Qətiyyətlə deyə bilərik ki, xanım Mehriban Əliyevanın böyük Heydər Əliyev ideyalarına söykənən hər bir təşəbbüsü, çoxşaxəli fəaliyyətinin hər bir istiqaməti məhz ölkəmizin yüksəlişinə, beynəlxalq nüfuzunun artmasına, vətəndaşlarımızın rahat, firavan yaşamasına, Azərbaycan həqiqətlərinin olduğu kimi dünyaya çatdırılmasına xidmət edir.

Hörmətli Mehriban xanım Əliyevanın yüksək vətənpərvərliyə, böyük mərhəmətə, nəcib humanizmə söykənən böyük missiyasının real təzahürünü Naxçıvan Muxtar Respublikasının timsalında da görməmək mümkün deyil və 100 yaşlı muxtar respublikanın sakinləri də bunu aydın görür, həmişə qədirbilənliklə qiymətləndirirlər. Bir neçə il əvvəl Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Məhdud Fiziki İmkanlı İnsanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin xidmətlərindən Naxçıvan şəhəri daxil olmaqla, muxtar respublikanın 7 rayonunda yaşayan məhdud fiziki imkanlı insanlar bu gün də istifadə edə bilirlər.

Xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti böyük Heydər Əliyev ideyalarının həyata vəsiqə almasına, Prezident İlham Əliyevin isə ləyaqətlə davam və inkişaf etdirdiyi dahi liderimizin siyasi kursunda və inkişaf strategiyasında qarşıya qoyulan vəzifələrin uğurla və keyfiyyətlə yerinə yetirilməsinə davamlı xidmət edir. Cəmi bir neçə gündən sonra xanım Mehriban Əliyevanın respublikamızın Birinci vitse-prezidenti təyin olunmasının 7-ci ili tamam olur. Hələ 2017-ci ildə Prezident İlham Əliyev tərəfindən verilən bu qərar bütün xalqımızın, o cümlədən muxtar respublika sakinlərinin böyük rəğbəti ilə qarşılandı. Çünki Mehriban xanım Əliyeva ölkəmizdə illərdir ictimaiyyətin birmənalı dəstəyini qazanmış ictimai-siyasi xadimdir. Ötən 7 ilin real mənzərəsi bir daha göstərir ki, xanım Mehriban Əliyeva Birinci vitse-prezident kimi dövlətə xidmətin mükəmməl nümunələrini yaratmaqdadır.

Mehriban xanım Əliyevanın müxtəlif vaxtlarda Prezident İlham Əliyevlə birlikdə Naxçıvana səfərləri, Əshabi-Kəhf ziyarətgahını ziyarət etməsi, 2008-ci ildə Türkiyənin o zaman Baş naziri vəzifəsində çalışan Rəcəb Tayyib Ərdoğanın Naxçıvana səfəri çərçivəsində onun xanımı Əminə Ərdoğanla birlikdə Naxçıvan Dövlət Universitetində olması, 2009-cu ildə Prezident İlham Əliyevlə birlikdə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyində iştirakı Naxçıvan ictimaiyyəti tərəfindən hər zaman minnətdarlıqla xatırlanır. Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusilə Vətən müharibəsində şəhid olmuş Naxçıvandan olan övladlarımızın ailə üzvlərinə, qazilərə yaxından diqqət və qayğısı isə qədirbilən naxçıvanlıların yaddaşından heç vaxt silinməyəcək.

*Torpaqlarımızın azad edilməsindən və Qarabağda erməni separatçılığına son qoyulmasından sonra Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. İki gün öncə keçirilən prezident seçkiləri isə bu mərhələnin, başqa cür desək, müstəqil Azərbaycanın öz yeni hədəflərinə doğru inkişafının başlanğıcıdır. Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinin məhz bu günlərə təsadüf etməsi isə yubiley əhvali-ruhiyyəsini daha da yüksəldir. İnanırıq ki, yeni mərhələdə möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha uca zirvələr fəth edəcək, Naxçıvan isə daha möhtəşəm inkişaf nümunələri yaradacaq.*

**Bəxtiyar ƏSGƏROV,**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# Naxçıvan Muxtar Respublikası -100

**İki gün əvvəl respublikamızda mühüm siyasi hadisə olan prezident seçkiləri keçirildi. Heydər Əliyev ideyalarına hər zaman sədaqət nümayiş etdirən xalqımız bu seçkidə də Ulu Öndərin siyasi kursunun ən layiqli davamçısı, ötən 20 ildə qazandığımız bütün uğurların müəllifi olan, Azərbaycanı inkişaf etdirərək tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyevin ətrafında səfərbər oldu. Bütün vətəndaşların prezidentliyə namizədi olan İlham Əliyevin qələbəsi ilə başa çatan bu seçki ölkə vətəndaşlarının hazırkı siyasi kursa etimadının və ona heç bir alternativi qəbul etməməsinin təcəssümünə çevrildi.**



## Naxçıvanın şərəfli tarixi

Xalqımızın öz rəhbərinə, torpaqlarımızı işğaldan azad edən Müzəffər Ali Baş Komandana sevgisinin və ehtiramının növbəti təntənəsinin yaşandığı bu günlərdə həm də Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan bir əlamətdar hadisənin ildönümümüdür. Belə ki, bu gün - fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi tamam olur. Naxçıvanın muxtariyyətinin siyasi tariximizdə çox mühüm hadisə olduğunu nəzərə alaraq, Prezident İlham Əliyev ötən il dekabrın 3-də muxtar respublikanın 100 illik yubileyinin geniş qeyd olunması ilə bağlı sərəncam imzalamışdır.

Naxçıvanın xalqımızın istər keçmişində, istərsə də müasir tarixində mühüm yeri olub. Bu ulu diyarda zəngin dövlətçilik tariximizin şərəfli səhifələri yazılıb. Naxçıvan hər zaman xalqımızın ictimai-siyasi, mədəni, elmi həyatına böyük töhfələr verib. Tarixboyu Naxçıvan düşmən qarşısında alınmaz qala olub, yadelli işğalçılara qarşı qətiyyətlə mübarizə aparıb. Prezident İlham Əliyevin sərəncamında deyildiyi kimi, strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları daim qətiyyətlə dəf etmişdir.

Onu da qeyd etməliyik ki, tarixi Azərbaycan torpaqları olan Naxçıvanda muxtariyyətə heç də asanlıqla nail olunmayıb. "Böyük Ermənistan" xülyasında olan ermənilər bu saxta iddialarını reallaşdırmaq üçün Naxçıvanı hədəf götürmüşlər. Bu məqsədlə erməni quldur dəstələri İrəvan, Zəngəzur və Qarabağla yanaşı, Naxçıvan ərazilərində də azərbaycanlı əhaliyə qarşı məqsədli şəkildə çoxsaylı soyqırımı cinayətləri törətmişlər. Lakin naxçıvanlılar heç vaxt düşmənə təslim olmamış, bu diyarı erməni təcavüzündən layiqincə qorumuşlar.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından və Zəngəzurun Ermənistana verilməsindən sonra isə Naxçıvanın muxtariyyəti məsələsi gündəmə gəlmişdi. Çünki xüsusən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsindən sonra ermənilər Naxçıvanı da ilhaq etmək üçün yeni planlarını işə salmışdılar. Lakin 1921-ci ilin mart ayında imzalanan Moskva və 1921-ci ilin oktyabrında imzalanan Qars müqavilələri erməni məkrini alt-üst etmişdi. Belə ki, bu müqavilələrlə Naxçıvanın muxtariyyət statusu təsbit edilmişdi. 1924-cü il fevralın 9-da isə Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikası yaradılmışdı. Bununla da Naxçıvan Azərbaycan ərazisi kimi qorunub saxlanılmışdı. Əlbəttə ki, bu mühüm tarixi hadisənin reallaşmasında qardaş Türkiyənin mövqeyi əsas rol oynamışdı.

100 yaşlı Naxçıvanın muxtar respublika kimi tarixini iki yerə bölmək olar: sovet dövrü və müstəqillik dövrü. Və hər iki dövrdə muxtar respublikanın əsas uğurları Heydər Əliyevlə və onun siyasi kursunun davam etdirilməsi ilə bağlıdır. Hələ sovet illərində birbaşa Heydər Əliyevin diqqət və qayğısı ilə Naxçıvan öz intibahının yeni mərhələsinə qədəm qoymuş, muxtar respublikada bütün sahələrin inkişafı vüsət almışdı. "O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı", - deyə Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyində çıxışı zamanı bildirmişdi.

Naxçıvanın dövlətçiliyimizin bütün mərhələlərində xüsusi yeri olub. Müasir tariximizdə isə Naxçıvan xalqımızın müstəqillik uğrunda mübarizəsinə böyük töhfələr verib. Belə ki, 1990-cı ildə Ulu Öndər Heydər Əliyevin Naxçıvana qayıdışı, eyni zamanda muxtar respublikanın Ali Məclisinə və Azərbaycan Ali Sovetinə deputat seçilməklə böyük siyasətə qayıdışı o dövrdə respublikamızda yeni baş qaldırmış müstəqillik hərəkatını yeni mərhələyə yüksəltmiş, ona yeni nəfəs vermişdir. Naxçıvanın və Ali Məclisin adında dəyişikliklər edilməklə "sovet" və "sosialist" sözlərindən imtina edilməsi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə ucaldılmış üçrəngli bayrağın ilk dəfə Naxçıvanda rəsmi bayraq kimi təsbit olunması, məhz Naxçıvanda ilk dəfə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməsi dövlətçilik tariximizin mühüm hadisələridir. Sovet qoşunlarının Naxçıvandan tam şəkildə çıxarılması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlarla yanaşı, Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri çalışdığı dövrdə muxtar respublikanı erməni işğalından layiqincə qorumuşdur. 1992-ci ildə "Ümid körpüsü"nün salınması, Yeni Azərbaycan Partiyasının təsis olunması Heydər Əliyevin müəllifliyi ilə dövlətçilik tariximizin yazılan əlamətdar hadisələridir.

Ulu Öndər Heydər Əliyev respublikamıza rəhbərliyi dövründə Naxçıvana diqqət və qayğısını əsirgəməmişdir. Ötən 20 ildə isə Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsi kimi Naxçıvan da böyük inkişaf yolu keçib. Bu illər ərzində muxtar respublikada sosial-iqtisadi sferada əldə olunmuş hər bir nailiyyət məhz Prezident İlham Əliyevin Naxçıvana olan diqqət və qayğısının, həyata keçirdiyi iqtisadi islahatların nəticəsidir. "Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitinin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir", - deyə Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamında bu barədə deyilir.

Torpaqlarımızın işğaldan azad edilməsindən və ərazi bütövlüyümüzün təmin olunmasından sonra isə Azərbaycan öz yüksəlişinin yeni mərhələsinə qədəm qoyub. Əminik ki, muxtariyyətinin 100 illiyi tamam olan bu mərhələdə Naxçıvan öz sürətli yüksəlişi ilə yeni nümunələr yaradacaq, bütövlükdə respublikamızın inkişafına böyük töhfələr verəcək.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

## Naxçıvan Muxtar Respublikasının hüquqi statusu

**2024-cü ildə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın muxtar respublika kimi təsis edilməsinin 100 ili tamam olur. Prezident İlham Əliyevin 2023-cü il 30 dekabr tarixli sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikasının yaranmasının siyasi tariximizdə mühüm hadisə olduğu nəzərə alınaraq, 100 illik yubiley geniş qeyd edilir.**

Naxçıvanın muxtariyyəti tarixi zərurətdən irəli gəlib. Belə ki, 1918-20-ci illərdə bölgədə çox mürəkkəb tarixi şəraitin yaranması, Zəngəzurun itirilməsi nəticəsində Naxçıvan torpağının Azərbaycandan ayrı düşməsi uzun illərdən bəri xarici havadarlarının köməyi ilə bu diyara sahib olmağı arzulayan erməniləri cəsarətləndirmişdi. Lakin Naxçıvanı Ermənistana birləşdirmək cəhdi yerli əhalinin kəskin etirazı ilə qarşılaşmışdı. 1921-ci ilin yanvarında Naxçıvanda onun Azərbaycan SSR tərkibinə daxil olması barədə referendum keçirilmiş, rəy sorğusunun nəticəsində əhalinin 90 faizi Naxçıvan diyarının Azərbaycan SSR-in tərkibində qalmasına tərəfdar çıxmışdır.

Naxçıvanın muxtariyyət statusu ilk dəfə 16 mart 1921-ci il tarixli Moskva müqaviləsində öz əksini tapıb. Həmin müqavilənin 3-cü maddəsinə görə, Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi kimi təşkil edilir. Analoji müddəa 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinin 5-ci maddəsində də təsbit olunub. Moskva və Qars müqavilələri beynəlxalq hüquqi akt kimi Naxçıvan Muxtar Respublikasının gələcək mövcudluğunun və inkişafının təminatçısı oldu. SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR-in sonrakı konstitusion aktları bu beynəlxalq müqavilələri əsas götürdülər. Bu, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun "Azərbaycan SSR-in tərkibində muxtar Naxçıvan diyarının yaradılması haqqında" 1922-ci il noyabr tarixli qərarında da öz əksini tapmış və Birinci Zaqafqaziya Sovetlər Qurultayının 12 dekabr 1922-ci il tarixli xüsusi qərarında tanınmışdı.

16 mart 1921-ci il tarixdə elan edilmiş Naxçıvan SSR Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 16 iyun 1923-cü il tarixli qərarı ilə Azərbaycanın tərkibində Naxçıvan diyarına çevrildi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 9 fevral 1924-cü il tarixli qərarı ilə Naxçıvan Muxtar Diyarı muxtar respublika kimi yenidən təşkil olundu.

Azərbaycan SSR-in 1927-ci, 1937-ci və 1978-ci il konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı məsələlər öz əksini tapmışdı.

Müstəqil Azərbaycanın Konstitusiyasının Vlll fəsli bütövlükdə Naxçıvan Muxtar Respublikasının statusuna həsr olunub. 134-cü maddədə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu Konstitusiya ilə müəyyən edilir və Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

Naxçıvanın muxtariyyəti Azərbaycanın unitar dövlət quruluşu formasına xələl gətirmir. Birincisi, Naxçıvanın muxtariyyəti ərazi muxtariyyətidir və bu status Azərbaycanın əsas ərazisi ilə birbaşa quru əlaqəsinin olmamasından irəli gəlir. Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, "Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi". İkincisi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanarkən Azərbaycanın Konstitusiya quruluşunun əsasları ilə bağlı əsas xüsusiyyətlər - siyasi hüquq və azadlıqlar, vahid məhkəmə quruluşu, qanunvericiliyin vahid əsasları, vahid dövlət dili və dövlət rəmzləri, vahid vətəndaşlıq, vahid silahlı qüvvələr, vahid milli valyuta və maliyyə-kredit sisteminin tətbiqi nəzərə alınıb.

Bütün bunlar unitar dövlət və beynəlxalq hüququn subyekti kimi Azərbaycanın suverenliyinə təminat verməklə Konstitusiyada öz əksini tapıb. Azərbaycan dövlətçiliyinin vahidliyi həm Azərbaycan Konstitusiyası, həm də Naxçıvan Konstitusiyası ilə təsbit olunub. Azərbaycan Konstitusiyası normativ hüquqi aktların Naxçıvanda birbaşa hüquqi qüvvəyə malik olduğunu qeyd edir. Azərbaycan Konstitusiyası, qanunları, Prezidentin fərmanları və Nazirlər Kabinetinin qərarları Naxçıvan ərazisində məcburidir. Naxçıvan Konstitusiyası və qanunları müvafiq olaraq Azərbaycan Konstitusiyasına və qanunlarına, Naxçıvan Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar Azərbaycan Konstitusiyasına, qanunlarına, Prezidentin fərmanlarına, Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanları bir-biri ilə üzvi surətdə bağlıdırlar və qarşılıqlı şəkildə ahəngdar fəaliyyət göstərirlər. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi vətəndaşların suveren iradəsini ifadə edən ali təmsilçilik orqanıdır. Naxçıvanda icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir və o, Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanıdır. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Ali Məclisə tabedir və onun qarşısında müntəzəm hesabat verir. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir.

Naxçıvanın, bütövlükdə Azərbaycanın siyasi tarixində əsas yeniliklərdən biri də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılmasıdır. Azərbaycan Prezidentinin 2022-ci il 22 dekabr tarixli 1917 nömrəli fərmanı ilə sözügedən institut təsis edilmişdir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək, muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək, ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə mütəmadi hesabatlar təqdim etmək və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək səlahiyyətli nümayəndəliyin əsas fəaliyyət istiqamətləridir.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması və səlahiyyətli nümayəndənin təyin olunması Azərbaycanın unitar dövlət idarəçiliyi ilə Naxçıvanın muxtar respublika statusunun harmoniyasını təmin edir. Beləliklə, Prezidentin səlahiyyətli nümayəndəsinin təyin olunması Naxçıvanda idarəetmə üsulunun səmərəliliyinin artırılmasına, bölgənin iqtisadiyyatının daha da inkişafına, islahatların uğurla həyata keçirilməsinə səbəb olmuş, muxtar respublikaya yerli və xarici investorların cəlb edilməsi prosesini sürətləndirmişdir.

Azərbaycan Konstitusiyasında Naxçıvan muxtariyyətinin konstitusion statusunun əks olunması və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında bu statusun təfərrüatlarının işlənib hazırlanması Azərbaycanın konstitusiya quruluşuna möhkəm zəmin yaratmış, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının dövlət orqanları arasında ahəngdar münasibətlərin, bütövlükdə elmi cəhətdən əsaslandırılmış dövlət idarəetmə sisteminin yaradılmasına imkan vermişdir.

Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli sərəncamı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına ali səviyyədə göstərilən dövlət qayğısının bariz ifadəsi kimi böyük əhəmiyyət kəsb edir.

**İsmayıl QƏRİBLİ,**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri,***
***Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının baş müəllimi***

## Beş min ilin bir əsri

**Ulu Öndərin 100 illiyinin müxtəlif silsilə tədbirlərlə, böyük təmtəraq və coşqu, görkəmli dövlət xadiminə sevgi və ehtiramla qeyd edildiyi ilin son günlərinin birində şad bir xəbər eşitdik.**



Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli sərəncamı naxçıvanlılara, hər bir naxçıvansevərə dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni il bayramına təbriki, qədim yurd yerinə, onun yurdsevər, torpaq, Vətən qədri bilən insanlarına növbəti qayğısının ifadəsi oldu. Sərəncamda oxuyuruq: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, islam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".

Bir qədər yaxın keçmişə ekskurs edərək yaşadığımız dövrün son iyirmi ilinə nəzər salsaq, Prezident İlham Əliyevin Naxçıvanla bağlı gördüyü işlərin həcmini və coğrafiyasının genişliyini görərik. Onun ölkəmizə rəhbərliyi dövründə 15 dəfə Naxçıvana səfər etməsi, hər səfərində bu qədim yurd yerində əsl bayram sevincinin yaşanması, yeni və möhtəşəm obyektlərin istifadəyə verilməsi isə günümüzün reallığı, Naxçıvanın tarixinə yeni səhifələrin yazılmasıdır.

O da vurğulanmalıdır ki, bir qədər əvvəl, daha dəqiq desək, ölkə Prezidentinin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi hər bir naxçıvanlıda necə ruh yüksəkliyi yaratmışdırsa, növbəti sərəncam naxçıvanlılara göstərilən qayğının davamlı olduğunu göstərdi. Bu mühüm əhəmiyyətli dövlət sənədində yeni prioritetlər müəyyənləşdirilib. Bir faktı xüsusilə qeyd etməliyik ki, dahi rəhbər Heydər Əliyevin "bir millət, iki dövlət" adlandırdığı Azərbaycan və Türkiyə əlaqələrinin inkişafı Naxçıvanı da öz qoynuna alıb. Ötən ilin sentyabr ayında məhz Naxçıvanda hər iki ölkə rəhbərinin iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasiminin keçirilməsi, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nun imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılması, Naxçıvan Bərpa-İstehsalat hərbi kompleksinin açılışında iştirak etmələri dünya siyasət aləminin müzakirə predmetinə çevrilib. Dövlət proqramının qəbulundan ötən qısa müddət ərzində muxtar respublikada aparılan islahatlar, həmin islahatların məntiqi nəticələri, həyata keçirilən quruculuq tədbirləri və görülən işlər barədə ətraflı danışmaq olar. Lakin bu məsələlərlə bağlı qəzetimizin səhifələrində gündəlik olaraq yazılar dərc edildiyi üçün oxucuların vaxtını almaq istəmirik, həm də görünən dağa nə bələdçi?

Növbəti sərəncam bu qədim diyarda muxtariyyətin möhkəmləndirilməsi, muxtar respublikanın yubileylərinin keçirilməsi ilə bağlı görkəmli dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi tədbirləri xatırladır. Sərəncamda deyilir: "Naxçıvanın davamlı inkişafında Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur". Və bunu da mütləq xatırlamağa ehtiyac duyuruq: Dövlət başçısı bu addımı ilə Ulu Öndərin siyasətinə sadiqliyini bir daha sübut etdi.

Ulu Öndər Heydər Əliyev deyirdi: "İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".

Naxçıvanın böyük dövlətçilik tarixi və bu tarixin ümumilikdə Azərbaycanın dövlətçilik tarixi olduğunu ən yüksək tribunalardan qürurla bəyan edən Ulu Öndərin bu qədim yurd yeri haqqındakı arzularını da ata vəsiyyətini yerinə yetirməkdən qürur duyan cənab İlham Əliyev yüksək səviyyədə həyata keçirir.

Beşminillik şəhərsalma mədəniyyətinə malik olan Naxçıvan Prezident İlham Əliyevin davamlı qayğısı sayəsində son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Bu gün müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi naxçıvanlıların həyat idealına çevrilib. Bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz bu gün inkişaf və tərəqqinin yeni müstəvisindədir. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsallıdır. Müasirləşən kəndlər bugünkü Naxçıvanın nail olduğu sosial-iqtisadi inkişafın göstəriciləridir.

Ancaq görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması heç də kiçik məsələ deyil. Və bütün bunların təməlində dövlət başçısı cənab İlham Əliyevin doğma yurduna bağlılığı, sevgi və məhəbbəti, insan amilinə, yurd amilinə böyük diqqəti dayanır.

Naxçıvana hər gəlişində ölkə Prezidenti burada həyata keçirdiyi siyasətin bəhrələrini görür. Görür ki, hər gün, hər saat dəyişən Naxçıvan başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq donundadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yeni yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi, beynəlxalq konfransların, idman yarışlarının keçirildiyi ünvan kimi Naxçıvanın bugünkü mənzərəsi Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlarıdır.

"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdiririr" deyən cənab İlham Əliyevin 2022-ci ilin dekabr ayında Naxçıvanda yeni idarəetmə institutu yaratması isə ölkə rəhbərinin Şərqin qapısına növbəti qayğısının təzahürünə çevrilib.

Bəhs edilən sərəncamda da vurğulanır ki, bu gün muxtar respublikada dövlət proqramları və infrastruktur layihələri müvəffəqiyyətlə həllini tapır, bu qədim diyar ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə öz töhfəsini verir. Naxçıvanın beynəlxalq miqyaslı mötəbər tədbirlərin keçirildiyi məkana çevrilməsi hər bir naxçıvanlıya qürur hissi yaşadır. Sevindiricidir ki, ölkəmizin ətraf mühitinin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji zonası" elan olunub.

Gəlinən nəticə isə odur ki, dövlətçiliyimizin intişar, taleyüklü məsələlərin öz həllini tapdığı Naxçıvanla bağlı dövlət başçısının bu sərəncamı min illərdir ki, xalqımızın nəsildən-nəslə ötürə-ötürə ən böyük ata-baba əmanəti kimi yaşatdığı şərəfli tariximizə son illərdə vurulmuş zərbəni 44 gün 23 saat ərzində sağaldan, qürurumuzun Xankəndi zirvəsini, ərazi bütövlüyümüzün Qarabağ böyüklüyünü özümüzə qaytaran, azərbaycançılıq ideologiyasının böyük dəyər daşıdığını, bu dəyərin hər bir azərbaycanlı üçün müqəddəs məktəb olduğunu dünyaya göstərən cənab İlham Əliyevin Ulu Öndərin vaxtilə dediyi: "Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan durur" qənaətinə böyük ehtiramının növbəti ifadəsidir.

Muxtar respublikanın 100 yaşını qeyd etdiyimiz bu ərəfədə daha bir tarixi günü yaşadıq. Daha doğrusu, bu tarixi öz siyasi iradəmizlə, dövlətçiliyimizə və liderimizə olan sevgimizlə bir daha nümayiş etdirdik. Müstəqil Azərbaycanın tarixində ən yaddaqalan səsvermə prosesi təşkil olundu. Qalib ölkənin qalib xalqı kimi "Zəfərlərə davam" dedik. Karvan biz, yolumuz isə uzundur. Biz cənab Ali Baş Komandanın rəhbərliyi altında "Zəngəzur dəhlizi"ni açacaq, Naxçıvanımızı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcəyik. Güclü Liderlə yeni uğurlara doğru yolumuz həmişə açıq olsun!

***Sara ƏZİMOVA,***
***"Şərq qapısı" qəzetinin baş redaktoru***

# 7 fevral qələbəsinin təməli

## İnkişaf, firavanlıq, zəfər

**Bu coşqunun, sevincin bünövrəsi 2020-ci il noyabrın 8-də qoyulmuşdu. O gün də xalq coşqu və sevinclə Vətən müharibəsindəki zəfərin xoş qürurunu yaşamışdı.**














Xalq 30 illik bir ləkəni təmizləmiş, cəsur, mübariz, qəhrəman Azərbaycan əsgərinin əli ilə Zəfər yazmışdı. Ali Baş Komandan İlham Əliyevin gecə saatlarında xalqa verdiyi xoş müjdə hər kəsin qəlbini riqqətə gətirmiş, bütün Azərbaycanı ayaqda saxlamışdı.

Növbədənkənar prezident seçkisində İlham Əliyevin qələbəsi gözlənilən idi. Hər kəs bilirdi ki, bu seçkidə qalib İlham Əliyev olacaq. Çünki xalq onu təkcə dövlət başçısı kimi deyil, həm də müzəffər sərkərdə, Ali Baş Komandan kimi sevir. Bu sevgini Vətən müharibəsinin gedişatında qazandı dövlətimizin başçısı. 44 gündə Prezidentin xalqa arxalanması, orduya güvənməsi, eynilə xalqın və əsgərlərin də Ali Baş Komandana inanması şanlı Zəfəri qazandırdı. O günlərin xalq və iqtidar birliyi tarixin heç bir dönəmində, dünyanın heç bir ölkəsində olmamışdı. Bu birlik Azərbaycan xalqının Qarabağ adlı yarasına məlhəm çəkib sağaldan Azərbaycan əsgərinin namusundan və qeyrətindən doğmuşdu. O namus və qeyrətə sahib çıxan Prezident İlham Əliyev Zəfərin memarı idi. O müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük və yenilməz, dəmir iradəli, müzəffər ordusu olan bir xalq olduğunu göstərdi.

Bu xalq öz azad iradəsini bir daha fevralın 7-də nümayiş etdirdi. Azərbaycan həmin gün tarixi bir hadisə yaşadı. Müdrik xalq dövlətçilik tarixinə növbəti dəfə möhürünü vurdu. Milliyyətindən, dilindən və dinindən asılı olmayaraq həmrəylik nümayiş etdirərək seçimini etdi. İlham Əliyevin timsalında iqtisadi və sosial inkişafa, sülhə, sabitliyə, əmin-amanlığa və nəhayət, Zəfərə səs verdi. Bu dövlətin uğurlu gələcəyinin qarantı olan İlham Əliyevi bir daha qalib etdi. Bu qələbə onun halal haqqıdır. Bu qələbəni o, necə deyərlər, "dişi ilə, dırnağı ilə" qazanmışdır.

Yazının əvvəlində Vətən müharibəsini xatılamağımız əbəs yerə deyil. Seçki günü vətəndaşların bu zamana kimi olmayan bir fəallıq nümayiş etdirməsi, birlik sərgiləməsi adamı istər-istəməz 2020-ci il sentyabrın 27-nə qaytarır. Müharibənin başladığı həmin gün insanlar yaşından asılı olmayaraq müharibəyə yollanmaq üçün dəstə-dəstə hərbi komissarlıqlara necə üz tuturdularsa, 2024-cü il fevralın 7-də seçki məntəqələrinə də eyni istək, həvəslə gəldilər. Azərbaycan dövlətinin uğurlarının, qələbələrinin sirri də məhz bu birlik, bu həmrəylikdədir.

Seçkinin nəticəsi göstərir ki, azərbaycanlılar təkcə öz firavan həyatları üçün deyil, dövlətin və dövlətçiliyin qorunmasına, müstəqilliyimizin möhkəmlənməsinə yönəlik addım atıblar. Xalq bunun öhdəsindən gələn Liderin İlham Əliyev olduğunu dünyaya bildirdi. Dünya bir daha gördü ki, ölkəmizin bugünkü inkişafının lokomotivi qalib Liderin qətiyyət və iradəsidir. Son 20 ildə Azərbaycan çox böyük yol qət edib. Ardıcıl aparılan islahatlar, reallaşdırılan qlobal layihələr Azərbaycanı yeniləşdirib, müasirləşdirib.

Son günlər tez-tez səslənən bu fikri təkrar edirik: Azərbaycanda illər sonra ilk dəfə ərazi bütövlüyü tam təmin edilmiş şəkildə seçki keçirildi və bu təntənə bütün ölkə ərazisini əhatə etdi. Keçmiş məcburi köçkünlər öz yurdlarında səsverməyə qatıldılar. Ali Baş Komandan isə ailəsi ilə birlikdə Xankəndidə səs verdi və bununla bir daha dünyaya göstərdi ki, Qarabağ Azərbaycandır!

Bu seçki Zəfər seçkisi olaraq tarixə əbədi həkk olunacaq - həm müzəffər, qalib, həm də alnıaçıq, üzüağ xalqın seçkisi kimi. Nəticə isə gözlənilən oldu - alternativsiz Lider İlham Əliyev! Gecə ilə on minlərlə insan bu qələbəni qeyd etmək üçün Bakı küçələrinə çıxdı, Heydər Əliyev Mərkəzinin önündə şənlik keçirdi.

Onu da qeyd edək ki, bu seçkidə də demokratik əsaslar pozulmadı, ədalətlilik prinsipi qorundu, hər bir namizədə bərabər imkanlar yaradıldı. Məhz bu səbəbdən də prezidentliyə digər namizədlər səsvermənin nəticələrini qəbul edərək İlham Əliyevi təbrik etdilər. Zahid Orucun Seçki qərargahı belə bir bəyanat yaydı: "Öz xalqını qalibiyyətə çatdıran, ölkəsini qalib ölkəyə çevirən namizəd İlham Əliyevlə mübarizə aparmaq olduqca çətin olsa da, bu seçkilər bizim komandamıza müsbət təcrübə qazandırmış və xalqla daha yaxın ünsiyyətimizə imkan yaratmışdır. Müşahidəçilərimizin rəyinə əsasən, seçkilərin ilkin nəticələrini Azərbaycan xalqının iradəsinin göstəricisi hesab edir və bu seçkilərdə qələbə qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilən Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevi ürəkdən təbrik edirik. Prezident İlham Əliyevə qlobal miqyasda baş verən gərginliklər fonunda dünya ilə ayaqlaşa bilən yeni Azərbaycan yaratmaq uğrunda çətin və şərəfli fəaliyyətində uğurlar arzulayırıq". Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Cəbhə Partiyası, Böyük Azərbaycan Partiyası və prezidentliyə namizəd Fuad Əliyevin Seçki qərargahı da bəyanat verərək İlham Əliyevi təbrik etdilər. Eyni zamanda beynəlxalq müşahidəçilərin apardıqları monitorinqlərin, keçirilən "exit-poll"ların nəticələri də seçkinin obyektiv, demokratik keçirilməsini təsdiqləyir.

Qarşıdakı 7 ildə İlham Əliyevin Azərbaycana rəhbərlik etməsi ölkəmizin sabah bugünkündən daha qüdrətli, güclü olacağı, xalqımızın sabah bugünkündən daha firavan, xoşbəxt yaşayacağı deməkdir. Bunu təkcə biz yox, dostlarımız da etiraf edirlər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Zəfər təntənəsi

**Fevralın 7-də müstəqil Azərbaycan tarixində ilk dəfə müqəddəs bayrağımızın dalğalandığı bütün ərazilərdə növbədənkənar prezident seçkiləri keçirildi. Yüksək əhvali-ruhiyyə, sevinc, fərəh hissi, bayram ovqatı ilə başlayan seçki marafonu musiqi sədaları altında, çal-çağırla da başa çatdı.**














Seçki günü səsvermə başlayan saatdan insanlar seçki məntəqələrinə doğru axışırdılar. Səsvermə məntəqələrinin qarşısında əsl izdiham yaşanırdı. Seçki fəallığına görə Azərbaycan hələ belə seçki görməmişdi. İlk dəfə olaraq 4 milyon 971 min 32 nəfər öz səsvermə hüququndan istifadə etmişdi...

Qışın oğlan çağında sanki təbiət də keçirilən seçkilərə öz xeyir-duasını vermişdi. Sübh tezdən günəş öz şəfəqlərini bütün Azərbaycana yayıb ılıq nəfəsi ilə havanı isindirmişdi. İnsanların üz-gözündən sevinc yağırdı. Səsvermə məntəqəsinə gələnlər keçirilən Zəfər seçkisi münasibəti ilə bir-birlərini təbrik edir, səs vermək üçün növbə gözləyirdilər. Seçki məntəqələrinin qarşısında əsl bayram ovqatı, Zəfərin təntənəsi yaşanırdı. Əhalinin kütləvi iştirakı ilə tarixiləşən növbədənkənar prezident seçkisi həm də seçicilərin yaddaşında maraqlı hadisələr, bayram təntənəsi ilə qalacaqdı. Həmin gün axşam ABŞ-nin "ORACLE ADVİSORY GROUP" təşkilatı Azərbaycanda növbədənkənar prezident seçkilərinin "exit-poll" nəticələrini elan etdi. Təşkilatın əsas tərəfdaşı George Birnbaum seçicilərin 93,9 faizinin İlham Əliyevə səs verdiyini açıqladı. Eləcə də "Rəy" Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzi Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində apardıqları "exit-poll"arın nəticələrini elan etdilər. "Rəy" Monitorinq Mərkəzi hakim Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin seçicilərin səslərinin 92,6 faizini, Sosioloji Tədqiqatlar Mərkəzi isə səslərin 92,4 faizini qazandığını bildirdilər.

"Exit-poll" nəticələri elan olunduğu andan, Zəfər müharibəsinin Komandanı, Qarabağın xilaskarı, Prezident İlham Əliyevin növbədənkənar prezident seçkilərinin favoriti olduğunu eşidən insanlar fərəhlənib qələbə sevincini respublikamızın müxtəlif şəhər və rayonlarında küçələrə, parklara axışaraq, səs verdikləri namizədin qələbəsini çal-çağırla qeyd etdilər.

Bakıda və respublikanın bütün rayon və şəhərlərində İlham Əliyevin seçkidə qazandığı inamlı qələbə bayram əhvali-ruhiyyəsində qeyd olundu. Dənizkənarı parkda, "Fəvvarələr meydanı"nda, Heydər Əliyev Mərkəzinin qarşısında, eləcə də şəhərin müxtəlif yerlərində musiqiçilərin, incəsənət xadimlərinin çıxışları, gənclərin əl-ələ verib rəqs etmələri bayram sevincinə xüsusi rəng qatmaqla meydanlarda coşqu yaradırdı.

Qarabağın xilaskarı və qurucusu İlham Əliyevin böyük səs çoxluğu ilə prezident seçkilərinin qalibi olması zəfərimizin rəmzi Şuşada da, Ağdamda, Laçında, Ermənistanla sərhəddə yerləşən Zabux kəndində, Zəngilan rayonunun Ağalı kəndində də qeyd edildi. Xatırladaq ki, 7 fevral növbədənkənar prezident seçkiləri Azərbaycanın müstəqillik tarixində Şuşada keçirilən ilk seçki kampaniyası kimi tarixiləşdi. Qədim qala şəhərinin sakinləri İlham Əliyevin inamlı qələbəsini avtomobil yürüşü və atəşfəşanlıqla qeyd etdilər. Gecədən xeyli keçənə kimi davam edən şənlikdə Şuşanın səması atəşfəşanlıqla al-əlvan rənglərə boyandı.

30 ildən sonra doğma yurdlarında məskunlaşan Füzuli sakinləri Zəfərlə qazanılan torpaqlarda Zəfər seçkisinin nəticələrini böyük sevinclə qarşılayıblar.

Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında avtoyürüşlər keçirilib, minlərlə sakin küçə və prospektlərdə musiqi sədaları altında, əllərində gələcəyin uğurlu təminatçısı İlham Əliyevin portretlərini tutaraq üçrəngli bayraqlarla qələbə şüarları səsləndiriblər.

Seçkini izləyən beynəlxalq təşkilatların, müşahidəçilik missiyasını yerinə yetirən müxtəlif təşkilatların növbədənkənar prezident seçkisi haqqında müsbət rəyləri, dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət rəhbərlərinin cənab İlham Əliyevə xalqın yenidən səsini alması münasibəti ilə ünvanladıqları təbrik teleqramları, ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların seçkiyə olan vətəndaşlıq münasibətləri də insanların sevincinə sevinc qatırdı.

Fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsi seçicilərin gələcək firavan həyatlarına, uğurlu inkişafa olan inamını daha da artırdı. Seçki marafonunda qazanılan qələbəni haqqı olaraq hər bir Azərbaycan vətəndaşı özünün xoşbəxt gələcəyinin, həyatında yeni, uğurlu bir dövrün başlanğıcı hesab edir. Bizə möcüzə kimi görünən, xəyallarımızı gerçəkləşdirən qüdrətli və qətiyyətli bir liderin rəhbərliyi altında yaşamaq əsl xoşbəxtlik, gələcəyə olan inamdır. Güvəndikləri, inanıb etibar etdikləri tarixi şəxsiyyətin respublikaya rəhbərlik etməsinin hər anı, hər dəqiqəsi onu seçən xalqın uğurudur. 7 fevralda seçki günü küçələrə çıxıb şənlik edən insanlar da İlham Əliyevin timsalında öz uğurlarını qeyd edirdilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Exit-poll"un nəticələri Azərbaycanın demokratik inkişafının növbəti təsdiqi oldu







**Seçkilərdə demokratikliyin və şəffaflığın təmin olunması baxımından "exit-poll" əhəmiyyətli tədqiqat növü hesab edilir. O həmçinin kimin qalib gəldiyini operativ və obyektiv şəkildə müəyyənləşdirməyə, bununla da seçki kampaniyasına nəzarət etməyə imkan verir.**

Seçki günü sorğu aparan "exit-poll" əməkdaşları seçicilər məntəqələri tərk etdikləri zaman onlara kimə səs verdikləri barədə sual ünvanlayırlar. Könüllü və anonim aparılan sorğuda seçicinin cavabları heç kimə göstərilmir. Yaxud da seçicilər "exit-poll" sorğu vərəqini təklikdə doldurur, sonra onu seçki məntəqəsindən bir qədər aralıda qoyulan "exit-poll" qutusuna atırlar. Səslərin hesablanmasının yekun nəticələri "exit-poll"un gözlənilən xəta həddindən kənara çıxarsa, bu zaman səslərin rəsmi hesablanmasının saxta olması barədə şübhələr yaranır.

Ölkəmizdə seçkilər zamanı uzun müddətdir keçirilən "exit-poll" 7 fevral prezident seçkilərində də tətbiq edildi. Seçkilərdə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatı ilə birgə 40 seçki dairəsi üzrə 500 seçki məntəqəsində, "Rəy" Monitorinq Mərkəzi 33 seçki dairəsi üzrə 200 seçki məntəqəsində, "Sosioloji Tədqiqatlar Mərkəzi" MMC 25 seçki dairəsi üzrə 125 seçki məntəqəsində "exit-poll" keçirdi.

Fevralın 7-də keçirilən prezident seçkilərindən sonra "exit-poll" keçirən təşkilatlar nəticələri açıqladılar. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ilə ABŞ-nin "ORACLE ADVISORY GROUP"un nəticələrinə əsasən, seçicilərin 93,9 faizi, Sosioloji Tədqiqatlar Mərkəzinin nəticələrinə əsasən, seçicilərin 92,4 faizi, "Rəy" Monitorinq Mərkəzinin nəticələrinə əsasən isə seçicilərin 92,6 faizi İlham Əliyevə səs verib.

Azərbaycanın demokratik inkişafının nəticəsi olaraq prezident seçkiləri şəffaf, azad və ədalətli keçirildi. "Exit-poll"un nəticələri də bunu təsdiq etdi. Prezident seçkilərinin nəticələri Azərbaycanda demokratik dəyərlərin tam bərqərar olduğunu bir daha dünyaya nümayiş etdirdi.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

## Dağlar kimi vüqarlı...

**Torpaqlarımızın azadlığı uğrunda qanlı savaş başlayar-başlamaz qələbələri ilə xalqımıza böyük sevinc yaşadan zabit və əsgərlərlə görüşmək üçün cəbhə bölgəsinə - Kəlbəcər istiqamətinə getdik. Ordumuzun uğurlarından doğan sevincimizi cəsur oğullarımızla da bölüşmək üçün səngərlərə, mövqelərə bir az da tez çatmağa tələsirdik.**

Zabit və əsgərlərin yanına qaranlıq düşməyə az qalmış çatdıq. Başı göylərə söykənən dağlar qoynunda mövqe tutmuş, elə dağlar kimi vüqarlı, qayalar kimi əzəmətli zabit və əsgərlərimiz döyüşlərdə böyük qəhrəmanlıq göstərirdilər. Düşmən onların güclü həmlələri qarşısında dayana bilməyərək mövqelərini, silah-sursatını, döyüş texnikalarını qoyub qaçırdı. İllərdən bəri işğal altında qalmış torpaqlarımız addım-addım erməni qəsbkarlarından azad olunurdu. Silahları ilə tarix yazan bu oğullar iştirakçısı olduqları döyüşlərdən həvəslə danışırdılar.

### Hər şey cəbhə üçün - hər şey qələbə üçün

Tarixin bütün dövrlərində xalq həmişə ordusuna arxa durub, ona dəstək olub. Sevindirici haldır ki, tarixi ənənə Vətən müharibəsinin səngimədiyi günlərdə də davam edirdi.

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin dayaq məntəqəsində olarkən xalqın ordusuna necə böyük dəstək olduğunu gördük. Qürur duyduq və bir daha əmin olduq ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərin getdiyi gərgin günlərdə xalq Zəfər gününədək ordusunun yanındadır. Həmin günlərin şüarı isə "Hər şey cəbhə üçün - hər şey qələbə üçün" idi.

### Müharibə işğala son qoyulanacan davam etsin



O zaman düşmən təxribatı nəticəsində başlanan Vətən müharibəsi bir neçə gün davam edəndən sonra onun dayandırılacağı və yenidən atəşkəs elan olunacağı barədə söz-söhbətlər dolaşırdı. Xalqımız heç vaxt müharibə tərəfdarı olmayıb, qan tökülməsini istəməyib. Amma söhbət vətəndən, onun ərazi bütövlüyündən gedəndə, artıq bu istək heç nədən asılı olmadan dəyişir.

Uzun illərdən bəri erməni işğalından təngə gəlmiş insanlar saytlarda, mətbuat səhifələrində, sosial şəbəkələrdə müharibənin davam etməsini tələb edən rəylər yazırdılar. Rəylər ayrı-ayrı adamlar tərəfindən söylənilsə də, hamısı üst-üstə düşürdü, eyni hədəfi vururdu. Otuz ilə yaxın torpağı işğalda qalmış xalq müharibənin yarımçıq dayandırılmasının tərəfdarı deyildi. Hamı istəyirdi ki, döyüşlər qələbəyəcən, axırıncı erməni işğalçısı Laçın dəhlizindən çıxarılanadək davam etsin. Düşmən məhv olsun, diz çökdürülsün, yurdumuzdan qovulsun. Həmin günlər xalq da, hakimiyyət də istəyirdi ki, torpağında bir nəfər də olsun separatçı qalmasın. Ölkədə kimsənin dilindən "qaçqın", "köçkün" kəlmələri eşidilməsin. Onlar böyük sevinc içində doğma ocaqlarına dönsünlər. Kənd-kəsəklərindəki həyat işğaldan əvvəlki axarına düşsün.

30 ilə yaxın idi ki, hamı qələbəyə, zəfərə tamarzı qalmışdı. İşğal faktı uşaqdan tutmuş böyüyə kimi hər kəsi üzmüşdü. Hamı qələbə istəyirdi, hamı zəfər gözləyirdi. Şükürlər olsun ki, Vətən uğrunda gedən müqəddəs savaşa ara verilmədi, atəşkəs elan olunmadı. 44 gün davam edən döyüşlər ordumuzun qələbəsi ilə başa çatdı. Ermənilər məğlub olub ağ bayraq qaldırdılar. Vətən müharibəsində yumruq kimi birləşən ordumuz və xalqımız Ali Baş Komandanın rəhbərliyi altında düşmənə qalib gəldi, işğala son qoydu.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

## Vətənin müdafiəsinə tələsirdi

**"Bu hadisələr baş verənə qədər elə bilirdim ki, Rasim yalnız bizim ailənin övladıdır. Amma dəfn mərasimindəki izdihamı görəndə anladım ki, o, bütün Azərbaycan xalqının oğluymuş".**

Şəhid polisin anası Xuraman müəllimə danışır, bizsə susuruq... Bu, 44 günlük Vətən müharibəsindən və 23 saatlıq antiterror tədbirlərindən sonra şəhid ailəsində ən ağır, üzücü görüşlərimdən biridir. Bütün sözlər "xərclənib", təsəlli tükənib, göz yaşları quruyub. Hamımız cansız heykələ dönmüşük sanki, otaqda bir boşluq, səhra tənhalığı və uğultu var, Qarabağdan, Xocavənddən əsən küləklərin səsidir elə bil...

Şəhidin atası Oqtay kişi təmkinli, ağır təbiətli, dünyagörmüş adamdır. Amma övlad itkisi onu həm də qaradinməz edib. Odur ki, az danışdı, oğluyla evdəki sonuncu söhbətini xatırladı: "Əvvəl də 3-4 dəfə işğaldan azad olunmuş ərazilərə getmişdi. Axırıncı dəfə sentyabrın 19-da yola çıxmağa hazırlaşırdı. Getməmişdən əvvəl yanıma gəldi. Ona ürək-dirək verdim. Dedim, qorxma, cəsarətlə get, bu bizim son döyüşümüz olacaq, Xankəndiyə bayraq sancacağıq. Onu belə yola saldım. Bir də axırıncı dəfə axşamüstü, saat 4-5 radələrində zəngləşdik. Dedi ki, danışa bilmirəm, yoldayıq. Bu, sonuncu söhbətimiz oldu. Şəhid olandan sonra komandiri telefonla mənə söylədi ki, necə dürüst, vətənpərvər, ətrafı ilə qayğıkeş ünsiyyət qurumuş Rasim. Mən hələ bu yaşacan oğlumun ətrafı ilə belə münasibətdə olduğunu görməmişdim".

"Mən daim şəhid ailələrini dəvət edib məktəbdə tədbirlər keçirmişəm. İndi həmin analar mənə dəstək olmağa, ürək-dirək verməyə gəlirlər", - deyə Xuraman ana söhbəti davam etdirir: "Həmişə millətimizin balalarını sinəmə sıxmışam, onlara qayğı göstərmişəm. İndi oğlum öhdəmizdə çox ağır yük qoyub getdi - iki övladı bizə yadigar qaldı".

Məmmədov Rasim Oqtay oğlu 1987-ci il oktyabrın 8-də Bakıda doğulmuş, 254 nömrəli məktəbdə oxuyub, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. Ordu sıralarında həqiqi hərbi xidmətdən sonra Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında xidmətə başlayıb. 19 sentyabr 2023-cü ildə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri zamanı Xocavənd rayonunda şəhidlik zirvəsinə ucalıb. Ertəsi gün Şüvəlan qəbiristanlığında torpağa tapşırılıb. Rüstəm və Rəsul adlı iki oğlu yadigar qalıb.

Evində yaradılmış guşədə şəhidin fotoları, əşyaları, forması var. Məzarından götürülmüş torpaq və şəhid olan anda dayanmış qol saatı diqqət çəkir. Həyat yoldaşı Nigar Məmmədovanın bildirdiyinə görə, həmişə hər yerə tələsən Rasim sonuncu dəfə sentyabrın 18-də evə tələsik gələrək lazım olan əşyalarını toplayıb, yalnız anası və övladları ilə sağollaşa bilib: "Çox yaxşı insan idi, yoldaş idi, ata idi. Yanımda olanda sanırdım dağa söykənmişəm".



Rasim işğaldan azad olunan torpaqlara polis əməkdaşı kimi ezam edilmişdi. Və hər dəfə həmin müqəddəs ünvana - Azərbaycanımızın Qarabağ adlı bir parçasına böyük ruh yüksəkliyi ilə, sanki uça-uça gedirdi. Şübhəsiz ki, tarixi Zəfərimiz, ərazi bütövlüyümüzün təmini nə qədər şirin, qürurvericidirsə, itkilərimizin acısı da o boyda ağrılı, yanğılı, təəssüf doğurandır.

Xuraman xanım danışır ki, sonuncu səfərindən əvvəl gəldi, görüşdük. Ananın övladına ürək sözü nə ola bilərdi ki. Tapşırdım ki, ehtiyatlı olun. Dedi, neçə dəfə getmişik, bu dəfə də sağ-salamat qayıdacağıq, ürəyini buz kimi saxla.

Oğlunun şəhadətindən sonra yuxusu ərşə çəkilib ağbirçək müəllimənin, hər gecə o ümidlə yatır ki, bəlkə onu röyasında görər: "Yatıram ona görə ki, bəlkə yuxuma gələr. Hər səhər oyananda deyirəm, ay bala, yenə səni görə bilmədim. Qohumlardan kimin yuxusuna gəlibsə, hamısına "anam ağlamasın" deyib.

Bəli, polis çavuşu Rasim Məmmədov həmişəki kimi, yenə də vədinə xilaf çıxmadı, verdiyi sözə sədaqət göstərib qayıtdı. Amma bu dəfə daha uca və şərəfli adla, müqəddəs Azərbaycan bayrağına bükülmüş pak şəhid kimi...

*Qurban MƏMMƏDOV*

● Tarix yazan oğullar

## Yuxu kimi bir ömür



**"Mirzağa dünyaya gəlməmişdən bir neçə gün əvvəl yuxuda görmüşdüm ki, qardaşım Məmmədbağırın evi yanır. Bütün qohum-əqrəba da oradadır. Nə qədər çalışsaq da, alovu ram edə bilmirdik. Bu zaman əlində Azərbaycan bayrağı, əynində zabit mundiri olan bir oğlan uşağı gülə-gülə odun içindən çıxdı. Onun yanan evdən çıxması ilə də alovun sönməsi bir oldu. Orada olan qohum-əqrəba bu oğlana yanğını söndürdüyü üçün minnətdarlıq edəndə, "mən Məmmədbağırın oğlu Mirzağayam, bu yanan da bizim öz evimizdir", - dedi.**

Ertəsi gün qardaşımı görüb oğlu olacağını yuxuda gördüyümü dedim. Heç bir həftə çəkmədi ki, qardaşımın oğlu dünyaya gəldi, uşağa atamızın adını qoyduq - Mirzağa. O, uşaqkən yolunu özü seçdi. "Hərbçi olacağam, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda lazım gələrsə canımı da qurban verəcəyəm", - dedi. 2011-ci ildə Xıllı qəsəbəsində R.Gözəlov adına 1 nömrəli tam orta məktəbin doqquzuncu sinfini bitirib təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə davam etdirdi".

Cavad kişi qəfildən hönkürüb ağladı. Sən demə, qardaşı oğlunun çıxdığı bu yol onu şəhidliyə aparacaqmış... "Allah Mirzağa və Vətən üçün canından keçən bütün şəhidlərimizə rəhmət etsin. Böyük dərddir. Atası hələ də şəhid olmasına inanmır, övladının yolunu gözləyir", - dedi.

Şəhid Əliyev Mirzağa Məmmədbağır oğlu 1996-cı il iyunun 15-də Neftçalanın Xıllı qəsəbəsində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirdikdən sonra 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib.

2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində leytenant hərbi rütbəsində taqım komandiri kimi hərbi xidmətə başlayan Mirzağa 2020-ci il sentyabrın 27-dən torpaqlarımızın azad edilməsi uğrunda gedən Vətən müharibəsində iştirak edib. Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunması uğrunda döyüşlərdə iştirak edib.

Oktyabrın 7-də Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirib, düşmənin xeyli canlı qüvvəsini məhv edib. Geri dönərkən döyüş yoldaşları ilə birgə olduğu PDM ermənilər tərəfindən vurulub. Gənc leytenant Mirzağa Əliyev hərbi maşındakı 2 döyüş yoldaşını çıxarıb onların həyatını xilas etsə də, özü şəhidlik zirvəsinə ucalıb.

Əmisi Cavad kişi deyir ki, qara xəbər tez yayılır: "Kənddə hamı Mirzağanın şəhid olmasından danışırdı. Nəşi gec gəldiyindən kənddə şayiələr də yayılmışdı. Atasından DNK analizi götürmüşdülər... Nə isə, oktyabrın 18-də şəhidimizi Xıllı qəbiristanlığında dəfn etdik".

Qəhrəman döyüşçü, gənc leytenant Mirzağa Əliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Milli Aviasiya Akademiyasında beynəlxalq elmi-praktik gənclər konfransı keçirilib

**"Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyasında (MAA) Azərbaycanda Gənclər Gününə və Azərbaycanın ilk telekommunikasiya peyki olan "Azerspace 1"in orbitə buraxılması tarixinə həsr olunan "Fevral məruzələri 2024: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı" 9-cu Beynəlxalq elmi-praktik gənclər konfransı öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, təşkilatçıları Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos), "Azərbaycan Hava Yolları" QSC, Azərbaycan Mühəndislik Akademiyası olan konfransda Rusiya, Türkiyə, Almaniya, Fransa, Portuqaliya, Litva, Ukrayna, Belarus, Qazaxıstan və Azərbaycandan 30-dan çox elm və təhsil müəssisəsini, o cümlədən 17 universitet, 9 tədqiqat mərkəzi, institut, dövlət qurumları və aparıcı firmaları təmsil edən 150-dən çox iştirakçı qoşulub.

Konfransı giriş sözü ilə açan MAA-nın birinci prorektoru, professor Ədalət Səmədov MAA-nın rektoru, akademik Arif Paşayevin konfrans iştirakçılarına təbrikini oxuyub.

Qeyd olunub ki, son "Fevral məruzələri"ndən keçən 1 il ərzində ölkəmizin həyatında çox əlamətdar tarixi hadisələr baş verib. Belə ki, 2023-cü il sentyabrın 20-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub.

Azərbaycanın aerokosmik həyatında da əlamətdar hadisələr baş verib. 2023-cü ilin 2-6 oktyabr tarixlərində Bakı mötəbər bir tədbirə - 74-cü Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edib və MAA da öz növbəsində konqresin işində tərəfdaş kimi yaxından iştirak edib.

Builki "Fevral məruzələri"ndə səkkiz bölmə üzrə aerokosmik sahə, mülki aviasiya, nəqliyyat, İKT, aerokosmik monitorinq, meteorologiya, logistika, radioelektronika, fizika, kimya, iqtisadiyyat və hüquq sahələrinin aktual problemlərinə dair 150-dən çox məruzə təqdim edilib.

Elmi müzakirələrlə yanaşı, konfrans proqramında "Mülki aviasiya irsi və gələcəyə baxış: iqtisadi və hüquqi çağırışlar" mövzusunda "dəyirmi masa", həmçinin "X-ray qurğusu vasitəsilə əl yükünə və baqaja baxış" mövzusunda, "Azərbaycanda logistikanın modernləşdirilməsi və rəqəmsallaşdırılması. Yeni bazarlara çıxış" mövzusunda, "Zəngəzur dəhlizinin strateji əhəmiyyəti" mövzusunda ustad dərsləri, eləcə də rus dilində "Beynəlxalq nəqliyyat dəhlizləri və logistik mərkəzlər" (müəlliflər: Bala ağa Kərimov, Elman Nəcəfov, İndira Asilbekova, Alparslan İmamqulu) kitabının geniş təqdimatı da nəzərdə tutulub.

Plenar iclasda rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, Elm və Təhsil Nazirliyi Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, MAA-nın birinci prorektoru, professor Ədalət Səmədov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti vəzifəsini icra edən Samir Rzayev, baş prokuror Kamran Əliyev və sonda M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru Nərgiz Paşayeva da çıxış ediblər.

Konfransda bir sıra videotəbriklər də səsləndirilib.

Qeyd edək ki, "Fevral məruzələri - 2024" beynəlxalq konfransı fevralın 10-dək davam edəcək.

## Qəhrəman vətən oğulları

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, 2 nömrəli kitabxana filialı, "Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi" və "Azərbaycan Yazıçı Qadınlar Cəmiyyəti" ictimai birliklərinin təşkilatçılığı ilə şəhidlərə həsr olunmuş "Qəhrəman Vətən oğulları" adlı ədəbi-bədii gecə keçirilmişdir. Tədbir Yasamal rayon Heydər Əliyev Mərkəzində olmuşdur.**



Ədəbi-bədii gecəni açan Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru, tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova şəhid valideynlərini, qaziləri, veteranları və qonaqları salamladı. Qeyd edildi ki, şəhid ailələri daim dövlətin diqqət mərkəzindədir. Biz işğal altında olan torpaqlarımızı qanları, canları bahasına yağılardan azad edən şəhidlərimizə, qazilərimizə və veteranlarımıza borcluyuq. Azərbaycan Silahlı Qüvvələrinin 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə və yanvarın 17-də həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Horadiz qəsəbəsi, həmçinin Arazboyu bir neçə kənd işğaldan azad olundu. Bu uğurlu əməliyyat Ulu Öndərimizin adı ilə bağlıdır. Şəhidlərin və onların valideynlərinin qarşısında hamımız baş əyirik. Şəhidlərin adı Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılıb.

2 nömrəli kitabxana filialının müdiri vəzifəsini icra edən İradə Hüseynova, "Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi" ictimai birliyinin sədri Mehriban Abdullayeva, "Azərbaycan Yazıçı Qadınlar Cəmiyyəti" ictimai birliyinin sədri, yazıçı-publisist Nüşabə Məmmədli şəhid adının hər birimiz üçün əziz və müqəddəs olduğunu bildirdi, igid döyüşçülərimizin qəhrəmanlıqlarından bəhs etdilər.

Şəhid valideynləri Alimə Cəfərova, Hürnisə Kərimova, Çimnaz Baxşəliyeva, Fəxriyə Burciyeva, Qüdrət Hüseynov, ehtiyatda olan zabit Elçin Axundzadə, "Mədəni İnkişafın Təbliği" ictimai birliyinin sədri Xatirə Fərəcli, qazilər Elnur Fərzəlibəyov, Vüqar Əhmədov və başqaları qürur hissi ilə ordumuzun apardığı uğurlu əməliyyatlardan, şəhidlərimizin döyüşlərdə göstərdiyi şücaətlərdən danışdılar.

*"Azərbaycan"*

● Unudulmazlar

## Andına sadiq qaldı

**İkinci Qarabağ müharibəsi başlayanda cəsur oğullarımız silaha sarılaraq erməni işğalçılarına qarşı mübarizəyə qalxdılar. Qanlı döyüşlərdə düşmənə qalib gələrək xalqımıza Zəfər sevinci yaşatdılar.**



Vətənin müdafiəsinə qalxan oğullardan biri də polkovnik-leytenant Elzamin Təhməzov idi. O, 26 oktyabr 1979-cu ildə Bərdə rayonunun Şirvanlı kəndində dünyaya göz açmışdı. Orta təhsilini başa vurduqdan sonra zabit olmaq arzusu ilə Heydər Əliyev adına Hərbi İnstitita qəbul olmuşdu. Hərbi bilikləri dərindən öyrənən Elzamin təhsilini başa vurduqdan sonra leytenant rütbəsi alaraq gənc zabit kimi xidmətə başlamışdı. Daim təcrübə və səriştəsini artıran E.Təhməzov dəfələrlə Amerika, Almaniya, Pakistan, İraq, Sloveniya, Türkiyə, həmçinin NATO təlimlərində ölkəmizi layiqincə təmsil etmişdi. Uzaq və yaxın səfərlərdən geriyə böyük uğurlarla dönmüşdü.

İllər ötüb arxada qalmışdı. Artıq Elzamin polkovnik-leytenant rütbəsində idi. Vətənə ürəkdən bağlı olan zabit torpaqlarımızın uzun illərdən bəri erməni işğalında qalmasından çox rahatsız idi. E.Təhməzov ölkəmizin ərazi bütövlüyünün təmin olunacağı günü səbirsizliklə gözləyirdi. Yaxşı bilirdi ki, düşmən torpaqları sülh yolu ilə qaytarmayacaq. Vətən uğrunda döyüşmək, vuruşmaq lazımdır.

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda polkovnik-leytenant Elzamin Təhməzov ön sıralarda idi. Suqovuşan kəndinin azadlığı uğrunda döyüşürdü. Erməni işğalçıları bu istiqamətdən daha güclü hücuma keçmişdi. Ordumuzun zabit və əsgərləri düşmən hücumunun qarşısını almaq üçün cəsarətlə vuruşurdular. Yağıların mövqeləri, dayaq məntəqələri dəqiq atəş zərbələri ilə məhv edilirdi. Nə qədər çətin və gərgin olsa da, düşmənin qarşısı qətiyyətlə alınırdı. İşğalçılar müxtəlif istiqamətlərdən hücuma keçərək döyüşçülərimizi mühasirəyə almağa çalışırdılar. Elzamin bu döyüşdə böyük igidlik göstərdi, hünəri ilə ad-san qazandı.

Təəssüflər olsun ki, cəsarətli zabit döyüşlərin həlledici anında düşmən silahının hədəfinə tuş gəldi. Vətən müharibəsinin ikinci günü - sentyabrın 28-də müdafiəsinə qalxdığı Suqovuşan kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Əks-həmlə əməliyyatlarının qızğın vaxtında cəsur zabitin yaxınlığına yağıların atdığı mərmi düşdü. Elzaminin uğurla başlayan döyüş yolu beləcə yarımçıq qaldı.

Yaxınları, əzizləri acı göz yaşları içində Azərbaycan Ordusunun cəsur zabitini 41 il əvvəl dünyaya göz açdığı Bərdə rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırdılar.

Polkovnik-leytenant Təhməzov Elzamin Kamal oğlu Vətən müharibəsində göstərdiyi igidliyə görə 3-cü dərəcəli "Rəşadət" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.

Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş zabit Elzamin Təhməzovun ailəsində iki qız - Aysel və Aysu böyüyür. Onlar həmişə atalarını qəhrəman kimi xatırlayacaq, onunla fəxr edəcəklər.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələri və gəmiləri üçün müxtəlif növ nəzarət və ölçü cihazlarının satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 fevral 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələri və gəmiləri üçün müxtəlif boruların və polad keçidlərin, dirsəklərin, torların, dairələrin, şvellerlərin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 fevral 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2. AZ1003.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan dəniz təyinatlı akkumulyatorların satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 fevral 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

### *2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Xocalıda kütləvi məzarlıq aşkar edilib







**İşğaldan azad olunan Xocalı rayonunda kütləvi məzarlıq aşkar edilib.**

AZƏRTAC xəbər verir ki, Əsgəran qalasının yaxınlığında aşkarlanan məzarlıqda azı 8 insan qalığı var. Qalıqların Xocalı faciəsi zamanı qətlə yetirilən sakinlərə məxsus olması ehtimal edilir.

Müvafiq qurumların nümayəndələri yerli və xarici jurnalistlərin iştirakı ilə kütləvi məzarlığa baxış keçiriblər.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə məxsus 02484 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Nəsib Məhəmməliyev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi AHİK sədrinin müavini, Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK-in sədri Musa Mirzəyevə əzizi

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Nağıyevlər ailəsinə anaları

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səbail rayonundan Vuqar Zeynalov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi İlqar Abbasov və agentliyin kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ənvər Seyidov ailəsi ilə birlikdə general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Avrasiya Universitetinin rektoru professor Nazim Hüseynli Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mətanət A" Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri Elxan Bəşirov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI NAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtərdən Müstəqim Məmmədov Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə anası

**NAZLI XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3916**
**Sifariş 282**

**Qiyməti 60 qəpik**